# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI ANTOLOGİYASI

ÜÇ CİLDDƏ

I CİLD

**XX ƏSRƏ QƏDƏRKİ UŞAQ ŞERİ**

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI–2005

Tərtib edəni: **Qara Namazov**

Redaktoru: **Teymur Əhmədov**

**894 361'08 - dc 21**
**AZE**

**Azərbaycan uşaq ədəbiyyatı antologiyası.** Üç cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2005, 248 səh.

Azərbaycan uşaq ədəbiyyatının ən əsas və aparıcı qolu uşaq poeziyasıdır. Məktəb yaşlılar üçün nəzərdə tutulan "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nın bu cildində XX əsrə qədərki Azərbaycan poeziyasından seçmələr təqdim olunmuşdur. Bunlar yeniyetmələrin yaş səviyyəsinə uyğun olub, böyüməkdə olan gənc nəslin tərbiyəsində başlıca vasitə kimi yeni keyfiyyətli, yüksək bədii dəyərə malik uşaq ədəbiyyatı nümunələridir.

**ISBN 9952-416-71-6**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖYRƏDƏN POEZİYA

Qədim və orta əsr Azərbaycan şeri – müxtəlif tarixi mərhələlərdən keçib, zəngin məzmuna və tematik mündəricəyə malik olmuşdur.

Bu poeziya vasitəsilə nəsillər babaların keçdiyi həyat yolunu, yaşayış tərzini, bədii-estetik dünya görüşünü, yadellilərə qarşı mübarizəsini öyrənmiş və ibrət almışlar. İstər qədim "Dədə Qorqud" və "Koroğlu" eposları, istərsə də Xaqani, Məhsəti, Nizami, Nəsimi, Xətayi, Füzuli, Vidadi və Vaqifin mübariz, hikmətamiz, nəsihətamiz, həyat və gözəlliyi təbliğ edən, həmişə düşündürən zəngin bədii irsi gənclərimizin bədii zövqünün yetkinləşməsində, bir vətəndaş kimi böyüməsində əsl tərbiyə məktəbi olmuşdur. Klassik poeziya yeniyetmələrdə Vətənə böyük məhəbbət, valideynə dərin hörmət, böyüklərə ehtiram, kiçiklərə qayğı, elmə və sənətə həvəs kimi həyatın ən vacib şərtlərini tərbiyə etmişdir.

Lakin qədim və orta əsr şairlərimizin əksəriyyəti ədəbi-bədii yaradıcılığında ərəb və fars dillərindən, onun poetik formalarından daha çox istifadə etdiklərindən yeni nəsil, ərəb və fars dillərini də mükəmməl öyrənməyə məcbur olurdu. Ərəb və fars dillərində daha çox divan ədəbiyyatı, Azərbaycan dilində isə xalq poeziyası və xalq dastanları yaranıb yayılırdı.

IX-X əsrlərdə "Dədə Qorqud" eposu Yaxın və Orta Şərqdə geniş şöhrət tapmışdı.

Divan ədəbiyyatını yaradan Qətran Təbrizi (XI əsr), Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Əbülüla Gəncəvinin (XII əsr) əsərlərinin mövzusu Azərbaycan və ümumi Şərq həyatından, Şərq mühitindən alınmışdır. Lakin orta əsrin ilk pilləsində Azərbaycan şifahi söz sənətindən və ozan-aşıq şeri qaynaqlarından qidalanan yazılı poeziyanın Molla Qasım, Aşıq Paşa, Aşıq Paşazadə, Qazi Bürhanəddin, Həsənoğlu, Nəsimi kimi XIII-XIV əsrlərdə görkəmli nümayəndələri yetişir. Şah İsmayıl Xətayi və Füzulinin simasında Azərbaycan şeri XVI əsrdə sənətin ən yüksək zirvəsinə qalxır. Bu şerin mündəricəsində şəxsiyyət azadlığı, insanın nəcib hiss və duyğuları, insanın bütün varlığın tacı kimi təcəssümü, onun ülvi məhəbbəti və bu kimi bəşəri mövzular başlıca yer tuturdu.

Əlbəttə, orta əsr feodalizm mühitində və dini təriqətlərin hökm sürdüyü bir şəraitdə humanizmin təbliğinə böyük ehtiyac duyulurdu. Mütəfəkkir şairlər ideal və humanist hökmdar obrazları yaratmaqla hakim təbəqənin insana münasibətini dəyişdirməyə çalışırdılar. Təbii olaraq burada bədxahlığa qarşı xeyirxahlıq, yamanlığa qarşı yaxşılıq, alçaqlığa qarşı ucalıq, riyakarlığa qarşı

nəciblik, mənəvi yoxsulluğa qarşı mənəvi zənginlik kimi bir-birinə zidd iki mövqe qarşı-qarşıya dayanırdı. Saraylardan uzaq yaşayıb, xalq təfəkkürünə arxalanan insanşünas şairlər (Nizami, Məhsəti) insan ləyaqətini tərənnüm edir, gələcək nəsillərin də bu ruhda tərbiyə olunmasına çalışırdılar. Buna görə də qədim və orta əsrlərdə didaktik tərbiyəyə, öyüd-nəsihətə daha geniş yer verilirdi.

Dahi Nizami öz nəsihətlərində bilik əldə etməyi, dünyanı öyrənməyi, təbiət aləmini, canlıları, başlıcası insanı öyrənməyi yeni nəslə tövsiyə edirdi:

Sən çalış yaxşıca öyrən dünyanı,
İnsanı, bitkini, daşı, heyvanı.
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdən hədər.

Azərbaycanın ictimai, siyasi və mədəni həyatında sonrakı yüzilliklər (XVI-XVIII əsrlər) ictimai təfəkkürün, vətəndaşlıq və milli şüurun yeni məziyyətləri ilə daha çox səciyyələnir. Belə ki, Şah İsmayıl Xətayinin rəhbərliyi ilə yeni təkamül yoluna çıxan milli istiqlaliyyət və mədəniyyət, ədəbiyyat və incəsənətin də qarşısına yeni tələblər qoydu.

Çox kiçik yaşlarından xalqın bədii söz sənətinə, ozan aşıq yaradıcılığına dərin maraq göstərən və öz ana dilində gözəl şeirlər yazan Şah İsmayıl Xətayi Azərbaycan mədəniyyətini yeni bir mərhələyə qaldırdı. Səfəvi dövlətinin başında duran Xətayi böyük mədəniyyət hamisi idi. Onun Azərbaycan dilində xalq şeri şəkillərində yazdığı qoşma və varsağılarında nikbin və şux əhvali-ruhiyyə, xalq yaradıcılığından gələn məhəbbət və gözəllik duyğuları, təbiət gözəlliyinin vəsfi başlıca yer tutur. Onun "Dəhnamə" poeması da bu ruhda yazılmışdır.

M.Füzulinin simasında isə Azərbaycan ədəbiyyatı yeni, daha yüksək mərhələyə qalxdı. Füzuli "Leyli və Məcnun" dastanı ilə ana dilində yeni bir ədəbi məktəbin əsasını qoydu.

XVII yüzillikdə xalq şeri və aşıq poeziyası yazılı ədəbiyyata nisbətən daha zəngin şəkillərə və mündəricəyə malik idi. Artıq ailə-məişət və pak məhəbbət mövzuları xarici istilaçılara və feodal-patriarxal ənənələrə qarşı mübarizə, xalq və aşıq şerinin məhdud ölçülərinə sığmır, lirik şeir nəsrlə birləşərək xalq dastanlarının yaranmasına səbəb olurdu: "Əsli-Kərəm", "Aşıq Qərib", "Qurbani", "Abbas və Gülgəz", "Şah İsmayıl" və nəhayət, "Koroğlu" dastanları məhz bu dövrün ictimai-əxlaqi münasibətləri zəminində yaranmışdır. Vidadi, Vaqif, Xəstə Qasım kimi yeni realist şerin baniləri məhz bu mənbədən qidalanmışlar.

Şübhəsiz, orta əsrlərin müxtəlif mərhələlərində yaranıb yayılan bu epik söz sənəti düşündürücü, tərbiyəedici poeziya idi. Bu poeziya gəncliyi mənəvi saflığa, ləyaqətə, insansevərliyə və vətəndaşlığa səsləyirdi.

Şübhəsiz, yeni əsrin (XIX əsr – *Q.N.*) qabaqcıl ziyalıları qədim və orta əsr yazıçılarının bu humanist ideyalarını ləyaqətlə davam etdirmək üçün ilk növbədə maarifçilik görüşlərini başlıca vasitə hesab edirdilər.

Maarifçilik cərəyanı Azərbaycanda mərhələdən-mərhələyə təkmilləşərək, xalqın maariflənməsinə yönəlir, xüsusilə yeni nəsli elmə, biliklərə həvəsləndirmək onların başlıca məqsədi olur. Bu, ilk maarifçilərdə (A.A.Bakıxanov, Q.B.Zakir, M.Ş.Vazeh və b.) hələlik bəsit nəzərə çarpsa da M.F.Axundov, S.Ə.Şirvani, H.B.Zərdabi və N.B.Vəzirovun simasında canlanmış, yeni səviyyəyə qalxmışdır.

Maarifpərvər şairlər qədim ədəbiyyatın "Nəsihətnamə" cığırından çıxıb, müxtəlif ədəbi janrlarda yeni məzmunlu əsərlər yazaraq yeniyetmələri dövrün tələbindən irəli gələn mədəni yüksəlişlə ayaqlaşmağa çağırırdılar. Digər tərəfdən ictimai mühitin təbiətindən irəli gələn ziddiyyətləri, cəmiyyətin inkişafına buxov olan köhnə "qanunları", adətləri tənqid və ifşa edirdilər. M.F.Axundov "Məktublar"ında, povest və komediyalarında həmin bu buxovu başlıca konflikt hesab edir, onların aradan götürülməsinə demokratik mövqedən yanaşırdısa, S.Ə.Şirvani yeni nəslin nicat yolunu maarifçiliyin geniş yayılmasında görür və əsərlərini bu ruhda yazırdı.

Demokratik və maarifçi görüşlərin yüksəlişi yeni tipli məktəblərin açılmasına, milli mətbuatın və milli teatrın yaranmasına zəmin hazırladı.

Şübhəsiz, yeni üsullu məktəblərin açılması yeni məzmunlu uşaq ədəbiyyatının və uşaq dərsliklərinin yaranmasını tələb edirdi. S.Ə.Şirvani belə bir ədəbiyyatın təməlini qoydu. O, tədris olunmaq üçün tərtib etdiyi dərsliklərə özü yazdığı yeni məzmunlu, yeni ruhlu şeirlərini daxil etmişdi. Bu şeirlərdə şair milliyyətindən asılı olmayaraq yeni nəsli hər şeydən əvvəl elmli, bilikli sənət sahibi və ümumiyyətlə, dövrünün savadlı, mədəniyyətli, xalqa xidmət edən ziyalı adamı kimi görmək istəyirdi.

Bu illərin poeziyasına yeni bir motiv də gəldi. Bu, demokratik ədəbiyyatın simasını müəyyən edən, məzmunda özünə geniş yer tapan inqilabi motiv idi. 1905-ci il inqilabı ədəbiyyatda və həmçinin Azərbaycan uşaq ədəbiyyatında dərin kök saldı.

Bununla belə ədəbi məktəblərin nümayəndələri müxtəlif yaradıcılıq üslublarına malik olsalar da, onları bir əqidə, bir məram birləşdirirdi: genişlənməkdə olan milli məktəblər, mətbuat və teatr vasitəsilə yeniyetmələr arasında savadsızlığa və ümumi mədəni geriliyə qarşı mübarizəni genişləndirmək, təhsil və tərbiyəyə yönəldilən uşaq ədəbiyyatının ideya-bədii məzmununu zənginləşdirmək. İlk uşaq mətbuatının yaranması da ("Dəbistan" – 1906-1908, "Rəhbər" – 1906-1907, "Məktəb" – 1911-1920) Azərbaycan və başqa xalqların uşaq ədəbiyyatının çap olunub yayılmasına imkan yaratdı.

Əsrin əvvəlində Azərbaycan uşaq ədəbiyyatı yeni bir mərhələyə qalxdı. Bu ədəbiyyatın hərtərəfli inkişafında C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabir, R.Əfəndiyev, Ə.Cavanşir, F.Köçərli, A.Səhhət, S.S.Axundov, A.Şaiq, Ə.Nəzmi və başqalarının, həmçinin bir çox müəllim və jurnalistlərin unudulmaz xidmətləri olmuşdur. Bu yazıçıların fəaliyyət dairəsi geniş idi. Onlar bədii yaradıcılıqla yanaşı müəllimlik edir, dərsliklər hazırlayır, nəşriyyatlarda çalışır, dövri mətbuatda fəal iştirak edir, teatr tamaşaları hazırlayır, yeri gələndə aktyor və rejissor kimi də işləyir, maarif, mədəniyyət və incəsənətin bütün sahələrində qızğın fəaliyyət göstərirdilər.

Yeni məzmunlu Azərbaycan uşaq ədəbiyyatı ilk növbədə xalqın zəngin şifahi söz sənəti, klassik Şərq şerinin nəsihətamiz motivlərindən qidalanır, rus və Qərb ədəbiyyatından edilən tərcümələr vasitəsilə zənginləşirdi.

***Qara Namazov***

# XAQANİ
## (1126-1199)

### SAVALAN DAĞININ TƏRİFİ

Səadət qibləsi Savalan dağı,
Kamalda Kə’bə tək qazanıb şöhrət.
Kə’bə yaşıl geyər, ağ bürünər o,
Çünki ehram tutan geyər ağ xəl’ət.
Bir yerdə oxudum fəzilətindən,
Üç ildir çəkirəm görməyə həsrət.
Getdim ki, başına dolanım onun,
Dağlar anasıdır çünki o afət.
Başdan ayağadək örtükdədir o,
Deyir – bakirəyəm, – açınca söhbət.
Min illər ömr edən bu qoca qarı,
Desə – bakirəyəm, yalandır əlbət.
Gəldi daxmasına Xızırla Musa,
O, fəqir dərviş tək çəkdi xəcalət.
O qarının yaman böyük burnu var,
Gizlədər burnunu örtüklə hər vaxt.
Dedim ki, çadranı üzündən götür,
Kim dedi, qız kimi üzünü gizlət?
Dedi ki, dörd aydan sonra bir külək –
Qapanda çadramı görünər surət.
Xaqani, gəl onda bu bakirəyə –
Şerini çadra et, göstər məharət.

### ŞİRVANIN TƏRİFİ

Şirvan ki var, hər cəhətdən ülviyyətin anasıdır,
Onun hər cür səhər yeli dərdlərimin davasıdır.
Mən vətənə qurban olum, qurulmuşdur düzgünlüklə,
Bağdadı da dolandıran onun bollu qidasıdır.
Şirvan əhli alicənab yaranmışdır, başdan-başa

O yer gözəl təbiətli bir lətafət mə'vasıdır.
Bağdad isə bir əlillər ölkəsidir, orada, bax,
Hər tərəfi çulğalayan ah-nalə sədasıdır.
Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,
Gözləri tox, ürəkləri sanki kərəm dəryasıdır.
Çörəkləri arpadan da olsa, yenə qanedirlər,
Düyü qədər pulu olsa qürrələnməz, ədasıdır.
İndi Şirvan həsrət ilə mənə qalmış intizarda,
Çünki ora ədəb yurdu, cəsur şirlər yuvasıdır.
Mə'rifətdə Şirvan əhli yüksək durur ərəblərdən,
Xaqaniyə həyat verən doğma yurdun havasıdır.

## GƏNCLƏRƏ NƏSİHƏT

Fitnə törətmə, ey fitnəkar cavan!
Fitnədir elləri dərdlərə salan.
Cana məlhəmsə də vəfa, e'tibar,
Fitnəkarlıq edər onu tarimar.
Məhşərin sübhüdür, lağım atma sən,
Gizli lağım qazan qorxar sübhdən.
Hiylə – oğurluqdur, xoşsa əvvəli,
Oğrunun axırda kəsilər əli.
Hiylənin şişindən qızarır üzün,
Qızaran üzlər şişəndir bütün.
Nifaq xəstəsisən nə qədər ki sən –
Əlac saymaqdan da ziyan görərsən.
Vəfa küçəsində ev tut, yəqin bil:
Vəfa mənzilidir ən yaxşı mənzil.
Bu gün yoxdursa da kimsədə vəfa, –
Vəsiyyət edirəm: olma bivəfa.
Çalış az dostluq et, etsən də əgər,
Dostluqda möhkəm ol, sözdə mö'təbər.
Dostu qovanları alma yanına,
Yoxsa gözün ağlar bu əhvalına.
Dostun haqlı vursa birini zinhar,

Demək ki, layiqdir, çıxma havadar.
Dostun bir adamı ayaqdan salsa, –
Ucaltma başını, Cəmşid də olsa.
Dost müttəhim edib, kimi etsə rədd, –
Qardaşın olsa da, önünə çək sədd.
Qırsa bir budağı dost hirslənərək, –
O, cənnət ağacı olsa da, əl çək.
Dostun əkdiyi gül olsa da tikan, –
Çıxarıb yerindən onu atma sən.
Özgənin əlilə adam olanlar –
Nə dost qədri bilər, nə ülfət anlar.
İsa düzəldən gil quşdur ki, quşdur,
İdris əkən qamış qələm olmuşdur.
Həqq yolunda çalış o qədər ki, həqq –
Razı qaldığını biləsən mütləq.
İsanı narazı, keşişi məmnun –
Edəndən olarmı, de, həvariyyun?!
Bir kiçik adama nəvaziş etsən,
Sənin böyüklüyün getməz əlindən.
İtə nə rəng vursan itdir, arslandan –
Qalan sümükləri yeyər hər zaman.
Razılıq etsə də səndən bir nadan, –
Gərək tərifinə aldanmayasan.
Sən onu öydükcə, o lovğalanar, –
Özünü yoldaş yox, əmoğlun sanar.
Daha boyun qoymaz işə, xidmətə,
Lovğalar yabançı olur hörmətə.
Kiçiyə böyüklər ad qazandırar,
Şaha xidmət edən bayraq ucalar.

Ey Xaqani, çörək üçün öz abrını tökmə sən,
Abrını tökən tamah canı alar əlindən.
Bilirsən ki, nələr çəkdi Adəm buğda ucundan,
Onun kimi dərdə düşər çörək yeyən hər insan.
Yol üstündən qırıntılar daşıyan qarışqalar
İnsanların ayaqları altında tapdanarlar.

Uşaq bir az çörək taxıb qarmağına hər zaman
Balıqları şikar edir bu yol ilə çox asan.
Boğaz üçün suda balıq keçirsə öz canından,
Təəccübə dəyərmi heç canından keçsə insan?

## TƏMSİL

Kufəli bir gözəl kor bir əcəmlə, –
Oturub eşqdən edirdi söhbət.
Dedim həmin kora: – Aldanma qıza,
O sənin puluna salmış məhəbbət.

Axmaqlıq ucundan bənd olma ona,
Belə bir məsəl var, ver buna diqqət:
Eşşəyə dedilər: "Buyur toya gəl",
Eşşək qah-qah çəkib güldü, nəhayət.

Dedi: "Siz istəyən rəqqas deyiləm,
Nə də çalğıçı tək tapmışam şöhrət.
Hamballıq etməyə çağırırsınız.
Su, odun daşımaq lazımdır əlbət".

## ƏMİM KAFİYƏDDİN ÖMƏR İBN-OSMANIN TƏRİFİ

Ömər ibn-Osman sayəsində mən
Yetimlik divinin qaçdım əlindən.
Odur, bil, böyüyüm, yol göstərənim,
Tərbiyə verənim – əmimdir mənim.
Sözü həndəsə tək dəqiqdir onun,
Şagirdi Ərəstu, bir də Əflatun.
Hermesə üçbucaq elmini zaman –
Onun idrakilə öyrətmiş, inan!
Əmimdən almışam zəkanı mən pay,

Günəşdən nur alar torpaqla su, ay.
Günəşdir rəng verən torpağa, daşa,
O, suyu qaldırar göyə birbaşa.
Günəş öz ipiylə, dolçayla həmən –
Su çəkir fələyin dənizlərindən.
Günəş qızıl əlli nəqqaşa bənzər,
Torpağı durmadan min rənglə bəzər.
Günəşin işığı altında ancaq
İncini su verər, qızılı torpaq,
Gördü ki, otağı dardır qəlbimin,
Açdı əmim ora pəncərə yüz min.
O, hər pəncərənin üstündə nurdan –
İplər toxumuşdur günəş tək haman.
Əzab quyusundan qurtarım, deyə –
Etmiş o ipləri mənə hədiyyə.
Əmim sayəsində başım oldu dik;
O, tək ədədimi etmişdir minlik.
Mən kiçik "dəqiqə" mislində ikən –
Böyük "dərəcəyə" çatdırdı həmən.
Göyün bürclərini gəzdirib bir-bir –
Ulduzlar içində mənə verdi yer.
Əvvəlcə birlikdən altmışa atdı,
Sonra da altmışdan otuz yaratdı.
İki on beş etdi otuzu da həm,
Onlardan yaratdı yeddi qat aləm.
Atam dözməyərək dərdə cahanda,
Sam Zalı atan tək, məni atanda.
Əmim Simürğ kimi uçub gələrək,
Qanadı altına alaraq, Zal tək.
Qaldırdı biliyin Qafına həmən,
Onun yuvasında bəslənmişəm mən.
Necə Məhəmmədə oldu əmi yar,
Oldu əmim mənə o cür pərəstar.
O məni öyrətdi hər elmə, fənnə,
Oxutdu o, "Ələm-yəcidkə" mənə.
Atam mənə verdi elə bir cəza –

Ki, rəva görərdi ərəblər qıza.
Mən qaldım atılmış uşaq tək xəstə,
Nəfəsi tutulmuş, qəlbi şikəstə.
Əmim görüb bunu gəldi həyəcana,
Yenidən o məni gətirdi cana.
Sanki oldu mənim mehriban dayəm,
Yaralı könlümə o qoydu məlhəm.
O səkkiz behiştdən ətrafımda şad,
Yeddi heykəl qurdu sevimli ustad.
Aldı kainatdan yeddi dəmir mil,
Bir halqa boynuma etdi həmail.
Sudan və alovdan çıxıb boy atdım,
Yəni yeddi yaşa mən gəlib çatdım.
Baxaraq açılmış şirin dilimə,
Ağıl lövhəsini verdi əlimə.
Əvvəlcə o mənə öyrətdi Həbcəd,
Mən "Həqayiqi" dedi nəhayət.
Mənə xətt öyrətdi hər səhər, axşam,
Gəldi arxasınca ayə və əhkam.
O bir müəllimdi, hikmətdi sözü,
Dərsdə xəlifəm də olmuşdu özü.
Öyrətdi lütf ilə hər məsələni,
Çatdırdı, nəhayət, "Vənnasə" məni...
Xəyalla, ağılla, hiss ilə ziynət –
Verərək təb'imə, qoymadı minnət...
İkicə sübutla eylədi bir-bir
Qur'anın on dörd sirrini tə'bir.
Sonra dörd kitaba saldıqda nəzər
Dörd ulusdan verdi ətraflı xəbər.
O dörd sütun oldu danılmaz sənəd,
Qur'anı onlara eylədi məsnəd.
Doğru yol göstərib o mənə hər dəm
Dedi: "Gör nə sirlə yaranmış aləm!"
Sirrini öyrəndim iki aləmin,
Bu işdə həmdərsi oldum Adəmin.
Sonra dünya baxdı taleyimə kəm,

Dərd, ələm yaxamdan yapışdı möhkəm;
Kəsdi salxımımı qara oraqla –
Qəzavü qədərdən dərs alan Cövza.
Çox bəlalar gördüm mən ruzigardan,
Sanki baş qaldırdı bənövşə qardan.
Zəmanə bəxtimə yazırkən rəqəm,
Ağ lövhədə yazdı: “Nun vəlqələm”;
Baxdıqda bu “nun”a, bu “vəlqələm”ə
Bir “Yasin” pilərdim dərdə, ələmə.
Gördü söz mülkünün hakimi mənəm,
Adıma söylədi “Həssani-əcəm”,
Qəlbimin ayağı xəznəyə batdı,
Ömrümsə iyirmi beş ilə çatdı.
Bildi söz mülkünə mənəm hökmran,
Əmim ölən zaman rahat verdi can.
Bu fani dünyanı bir gün tərk etdi,
Hardan gəlmişdisə, oraya getdi.
Bir göz qırpımında eylədi rəhlət,
Mələklər oxudu ona min rəhmət.
Qırx il bu dünyada o, subay qaldı,
Nəhayət, cənnətdə bir huri aldı.
Kim belə bir yara olarsa məftun,
Subaylıq çəkməyə haqqı var onun.
Ayrılıb getdikdə məndən o sərvər,
Aldı ətrafımı azğın düşmənlər.
İntiqam almaqçün fani dünyadan –
Adəm köçüb getdi, yaşadı şeytan.

## VƏTƏN

İraqa, İrana eyləsəm səfər,
Başıma yağış tək yağar simüzər.
Orada şairə qiymət verən var,
Xəzinəm lə’l ilə, gövhərlə dolar.
Şahlar məclisimdə diz çökər mənim,

Başıma tabaqla zər tökər mənim.
Bakir sözlərimin aşiqi olan –
Ariflər əlimi öpər hər zaman.
Ne’mətə, dövlətə qərq olaram mən,
Barınar el-oba mənim süfrəmdən.
Lakin üzüm gülməz, gözlərim ağlar...
Qəlbimdə dağ qədər ağır intizar.
Vətən həsrətilə tökub göz yaşı,
"Ah, vətən!" deyərəm mən hər sözbaşı.
Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana, –
Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə mehriban, əziz.
Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizsə ata.
Anasından küsən körpə bir uşaq –
Ata ağuşunda yer tapar ancaq!

# NİZAMİ GƏNCƏVİ
## (1141-1209)

## OĞLUM MƏHƏMMƏDƏ NƏSİHƏT

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddi yaşın oldu o zaman ki, sən,
Açıldın gül kimi, güləndə çəmən.
İndi ki, çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən, aslanlar kimin keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Başına əfsanə düşdüyü zaman
Allah qorxusunu unutma bir an.
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.
Görürəm, şöhrətdə ləyaqətin var,
Şeirdə, sənətdə məharətin var.
Şairlik eləmə dövrə bax ki, bir,
Tərif əvəzinə pislənir şeir.
Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.
Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar.

Bu əyri cizgilər cədvəlində sən
Özünü şərh edib, özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.
Elmlər elmidir demiş peyğəmbər
Din elmi, təbabət elmi müxtəsər.
Göbəkdəki ətri bu iki elmin
Fəqihlə təbibdir bunu bil yəqin.
Fəqih olsan əgər itaətkar ol,
Hiylədən, riyadan daim kənar ol.
İsa mərifətli həkim ol, amma
İnsanı öldürən bir həkim olma.
Həm həkim, həm fəqih olsan sən, əgər,
Hamının yanında adın yüksələr.
Həyat da, ölüm də qul olar sana,
Səadət və şöhrət düşər payına.
Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

## BƏRDƏNİN TƏRİFİ

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər,
Söyüdlük çöllərə vermişdir zinət.
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası, hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,

Torpağı silinmiş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz-nemət bürümüş onu.
Yem üçün gələr quş bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan,
Elə bil hər yanda bitmiş zəfəran.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.
İndi o dərgahın taxtı alçalmış,
İpəyi, qumaşı küləklər çalmış.
Təzə nar gülləri tökülüb solmuş,
O narlar, nərgizlər dönüb toz olmuş.
İndisə yerində bu gözəl yurdun
Var sel yumuş dərə, qurumuş odun.
Yenə də bol olan o göyərtilər
Ədalət toxumundan geyərsə əgər,
Yenidən gözəlcə bəslənsə diyar,
Get-gedə yaşıllıq, gözəllik artar.
Padşahın əlinə keçərsə fürsət,
O taxta yenidən verərdi zinət.
Hərum adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə.
Bu mərdlər, gözəllər yurdunda, inan,
Çox saysız xəzinə gizləmiş zaman.

## YAZ

Otlar yamyaşıldı, güllər al-əlvan,
Çiçəklər açıldı, güllər boy atdı,
Düzləri maralın səsi oyatdı.
Quru tikanlardan çıxdı tər güllər,
Qarşıda bənövşə müşk ilə ənbər,
Ənbər almaq üçün yuxulu nərgiz,
Başını qaldırdı yerdən çarəsiz.
Səfalı bir gündə, bahar çağında

Əylənmək gözəldir ellər bağında.
Bənövşə gətirə bahardan soraq,
Nərgiz əllərində qaldıra çıraq.
Quşların qanları gəldikcə cuşa
Qəlbləri naləylə gələ xüruşə,
Şümşad sərv altında düzülə yan-yan,
Xoruztək sürahi içi dolu qan.
Çöllərdə ceyranlar başlaya rəqsə,
Ceyran balaları verə səs-səsə.
Güllər büsat qura çaylar boyunca,
Şirindil bülbüllər ötə doyunca.
Quşların səsiylə gülün nəsimi
Uyuşa ən məhrəm iki dost kimi.
Belə bir fəsildə rudun səsindən
Və gülgün şərabdan xoş şey yox əslən.
Çaldıqca badamgöz dilbər nəğməkar,
Simlərin üstünə tökülə salar
Nazla dilləndikcə o ipək simlər
Sökülüb tökülə ipək geyimlər.
...Ondan busə olsa, səndən qəzəllər.
Biri qəndtək şirin, biri də şəkər.
Tutiyə dönmüşsən yenə, könül, sən!
Yadına Hindistan düşmüş deyəsən!
Dağın sinəsini bəzədi reyhan,

## YAY

Günəş öz evində tutunca qərar,
İstidən kababa döndü aslanlar.
Yerdən isti buxar qalxdığı zaman
Çirki, rütubəti sildi havadan.
Otlar toxumunu saçdı hər yerə,
Ölüm tozu çökdü laləliklərə.
Dağlarda, çöllərdə buxar qaynaşdı,
Bağlarda meyvələr qənd-şəkər saçdı.
Bülbüllər bağlara eylədi səfər,

Səsləndi qürbətdə qərib nəğmələr.
Qızdı yay gününün isti nəfəsi,
Çalıquşularının kəsildi səsi.
Dünyanı gəzən gün xəzan yelindən
Əqrəb sancmasını görmədiyindən
Gecə-gündüz bir teşt oldu əlində
Gəzib od saçırdı Zənkidə, Çində.
Yırtırdı aslantək iti caynağı,
Gah öküz sağrısı, gah kur dırnağı.
Günün istisindən daş əriyərkən
Od kimi buxarlar çıxırdı yerdən...

## PAYIZ

Əsdi xəzan yeli, payız yetişdi,
Bağın macərası tamam dəyişdi.
Küləklər taladı bağçanı, bağı,
Söndü al güllərin yanar çırağı.
Bulaq kənarında otlar sapsarı,
Töküldü reyhanın yarpağı-barı.
Sanki ağaclıqda odlar qalandı,
Əlvan yarpaqları alışdı-yandı.
Bazarı dağıldı, süst oldu dehqan,
Bağın qapısını bağladı bağban.
Şahlar hovuzuna axan saf sular
Soyuqda, ayazda tamam dondular.
Qupquru viranə, xərabə bir bağ
İçində əlbət ki, çağ olmaz damaq.
Hanı saqi, şərab, nuşi-naz hanı?
Yırtıcı heyvanlar talar hər yanı.
Oxuyan quşlar da lal olmuş çoxdan
Yelin ayağına dolaşar xəzan,
Bağı seyr edənlər çoxdan tərk etmiş,
Müğlər köçlərini götürüb getmiş.
Günəşin şüası, sühantək suya
Düşərkən qılınctək kütləşir guya.

Bağı tərk eyləyib getmiş gözəllər.
Nə bülbül səsi var, nə güldən əsər!
Güllərin üstünü tikanlar almış,
Hamı köçüb getmiş, bağlar boş qalmış.
Fəsillər içində qış gələn zaman
Xırda yağış səpər yerə buluddan.
Tozdan xəstələnmiş dünyaya fələk,
Sanki dərman verən rəhm etməyərək
Fələyin yağışı, çəni, dumanı
Qurtarar istidən bütün cahanı.
Susamış otlara bağçada, bağda
Xırdaca buzlardan pay verər şaxta.
Bir zaman hamıya çiçək paylayan
Bağlar müflis olar qardan-soyuqdan,
Qışda şərab ilə gün keçirənlər
Küplərə dəstəylə gül-reyhan düzər.
Evdə küp qaynarkən, kəndli qocalar
Kətanı çıxarıb geyər yun paltar.
Saqilər gətirər müşk tək şərab,
Yaş, quru məzələr, ləzzətli kabab...

## AZ DANIŞMAĞIN GÖZƏLLİYİ

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da.
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz.
Əsli təmiz olan saf mirvarilər
Suya və torpağa min bəzək vurar.
Mədənlə dolsa da hər bir xəzinə,
Hər kiçik zərrəsi dərmandır yenə.
Ürəyi oxşayan bir dəstə çiçək
Yüz xırman otundan yaxşıdır gerçək!

Yüz ulduz yansa da göylərdə, inan,
Bir günə baş əymək xoşdur onlardan.
Göydə parlasa da nə qədər ulduz,
Günəşdir nur verən aləmə yalnız.

## ZÜLMƏ QATLAŞMAMAQ

Neçin alçaqlara boyun əyirsən,
Oyuncaq olursan namərdlərə sən.
Nə üçün boynuna min yük alırsan,
Zalımın zülmündən razı qalırsan.
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!
Sən də süsən kimi ipəkdən olsan,
Səni saf torpaq da yaralar, inan!
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu olar xar.
Tikantək çiynində tut yarağını.
O vaxt qucaqlarsan gül budağını.
İnsanı sarsıdır göz yaşı, nalə,
Ah çəkib, of edən yetməz kəmalə!

## NUŞİRƏVAN VƏ BAYQUŞLARIN SÖHBƏTİ

Nuşirəvan qoşunla çıxmışdı bir gün ova,
Düşdü öz dəstəsindən uzaq, at qova-qova.
Padşaha bu səfərdə yoldaş ancaq vəzirdi,
Hər ikisi at çapıb, axtarıb ov gəzirdi.
Düşmənin qəlbi kimi uçuq xaraba bir kənd
Görüncə tacidarı bürüdü, aldı heyrət;
Xarabalıqda iki quş oxuyub durardı,
Nəğmələri padşahın könlündən daha dardı.
Padşah dedi: “Ey vəzir, bir dinlə bu avazı,
Səncə bu fitvermənin, söylə, nədir mənası?”
Vəzir cavab verdi ki: “Ey əsrin padşahı, mən,
Nəql edərəm bu halı, ibrət almaq istəsən;

Boş-boşuna oxumur gördüyünüz bu quşlar,
Onların arasında bir kəbin söhbəti var.
Bax, bu quşa vermişdir o biri öz qızını,
Bu isə qabaqcadan istəyir cehizini.
Deyir: “Bu viran kəndi verdikdən sonra mənə,
Buna bənzər bir neçə kənd verməlisən yenə”.
O biri quş deyir ki: “Əl çək, mənə dil tökmə,
Padşahın zülmünü gör, yetər qəm-qüssə çəkmə.
Əgər padşah bu isə, onun sayəsində sən,
Yüz min belə xaraba kənd alacaqsan məndən”.
Bu sözlər atəş kimi yaxdı Nuşirəvanı,
İnlədikcə yüksəldi göyə ahı, fəğanı.
Ağladı, öz əliylə vuraraq öz başına,
Bəllidir ki, zülm edən qərq olar göz yaşına;
Dərin bir fikrə daldı, dişləyib barmağını,
Dedi: “Quşlar da almış zülmümün sorağını.
Zülmümlə, rəiyyətin canına od vururam,
Toyuqların yerində bayquşlar oturduram.
Bu dünyada uyan mən, saysız dərd çəkəcəyəm,
Gördüyüm bu işlərçin başıma döyəcəyəm.
Bəs etməzmi soyduğum bu xalqı diri-diri,
Unutmuşam, olmaya, mən qiyaməti, qəbri?
Nə vaxtadək olacaq mənim bu əlim uzun?
Açmışam öz başıma öz əlimlə min oyun.
Tanrı mənə onunçün verdi mülkü, dövləti
Ki, bir pis iş görməyim, ucaldım ədaləti,
Padşah edib, tutdular misimi bu qızıla,
Mənə tapşırılana qulaq asmıram əsla.
Adımı pisləyirəm yağdırmaqla qəm, sitəm,
Özgəyə zülm etməklə özümə zülm edirəm.
Gərək insaf yağaydı işimdən və sözümdən,
Nə tanrıdan utandım, nə ar etdim özümdən,
Bu gün zülm mənim peşəm, mənim tamaşam oldu.
Sabah söyləyəcəklər gör necə bədnam oldu.
Böylə bədən layiqdir, məncə yandırılmağa,
Baxınız bir sinəmə çəkilən çarpaz dağa.
Nə vaxtadək sürəcək zülmüm öz dövranını,

Tökəcəyəm abrımı, öz xalqımın qanını?
Etdiyim quldurluğu, nə qədər günahım var,
Qiyamət günü məndən bir-bir soruşacaqlar,
Mən həyasız olmuşam, necə xəcil olmayım,
Daşürəkli olmuşam, necə zəlil olmayım?
Bilirəm ki, layiqəm töhmətə, məzəmmətə,
Aparıram bunları özümlə qiyamətə.
Mindiyim at ki vardır, boynuma yük olacaq,
Mənə bir çarə varsa, çarəsizlikdir ancaq.
Bu saysız xəzinədən, bu gövhərdən, bil müdam
Nəriman nə apardı, söylə nə götürdü Sam?
Böylə əməldən sonra hökmranlığım, ölkə,
Mənə kömək edərmi? Heyhat! Kim bilir? Bəlkə!..
Şah elə bərk qızışdı, elə dəyişdi halı,
Nəfəsindən yumşaldı atının dəmir nalı.
Çapıb, öz qoşununa gəlib çatdığı zaman,
Bir qayğı qorxusuyla məst oldu bütün cahan.
Əsarətin və zülmün evini etdi tarac,
Yoxsul, kimsəsizlərdən bir daha almadı bac.
Qalmadı, bu ölkədə zülmündən zərrə əsər,
Nuşirəvan çox adil oldu ölənə qədər.
Bu gün o yoxdursa da bu vəfasız dünyada,
Xalqı onu hörmətlə gətirir daim yada.
Xalqın halına qaldı, göz oldu ölkəsinə,
Adil sözü yazıldı adının sikkəsinə.
Çox yaxşılıqla yetdi başa ömrü, həyatı,
Hər kim alim oldusa, aldı o da bu adı.
Razı sal ürəkləri, ömrün boyu sözündən,
Allah da razı qalsın bəlkə sənin özündən.
Günəş süvariləri qoy səndən razı qalsın,
Özün incisən belə, qoy dostların ucalsın.
Al dərdli könülləri, həkim kimi ver dərman,
Beləliklə səni də qoysunlar bir hökmran.
Ədavətdən uzaqlaş, olsun məhəbbətin bol.
Ay kimi, günəş kimi yüksək ol, cavanmərd ol,
Yaxşılıqla çatdırsa hər kəs işini sona,
Yaxşı üz göstərəcək öz yaxşılığı ona.

Bir qayda ilə daim dövr edən bu asiman
Yaxşıya və yamana düz qiymət verər hər an,
Üz döndər günahından, çalış elə itaət,
Xəcalətlilər kimi çəkməyəsən xəcalət,
...Üzr gətirmə, səndən istəməmişlər hiylə,
Səndən istənilən şey yalnız əməldir, dinlə.
Sözlə keçsəydi işlər, əsla olmazdı dərdi,
Nizaminin şöhrəti fələyə yüksələrdi.

## SÜLEYMAN VƏ ƏKİNÇİ

İstirahət çağında seyrə çıxdığı zaman,
Rast gəldi saf ürəkli bir adama Süleyman.
Öz köçüylə, taxtilə yaşıl çöllükdə durdu,
Cah-calallı taxtını mina taxt üstə qurdu.
Çöldəki əkinçinin hərəkəti, görkəmi
Süleymanın qəlbində artırdı dərdi, qəmi.
Evində saxlamayıb bir ovuc taxıl belə,
Hamısını səpmişdi bu qoça kəndli çölə.
Hər tərəfə baxdıqca, bütün bir çöl boyunca
Bərəkətli sünbüllər qalxmışdı xeyli uca.
Görüncə əkinçini yaşadan bu sünbülü,
Açıldı Süleymanın quş kimi birdən dili!
Söylədi ki: "Ey qoca, cavanmərd ol hər zaman,
Qurtarmazdı yesəydin dəryatək taxılından!
Sən tor deyilsən, toxum səpmək yaraşmaz sənə,
Boş-boşuna danışıb quş dili tökmə mənə.
Belin yoxdur, torpağı qazıyıb əzab çəkmə,
Bir damla su tapmasan şoranda arpa əkmə.
Biz ki, sulu yerlərə toxum səpib nə aldıq,
Əkdiyimiz heç oldu, yenə əliboş qaldıq.
Sən bu toxum yandıran susuz və quraq çöldə
Nə bəhrə görəcəksən, nə edəcəksən əldə?"
Qoca cavab verdi ki: "Sözlərimdən incimə,
Sudan, torpaqdan mənim heç nə gəlməz vecimə;
Yoxdur quruyla, yaşla bir işim zərrə qədər,

Mən bir toxum səpənəm, tanrıysa kömək edər,
Mənim belimin təri suyumdur, bulağımdır,
Yer qazan, torpaq atan belimsə dırnağımdır.
Ölkə dərdi çəkərək olmayıram biaram,
Bəsimdir bu danələr hər nə qədər ki, varam,
Muştuluq versin kimsə inanıram ki, mənə
Verəcək bir danədən azı, yeddi yüz danə.
Toxumu şeytan ilə şərik əkməsəm əgər,
Bir danədən yeddi yüz danə yetişər, dəyər.
Yaxşı cins toxum səpsən əvvəlcə bu torpağa
Sünbülün düyməleri tez başlar çırtlamağa.
Hər bir yaradılmışa, əzəldən bir qayda var:
Öz bədəninə görə tikərlər təzə paltar.
Çəkə bilməz yükünü İsanın hər bir eşşək.
Hər başsa ola bilməz dövlətə məhrəm, dirək.
Əgər qaban yeyər filin boynunu qopararaq,
Qarışqa çəyirtkənin qıçını yeyər ancaq.
Dənizə min çay axar, o yenə sakit durar,
Arxa bir sel gələndə çalxanıb hay qoparar.
Bu lacivərd göylərdə, bu sonsuz kainatda
Hər kəs özünə görə bir yer tutur həyatda.
Mətanətli dövlətə layiq hər adam görcək,
Yükün az-çoxluğundan əsla qorxmasın gərək,
Naz çəkmək hər adamın işi, qılığı deyil,
Bəllidir ki, hər qarın sirr dağarcığı deyil.
Sözü uzatmaq nədir? Bu hamının işidir,
Çətinliklərə dözmək Nizaminin işidir.

## SULTAN SƏNCƏR VƏ QARI

Zülm edib bir qarıya çox uddurmuşdular qan,
O da Sultan Səncərin tutaraq yaxasından,
Dedi ki: "Səndə insaf az görmüşəm, qulaq as,
Səndənsə gördüyüm zülm əsla hesaba sığmaz.
Bir kefli darğa gəlib evimdə məni söydü,
Salıb təpik altına doyunca döydü, döydü.

Mən günahsız qarının saçlarına atdı əl,
Üzü üstə sürüdü evdən çölə əlbəəl.
Camaat arasında söyüb məni, qudurdu,
Evimin qapısına zülmün möhrünü vurdu.
Dedi: "Ey qozbel qarı, söylə, filan gecədə,
Filankəsi kim vurdu yaşadığın küçədə?"
Evimi çox axtardı, qatil hardadır, deyə.
"Ey padşah, bu həqarət sığarmı yerə-göyə?
Darğanın sərxoşluğu olmuş bu işə maya,
Bəs niyə mən yazığı salır sıxma-boğmaya.
Vilayəti soyurkən padşahın adamları,
Cinayətkar olarmı bunda məgər bir qarı?
Bu zülmə əl atarkən xalq arasında darğa
Mənim ismətim, sənin ədlin düşdü ayağa.
Bu yaralı sinəmdən bir də axıtdılar qan,
Özümü itirmişəm, qalmamışdır məndə can.
Ey şah! Dada çatmasan, olar ürəyim kabab,
Qiyamətin günündə çəkilər səndən hesab.
Ah, səndə nə ədalət, nə mərhəmət görürəm,
Mən səndə sonsuz zülm və əziyyət görürəm.
Rəiyyətə hər zaman kömək etməli padşah,
Səndən xarlıqdır gələn bizə, ol bundan agah.
Bir hünər deyil almaq yetimlərin malını,
Buna mərdlik deməzlər, düşün işin dalını.
Çapdırıb qarıları, öldürtmə, gəl, acından,
Onların, gəl, utan bir qar kimi ağ saçından.
Özün qulkən edirsən şahlıq iddiası sən,
Zalımsan, ziyankarsan, axır ki, şah deyilsən.
Şah ölkənin işini nizama salsın gərək,
Hər zaman rəiyyətin qeydinə qalsın gərək,
Ta ki, hamı hökmünə etsin hörmət, əysin baş,
Könüllər onu bilsin özünə bir dost, sirdaş.
İşlərinlə aləmi alt-üst eyləmisən sən,
Söylə, bir özlüyündə nə hünər göstərmisən?
Bir zamanlar türklərin çox yüksəkdi dövləti,
Bəyənildi hər yanda ölkəsi, ədaləti,
Dağıldı şəhərlinin evi sənin əlinlə,

Əkinçinin xırmanı dənsiz qaldı səninlə.
Ölümün dəhşətindən qorxub bir hesab apar,
Növbə sənə də çatar, əlini eylə hasar.
Ədalət çırağındır yolunda, olma naşı,
Bu günündür sabahın ən mehriban yoldaşı.
Qarıları sözünlə şad et, sevdir özünü,
Sən bu qoca qarını unutma, gəl, sözünü.
Çəkin, çarəsizlərin dağıtma var-yoxunu,
Bəlkə o qəmlilərin yeməyəsən oxunu.
Sən ki, hər bir bucağa ox atırsan bu qədər,
Acların qarğışından, söylə, qafilsən məgər?
Unutma ki, dünyanı fəth etməyə açarsan.
Dünyada zülm etməyə sən ki, yaranmamısan.
Sən hökmdar olmusan – yetişəsən haraya,
Daim məlhəm qoyasan vurulan hər yaraya.
Zəiflərin adəti sənə naz eləməkdir,
Sənin vəzifən isə onlara can deməkdir.
Hər zaman rəiyyətin diləyinə qulaq as,
Ürəkdən məzlumların ürəyinə qulaq as".
Xorasanı alandan sonra o, Sultan Səncər
Bu sözü asan bilib, çəkdi çox böyük zərər.
Bu devrdə nə insaf, nə də ədalət qalmış,
Onlar uçub simürğün qanadında yurd salmış.
Abır, həya qalmadı tərk etdi bu çardağı,
Əhdə vəfa atıbdır bu asılı torpağı.
Çox danışdı, qalx, yetər, bu şairlik ilhamı
Qana dönmüş qəlbinə qan qoymuşdur, Nizami!

## KƏRPİCKƏSƏN KİŞİNİN DASTANI

Şam şəhərində xeyli qoca bir kişi vardı,
Pəri kimi, cin kimi camaatdan qaçardı.
Toxuyardı özünə yaşıl otlardan köynək,
O, ruzi qazanardı hər gün kərpic kəsərək.
Pəhləvanlar əlindən qalxan düşdüyü zaman,
Qəbirdə o kərpicdən düzəldərdilər qalxan.

Hər ölüyə olurkən onun kərpici niqab,
Günahkar da olsaydı, ona yox idi əzab.
Öz işinə məşğulkən bir gün o qoca kişi,
Fələyin öz əliylə bir daha artdı işi.
Birdən-birə bir gözəl oğlan göründü gözə,
Qocanın qarşısında durub başladı sözə:
"Bu düşkünlük nədir, nə, nədən düşdün bu hala?
Eşşək kölələr işlər belə palçıq, samanla.
Torpağın qalxanına qılınc vurma bu qədər,
Qalx ki, səndən bir qarın çörək əsirgəməzlər.
Bu kərpicin qəlibi yansın deyə oda at,
Başqa bir sənət tapıb, işlə muradına çat!
Nə vaxtadək daş-kəsək əzəcəksən, söylə, sən?
Sudan, palçıqdan əldə nə hasil edəcəksən?
Qocasan, tut özünü ahıllara bərabər,
Cavanların işini sən cavanlara qaytar".
Qoca dedi: "Cavansan, belə cahillik etmə!
Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə!
Qocalar kərpic kəsər, son günləri yaşayar!
Əsirlərsə hər zaman yük çəkər, yük daşıyar.
Onunçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.
Deyiləm heç kəsə xəznədən ötrü möhtac,
Əlimin zəhmətiylə toxdur gözüm, deyil ac.
Məni bu ruzi üçün günahkar sayma, bəsdir,
Düşünsən bilərsən ki, dediklərin əbəsdir".
Gözəl oğlan sarsıldı qocanın bu sözündən,
Orda durmadı getdi, yaş axıdıb gözündən.
Dünyagörmüş adamdı söylədiyim bu qoca,
Öz işiylə hamının gözündə oldu uca.

## YARALI BİR UŞAĞIN DASTANI

Azadə böyümüşlər cərgəsindən bir uşaq
İki-üç həmyaşılə çölə çıxdı kefi çağ.
Elə ki yola düşdü bu uşaq, birdən-birə,
Yüyürərkən ayağı sürüşdü, dəydi yerə.

Elə bərk yıxıldı ki, sındı birdən ayağı,
Qırılmışdı çox yaman varlığının dayağı.
Uşağın yaşıdları batdılar bundan qəmə,
Hey çarə axtardılar bu qəmə, bu matəmə,
Onu sevən bir uşaq dedi: "Çarə var gerçək,
Gəlin onu quyunun lap dibində gizlədək.
Ta ki, bir gündüz kimi olmasın aşkar bu sirr,
Atasından xəcalət çəkmək yaxşı deyildir".
Ordakı uşaqlardan uzaqgörən bir nəfər
Şikəst olmuş uşağın, düşməniydi, müxtəsər.
Bu halı ölçüb-biçdi, sonra düşündü bir az,
Öz-özünə dedi ki, bu sirr gizlində qalmaz.
Mən ki, həmin uşağın bir düşməniyəm, demək,
Bu işi eşidənlər yəqin məndən biləcək.
Uşağın atasına gedib tez verdi xəbər,
O da gəlib oğluna çarə gördü birtəhər.
Hər kimdə ki, vardırsa ağıllılıq cövhəri,
O bacarar hər işi, parlar onun gövhəri.
Fələklərin bəndini açar ancaq o qoçaq.
Ki, basa bilsin onun başına bir gün ayaq.
Fələyin az-çoxuna göz yuman gündən bəri,
Nizaminin işləri keçmişdir fələkləri.

## ŞAH VƏ XİDMƏTÇİ

Qədimdə belə bir rəvayət varmış
Ki, Mərv ölkəsində bir şah yaşarmış
Bir neçə köpəyi zəncirləyərək,
Bəndlərdə saxlardı onları divtək.
İtlərdə əjdaha qüvvəti vardı,
Dəvənin boynunu qopararlardı.
Acıqlanan zaman şah bir nəfərə,
Atarmış yazığı quduz itlərə.
Şahın qəzəbinə düşsəydi hər kəs,
Köpəklər dağıdıb yeyərdi dinməz.
Şahın yaxın olan adamlarından
Ağıllı, kamallı bir nəfər cavan

Qorxdu ki, dostları qıran bu cəllad
Günlərin birində olsun ona yad.
Onun ahusunu öz vərdişiylə
Sınaqdan keçirsin köpək dişiylə.
İtlərdən qorxaraq, min həyəcanla
O gedib dostlaşdı it saxlayanla.
İtlərin yanına gəlcək hər kərə,
Bir qoyun atardı vəhşi itlərə.
Bu yolla bəsləndi, saxlandı itlər,
O gəncdə qalmadı qorxudan əsər.
O əliaçığı görən hər köpək
Ona qul olmuşdu, boyun bükərək.
Bir gün acıqlandı şah o cavana,
Üzünü, gözünü turşutdu ona.
Cəllada əmr etdi haman zülmkar:
"Bu gənci bu saat itlərə apar!"
O itməcazlılar itlik etdilər,
İt pay qapan kimi alıb getdilər.
Gəncin əl-qolunu bağlayıb haman,
İtlərə atdılar onu kənardan
O dəmirpəncəli, o pələng itlər
Əvvəlcə cavana hücum etdilər.
Ancaq tanıyınca baxıb durdular,
Quyruq bulayaraq boyun burdular,
Hamısı yerə yatdı üzləri üstə,
Yatdılar baş qoyub dizləri üstə.
Gəncə dayə kimi oldular, bilsən,
Bir gün gəlib keçdi bunun üstündən.
Üzünü göstərdi ağ səhər yenə,
Boyandı üfüqlər qızıl rənginə.
Şah peşman oldu öz tutduğundan,
Yaxın nədimlərə söylədi bu an.
"Dünən o günahsız ahucuğu mən
Səhv edib itlərə verdim əlimdən.
Bir baxın görün ki, o quduz itlər
Gəncin vücudundan qoydumu əsər?"
İtləri saxlayan gəldi çaparaq,

Dedi ki: “Ey şahım, sən sirrə bir bax,
Bu gənc insan deyil, mələkdir, mələk,
Onu sayəsində saxlayır fələk.
Qalx, gəl, bir ondakı işığa bax sən,
Tanrı sənətini bəlkə görəsən.
İtlərin ağzında sağ oturmuşdur.
Onların ağzına möhür vurmuşdur.
O əjdahaüzlü canavar itlər
Onun tükünə də verməmiş zərər.
Şah əmr etdi ki: “Dayanmaq olmaz,
O əldən getmişi tez edin xilas”.
İtlərin yanından, yol məmurları
Gənci gətirdilər, saraya sarı.
Şah heyran qaldı ki, o igid cavan
Necə can qorumuş o quduzlardan.
Ağlaya-ağlaya göz yaşı tökdü,
Ondan üzr istəyib, diz üstə çökdü.
Dedi ki: “Aç, söylə sən, ey qəhrəman,
Necə can qurtardın o quduzlardan”.
Gənc dedi: “Əvvəlcə çəkinib səndən,
Tikələr atmışdım o itlərə mən.
Etdiyim yaxşılıqlar getmədi hədər,
İtlər öz ağzını möhürlədilər.
Lakin qulluq etdim düz on il sənə,
Axırda bu cürə haqq verdin mənə.
Sən məni itlərə atdınsa əgər,
Yaxşı ki, dost yeyən deyilmiş itlər.
Dostluğu səndə yox, itdə gördüm mən,
İt bilən hörməti ayaqladın sən.
İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban”.
Şah heyran qaldı ki, bu nə hikmətdir,
Bildi ki, səadət – insaniyyətdir;
Qəflət yuxusundan ayıldı birdən,
Əl çəkdi itlikdən, itpərəstlikdən...
Bunu söyləməkdə bir məqsədim var:
Səxavət qələdir, o, can qoruyar.

Məcnun bəslədikcə o heyvanları,
Çəkdi devrəsinə bir can hasarı.
Hasar ətrafında gəzən hər heyvan
Məcnunun işinə yarardı hər an,
Bir yerdə dursa da, qalxsa da əgər,
Yanından getməzdi dostu vəhşilər.
Məcnuna bənzəsən insanlıqda sən,
Dünyada nə qüssə, nə dərd çəkərsən.
Xəlifə də yesə süfrəndə nemət,
Yeməyi səndənsə, qulundur, əlbət.

## XEYİR VƏ ŞƏR

Çin qızı söylədi: – İki novcəvan
Başqa bir şəhərə oldular rəvan.
Yeməyə azuqə götürüb hərə,
Qoyub heybəsinə çıxdı səfərə.
Gəncin biri Xeyir, birisi Şərdi,
Onlar adlarıtək işlər görərdi.
Bir-iki gün gedib mənzil aşdılar,
Yanlarında olan azuqə ki var,
Şər saxlayır, Xeyir yeyib-içirdi;
O əkir, bu isə buğda biçirdi.
Gedirdi yanaşı cavanlar belə,
Birdən yetişdilər isti bir çölə.
Bu çöl təndir kimi bir odlu yerdi,
Dəmiri yumşaldıb mum eyləyirdi.
Ölkəyə quraqlıq atmış əlini,
Döndərmiş səmuma şimal yelini.
Şər yaxşı bilirdi – yolu uzaqdır,
Susuz xarabadır, xeyli quraqdır.
Xəlvəti məşkinə su doldurub Şər,
Dürr kimi gizlədi, vermədən xəbər.
Xeyir: "Yəqin, yolda su var", deyirdi,
Hər tərəf susuzdu, o bilməyirdi.
Beləcə bürküdə xeyli getdilər,

Yorub özlərini həlak etdilər.
Yeddi gün getdilər qızğın çöl boyu,
Qurtardı, zavallı Xeyirin suyu.
Sudan yoldaşına vermədi xəbər,
Bir kəlmə dinmədi, danışmadı Şər.
Xeyir bədgövhərdən oldu xəbərdar,
Gördü ki, məşkinin içində su var,
Arabir xəlvəti öz yoldaşından
Reyhan şərabıtək suyun başından
İçirdi Şər, susuz yanıb da, ancaq,
Xeyir dinməyirdi, tikmişdi dodaq.
O susuz, sulunun görüb işini,
Sordu yol boyunca qəmdən dişini.
Nəhayət, ciyəri qurudu, yandı,
Endi kirpikləri, gözü qapandı.
Günorta çatanda pozuldu halı.
Susuz alışmazmı dağlar maralı?
Yanında od rəngli cüt ləli vardı,
Suyu daşda idi, sanma axardı,
Damırdı gizlicə onlardan su çox,
Damırdı göz üçün, ağız üçün yox.
Açdı Xeyir ləli göstərib Şərə,
Qoydu qabağında, əlbəəl yerə,
Dedi ki: "Yanğından öldüm, kömək et.
Söndür atəşimi, yandım, mərhəmət!
Bir içim saf su ver, imdadıma çat.
Ya mərdlik ucundan bağışla, ya sat.
Bu qoşa gövhəri öz suyuna sal,
Su ver, gövhərimin bir qeydinə qal".
Tanrı qəzəbinə gəlmiş, zalım Şər,
Gördü adı kimi yaramaz işlər.
"Bu daşdan dedi ki, yonma gəl bulaq,
Mümkünmü dünyada məni tovlamaq?
Viranədə gövhər verirsən mənə
Ki, abad şəhərdə alasan yenə?
Belə kələklərə uyarmı heç Şər?
Mən ki hiyləgərəm, divdən hiyləgər.

Nə zaman axtarsam, əgər mən çarə,
Gəlməz hiylələrin sənin, bil, kara.
Yaxamdan əl götür, hiylədən əl çək,
Yüz min işlətmişəm mən belə kələk,
Qoymaram başına çəkəsən suyu,
Abrımı tökəsən bir şəhər boyu.
Mən necə gizlində alım gövhəri,
Şəhərə çatınca alasan geri.
İstəyirəm elə bir gövhər səndən,
Ala bilməyəsən geriyə məndən".
Xeyir dedi: "Nədir o söylə görək?
İstədiyin dürrü tapıb da verək".
Şər dedi: "O gövhər ikicə gözdür,
Bu ondan, o bundan daha əzizdir,
Gözünü satmasan, bunu yaxşı bil,
Bu sudan içməyin heç mümkün deyil".
Xeyir söylədi ki: "Qorxmayırsan sən,
Od alıb yerinə boş su verirsən?
Tutaq ki, bu çeşmən oldu guvara,
Göz çıxarmaq səni yetirməz vara.
Qalarsam gözümə həsrət əgər mən,
Nə xeyir rastıma gələn çeşmədən?
Mümkün ikən qızıl almaq su üçün,
Şirin su yerinə göz almaq neçün?
Ləlim, nəyim varsa, al eylə mədəd.
Yerdə qalanına verərəm sədəq.
And olsun o böyük pərvərdigara,
Bundan şad olaram, gəlmərəm zara.
Ancaq insaf eylə, gözümə dəymə,
Bir soyuq su üçün dostluğu əymə".
Şər cavab verdi ki: "Bu əfsanədir,
Ürəyi yanançın bir bəhanədir".
Xeyir bu rəftara qaldı xeyli mat,
Su üçün göz suyu axıtdı, heyhat,
Gördü ki öləcək, əldən gedir can,
Xilas olmayacaq can yanğısından.
Qəlbini aldatdı soyuq su ilə,

Sudan qaçmamışdır, bir susuz belə.
Dedi: “Bıçaq gətir, xəncər gətir, gəl,
Su ver içim, ömrə qıymadan əcəl.
Odlanıb alışan, alovlanan bu
Qızğın atəşimi söndür, səpib su”.
Zənn etdi bu əzab, bu qorxu keçər,
O saat bir udum su alıb içər.
Bu halı görüncə siyirib xəncər,
Quş kimi şığıdı Xeyrin üstə Şər.
Xəncəri çırağa çaldı, qanmadı,
Çırağı söndürdü, qəlbi yanmadı.
Nərgizi eylədi gül rəngində al,
Cüt gövhər qopardı tacdan o dərhal.
Ömrünü yazığın salıb zavala,
Su dəxi verməyib düzəldi yola.
Bütün şeylərini, ləlini soydu,
Koru təkbaşına səhrada qoydu.
Uzaqlaşıb getdi nə zaman ki, Şər,
Xeyir öz halından tutmadı xəbər.
Torpaqda çırpındı, qar basdı düzü,
Yaxşı ki, görmürdü halını özü...
Bir kürd vardı mallı, pullu, kefi çağ,
Qurdun bəlasından sürüsü uzaq,
Onun qapısında çoxdu mal-qara,
Kimsə çatmamışdı bu qədər vara,
Səkkiz qohumunu o saxlayardı.
Onlar yoxsul, bunun devləti vardı.
Köçəri bir kürddü, deyil oturaq,
Hər zaman ölçərdi səhra, çəmən, dağ.
Ot-ələf dalınca düşərək çölə,
Sürü otarırdı hər zaman belə.
Harda ki ot vardı, axar su vardı,
İki həftə həmən yerdə qalardı.
Otlağın otları yetincə sona,
Sürünü çəkərdi başqa bir yana.
Qəzadan, iki gün vardı o yerə
Pəncə uzatmışdı, bənzəyib şirə.

Onun türk baxışlı, xoş hindu xallı
Bir qızı vardı ki, xeyli kamallı.
Sərvi su içmişdi ciyərdən, qandan,
Nazla bəslənmişdi nazənin canan.
Saçının hörüyü ətəyindəndi,
Boynunda çəkmişdi aya kəməndi.
Bənövşə qıvrımlı hər gözəl teli
Qarğa qanadından qaraydı, bəlli.
Qəmzəsi sehrdən badələr içmiş,
Taleyi önündə qəza bir heçmiş.
Babil tilsiminə bağlamışdı bel,
Sehrinə bənd olmuş, vurulmuşdu el.
Xalından olmuşdu gecələr qara,
Ondan nur almışdı göydə aypara.
O şəkər sındıran, püstə dodaqlı
Öpüşün yolunu etmişdi bağlı.
Evdə bəslənilib çatmışdı boya:
Balıqtək meyl etdi o gözəl suya.
Yolun kənarında, bir çeşmə vardı.
Soyuqdu, el suyu ordan alardı.
Qız o şirin sudan gəlib doldurdu,
Sonra evlərinə getməyə durdu.
Birdən qulağına gəldi uzaqdan
Yaralı xəstədən qopan ah, fəğan.
Eşidib o yana qız tez yüyürdü,
Gəlib qan içində bir cavan gördü.
Bir yaralı çalır hey əl-ayaq, ah.
Dilində yalvarış, bir də ki, Allah.
Uçdu nazəninin başından huşu,
Tez gedib dindirdi o vurulmuşu,
Dedi: "Vay halına, söylə görüm sən,
Qanlar içindəsən nə üçün, nədən?
Ey cavan, bu zülmü sənə kim etdi,
Halına yanmadı, buraxdı getdi?"
O dedi: "Ey mələk, de görüm ki, sən
Pərizadəmisən, ya mələkmisən?
İşim çox qəribə oyundur, heyhat,

Uzundur başıma gələn əhvalat.
Susuz, bil, ürəyim oldu tar-mar,
Gəl bu yanğılını cəhd eylə, qurtar.
Su yoxsa ölərəm, dayanma çıx get,
Varsa ver, qoy içim, ömrü xilas et".
O nicat açarı, saqi, baldodaq,
Abi-həyat kimi sudan alaraq
Verincə, xəstənin keçdi yanğısı,
İçdi bacardıqca, içdi sərin su.
Can gəldi o solmuş cana əlbəəl,
Ürəkdən şad oldu, çıraqban gözəl.
Qoydu öz yerinə Xeyrin gözünü,
Şükür edib söylədi Allah sözünü.
Çıxmışdısa əgər kamanından ox,
Gözün giləlləri salamatdı çox.
Bütün qüvvətini işlətdi o qız
Ki, yerdən xəstəni qaldıra yalqız.
Gözünü sarıyıb bağladı həmən,
Yapışdı mərdanə tutdu əlindən,
Çalışdı, qalxızdı, sonra da vardı,
Ona rəhbər olub, evə apardı.
Gəldi atasının birbaş yerinə,
Gətirdi gözsüzü binələrinə.
Çıxınca önünə kəniz, qaravaş,
Dedi: "Apar evə, bunu çox yavaş".
Özü anasının yanına getdi,
Gördüyü vəqəni tez bəyan etdi.
Anası dedi ki: "Söylə görüm sən,
Gəldin, gətirmədin, bəs onu nədən?
Edərdik bəlkə də yazığa çara,
Bir az dincələrdi, o bəxtiqara".
Qız dedi: "Gətirib gəlmişəm, ana,
Nə kömək bacarsan, et o insana".
Qaravaş xəstəni evə gətirdi,
Yatağın yanına dərhal yetirdi.
Tez yer düzəltdilər, süfrə sərdilər,
Şorba içirdilər, kabab verdilər,

Zülm görmüş Xeyir ah çəkdi yavaş,
Az yeyib inlədi, dərdə qoydu baş
Kürd evə gələrək tez axşamüstü,
Səfra sındırmağa cumdu əlüstü,
Nə gördü adətdən xeyli kənar şey,
Səfrası şiddətlə qaynayırdı hey.
Gördü bir huşsuzun yamandır halı,
Ölümcül uzanıb yatır yaralı.
"Kimdir bu şəxs, dedi, gələrək dilə,
Nə üçün xəstədir, gücsüzdür belə?"
Kimsə şərh etmədi dürüst halını,
Başına gələni, bu zavallını.
Ancaq deyə bildi bunu şux pəri:
"Dəlilmiş almasla onun dürləri".
Kürd gördü xəstə kor sayır özünü,
Qəlbi parçalanıb, yumur gözünü,
Dedi ki: "O yüksək ağacdan narın,
Gedin tez bir neçə yarpaq qoparın!
Suyu çıxanacan əzin yarpağı,
Sürtün yarasına, sözümün sağı,
Bu əlac olunsa, xəstənin yenə
Fər gələr, nur gələr kor gözlərinə.
Yaman olursa da əgər göz dağı,
Şəfadır dediyim ağac yarpağı".
Ağacın yerini verərək nişan:
"Bizim o çeşməylə, – dedi, – yanbayan
Bir qoca ağac var, ətirlər səpər,
İnsanın beynini edər tazətər.
Gövdəsindən çıxır onun iki şax,
Onlar fərq olunur aralanaraq.
Bir şaxın yarpağı huri ipəyi,
Odur kor gözlərin nuru, köməyi.
O birinin yaşıl yarpağı ki var,
Ondan bayılanlar şəfa taparlar".
Kürd qızı elə ki, bunu eşitdi,
Deyilən əlacın fikrini etdi.
Dil açdı, başladı yalvar-yaxara,

Eyləsin atası xəstəyə çara.
Kürd eşidincə bu yalvarışları,
Durub tez yönəldi ağaca sarı.
Tez yarpaq qopardı həmin ağacdan,
O yarpaq verirdi cansızlara can.
Gətirdi, kürd qızı yarpağı aldı,
O qədər döydü ki, puçalı qaldı.
Süzdü qalmayınca xıltın nişanı.
Xəstənin gözünə tökdü dərmanı.
Bağladı dərmanla Xeyrin gözünü,
Bir saat bilmədi xəstə özünü,
Sonra xilaskara bir nəzər saldı,
Balışa baş qoydu, uzanıb qaldı.
Beş gün o xəstəyə vurulmadı əl,
Dərman gözlərində qaldı mükəmməl.
Axırda qurtardı yazığın canı,
Gözündən açdılar dava-dərmanı.
Gəldi gözlərinin nuru yerinə,
Oldu əvvəlkitək o, gözlü yenə.
Saldı ətrafına Xeyir xoş nəzər
Qoşa nərgiz belə açılar səhər.
Uğurlu iş gördü, şükür etdi cavan,
Dəyirman öküzü qurtardı tordan.
Getdi ev əhlindən kədər nə ki var,
Örtüb üzlərini, könül açdılar.
Ürəkdən xoşladı, sevdi yalqızı,
Kürdün gül camallı mehriban qızı.
Elə ki, nərgizlə o sərv oldu şad,
Deməк, gövhər oldu sandıqdan azad,
Gördü gül üzünü gəncin o pəri,
Ürəkdən bağlandı, xoşladı Xeyri.
Duyaraq hissini, inayətini,
Saldı Xeyir ona məhəbbətini.
Qızın görmürdüsə üzünü əgər,
Nazlı yerişinə salırdı nəzər.
O çox dinləmişdi şirin gözəli,
Dəymişdi əlinə mehriban əli.

Bu vermişdi ona ürəkdən könül,
Bağlanmışdı buna sidq ilə o gül.
Xeyir, qoca ilə hər səhər ertə
Əl atardı işə, şirin zəhmətə.
Dəvə otarardı, sürü güdərdi.
Hər işi düşünüb, ölçüb edərdi.
Qoyundan qovardı canavarları,
Qoruyardı belə dövləti, varı.
Kürd ki, ömrü boyu gəzmiş otlağı,
Gördü Xeyirdəki can yandırmağı.
Dedi: “Ey əzizim, bu dövlət, bu var
Sənindir, ol ona sahib-ixtiyar”.
Xeyir məhrəm olub kürdgildə qaldı,
Hər şeyə artaraq maraq çoxaldı.
Sordular kim sənin gözünə qıymış,
Necə rəhmsizmiş, necə zalımmış.
Şərin işlərini o gizlətmədi,
Nə olub söylədi, uzaq getmədi.
Dedi: “Suya əvəz vardı gövhərim,
Susuz lap yanırdı mənim ciyərim.
Ömrə bir nanəcib zərər yetirdi,
Bu zülmü başıma o Şər yetirdi.
Aldı gövhərləri, gözümü dəldi,
Su da verməyərək, yola düzəldi”.
Kürd belə dastanı eşitdi, durdu,
Rahibtək özünü torpağa vurdu.
Sevindi: “Əssə də, dedi, sərt külək,
Xələl görməyibdir bu gözəl çiçək”.
O mələkxislətin oldular agah,
Şər nələr başına gətirmişdir, ah.
Candan əziz tutdu onu bu külfət,
Bəsləyib verdilər min nazü-nemət.
Özü baxdı ona o qənd dodaqlı,
Durdu qulluğunda üzü yaşmaqlı.
Su verib Xeyirə özü yanırdı,
Eşqindən ürəyi, gözü yanırdı.
Xeyir də bağlandı, yara verdi can,

Könül əsirgəməz aşiq canandan.
Dürrün xatirinə çölə getdi hey,
Öküzə, dəvəyə xidmət etdi hey.
Dedi öz-özünə: “O canan ki var,
Mən kimi yoxsula olmaz nazlı yar.
Onun kamalı var, xoş camalı var,
Olacaq qiyməti, kimin malı var.
Onlardandır bu gün dolanacağım,
Mümkünmü üstəlik qohum olmağım.
Yaxşı olar belə qorxulu yerdən
Zirəklik eyləyib keçim gedim mən”.
Keçmişdi bu işdən bir həftə tamam,
Xeyir evə döndü çöldən bir axşam.
Çırpındı qəfəsdə olan quş kimi,
Xəzinə üstə kasıb oturmuş kimi.
Təşnəydi, önündə dirilik suyu,
Sanki hiss edirdi keçən yanğuyu.
O gecə ağrıdı qəlbinin başı,
Yerdə gül bitirdi gözünün yaşı.
Kürdə söylədi: “Ey qərib bəsləyən,
Çəkdin kimsəsizin çox nazını sən.
Göründü sayəndə bu cahan mənə,
Verdin ürək mənə, təzə can mənə.
Evində bəslənib izzət görmüşəm,
Süfrəndən yemişəm, nemət görmüşəm.
Damğanın yeridir alnımda dərin,
Dediyimdən çoxdur sənin hörmətin.
Ətrin yaşayır, bil, şirin canımda,
Süfrənin yağıdır, qaynar qanımda.
Süfrənin önündə bir acizəm mən,
Canımı verərəm əgər istəsən.
Yetər ki, bu qədər qonağın oldum,
Bəsdir əzab çəkdim, artıq yoruldum.
Süfrəndən bu çörək yediyim qədər
Sənə şükür eyləyə bilsəydim əgər,
Haqqını verməyə yaradan tanrı,
Mənə kömək əli verəydi barı.

Ayrılıq gəlsə də çox ağır mənə,
İcazə ver artıq, gedim vətənə.
Çoxdandır vətəndən düşmüşəm uzaq,
Elimdən, köçümdən irağam, iraq.
İstəyirəm səhər olduqca erkən
Düzəlim yoluma evə doğru mən.
Getsəm də əməyin itməyəcəkdir,
Qapından hümmətim getməyəcəkdir.
Sən nur çeşməsisən, işığın əyan,
Arzum budur məni unutmayasan.
Yetir köməyinlə pərü bal mənə,
Verdiyin çörəyi et halal mənə".
Xeyir öz sözünü qurtardı, durdu,
Kürdün sanki var-yoxuna od vurdu.
Tökdü göz yaşını kürd leysan kimi,
Qopdu hay-küy həzin bir fəğan kimi.
Beyinlər qurudu, gözlər ağladı,
Qızın ağzındakı sözlər ağladı.
Ağlayıb-ağlayıb durdular kuya,
Axar su çevrildi donan bir suya.
Aqil kürd qaldırdı sonra başını,
Evi xəlvət edib çatdı qaşını,
Xeyrə söylədi ki: "Sən ey mehriban,
Ağıllı, cürətli, mö'təbər oğlan.
Tutaq ki, getmisən doğma şəhərə,
Tikan batıracaq sənə, bil, hərə.
Nemət buradadır, naz bu məkanda,
Əlindədir nə var – yaxşı, yaman da.
Yaxşılar cilovu verməzlər pisə,
Satmazlar dostları yada, nakəsə.
Bollu dövlətim var, ağım, qaram var,
Bir də ki, çox əziz ciyərparam var.
Zəhmət sevəndir o mehriban çiçək,
Çirkinlikdir ona yaxşı deməmək,
Müşk əgər olarsa nafədə nəhan,
Onun xoş ətrini duyar bu cahan.
Ürəyin xoşlasa o dilbəri, biz

Səni canımızdan saxlarıq əziz.
Belə bir qıza ki, yetişmiş azad,
Öz əlimlə səni seçirəm damad.
Dəvədən, qoyundan, maldan nəyim var,
Verərəm, çoxalar sərmayən, artar.
Mən də aranızda nazla, nemətlə
Əcəl gələnədək yaşaram belə".
Kürddən görən zaman belə şəfqəti,
Ona şükür etdi, qalxdı hörməti.
Söhbətə şadlıq da qatdılar onlar,
Nazla, sevinc ilə yatdılar onlar.
Harun üzlü səhər bağlayanda bel,
Zəng kimi səsləndi xoruz, durdu el;
Uğurlu taleylə süzüb dörd yanı,
Çıxdı öz taxtına məşriq soltanı.
Kürd vida eylədi şirin yuxuya;
Oyandı görməyə tədarük toya.
Nigah ki, birliyin əsas şərtidir,
Onunla nəsillər inkişaf edir.
Verdi Xeyrə qızı, yaşayın, deyə,
Qoşdu Ütaridi parlaq Zöhrəyə.
...Həyat çeşməsini tapdı bir ölü,
Günəş nurlandırdı o tutqun gülü.
O baldodaq saqi, susamış Xeyrə
Bir şərbət verdi ki, dəyər kövsərə.
Ona çeşmə suyu verdisə əvvəl,
İndi həyat suyu bəxş etdi gözəl.
Yaşadılar belə, sevincək, qoşa,
Yoxdu həsrətləri bir şeydən, haşa!
Əhdi gətirdikcə bu cütlər yada,
Çox şad yeyirdilər vardan dünyada.
Kürdün nə qədər ki, mayası vardı,
Verdi bu bir cütə, verdi qurtardı.
Bütün sürüləri, dövləti, varı
Axdı Xeyrə tərəf, damada sarı...
Bir gün sulu yerdən, ağaclı yerdən,
Başladı köç geniş səhraya, birdən.

Xeyir, can dərmanı, olduqca uca.
O səndəl qoxulu yaşıl ağaca
Yanaşıb, dərdikcə dərdi şaxlardan,
İnsanın əlacı göy yarpaqlardan.
Əlacdır sövdaya bir şax yarpağı,
Digərindən tapır şəfa göz dağı.
Yığdı bir çuvala basdı mala mal,
Dəvənin belinə yükləndi çuval.
Yarpağın sirrini saxladı pünhan,
Yadından hamının çıxdı o dərman.
Düşdü bir şəhərə onların rızı,
Bu şəhrin şahının gözəl bir qızı,
Tutulmuş sövdaya, bəd bir azara,
Nə qədər əlləşib etmişlər çara.
Sağalmamış, yanıb "hayıf", demişlər
Bilikli həkimlər, məşhur təbiblər.
Gəlirdi soruşub həmən şəhəri
Ki, div bəlasından o gözəl pəri
Sağalsın, qalmasın zərrəcə dərdi.
Padşah gələnlərlə bir şərt kəsərdi;
"Sövdadan qızımı kim etsə azad,
Mən də eyləyərəm onu xeyli şad,
Olar kürəkənim hər kim çarəni
Etməyib, görərsə o mehparəni,
Qəzəb eyləyərəm, qılınc alaram,
Bədəndən başını vurub salaram".
Aciz qaldığından bu əlacda, ah,
Nə qədər təbibi öldürtdürdü şah.
Min qərib şəhərli olunca naşı,
Padşahın əmrilə kəsildi başı.
Bu şərt gündən-günə elə yayıldı;
Hər kim pul görəndə hayıl-mayıldı,
Eşidib bu sözü o, baş itirdi,
Özü öz əliylə qanına girdi.
Xeyir də eşidib həmin xəbəri:
Çarəmlə sağalar, dedi, şux pəri.
Şaha yetirdi ki: "Ey səxa kanı,

Yoldan götürərəm mən bu tikanı,
Ondan xəstəliyi eylərəm uzaq,
Sağaldaram qızı, şərtim var ancaq,
Heç şeydə yox gözüm qoca dünyada,
Mənim verəcəyim dərman, dava da
Allah rizasına veriləcəkdir.
Nə zaman ki, gücü görüləcəkdir,
Məni məqsədimə çatdırsın Allah".
Xeyrin bu sözündən xəbər tutdu şah,
Dedi: "Söyləyin ki, gəlsin öpsün əl".
Xeyir təzim etdi gəlib əlbəəl.
Şah dedi: "Ey yaxşı adam, söylə bir
Sənin adın nədir?" Dedi: "Xeyirdir!
Səadət bəxş etmiş mənə ülkərim,
Uyğundur adıma sözüm, işlərim".
Şah onun adını bilib yaxşı fal,
Dedi: "Çarə eylə, aman, qeydə qal,
Bunun nəticəsi yaxşıdır" dedi.
"Adın bu əməlin naxşıdır" dedi.
Sonra bir məhrəmə tapşırdı, varsın
Qızının yanına Xeyri aparsın.
Xeyir gəldi gördü, gün kimi gözəl,
Xəstəlik sərvinə yetirmiş xələl.
Şir tək həyəcanlı, bərəlmiş gözü,
Nə yatmış gecəni, nə də gündüzü.
Səndəl yarpağı ki yanında vardı,
Açıb düyünçədən dərhal çıxardı.
Deyib hazırladı buz kimi şərbət,
Qıza xoş gələrdi bu dava, əlbət.
Uzatdı xəstəyə, alıb nuş etdi,
Silinib beyninin tozları getdi.
Qız bu vəlvələdən nicata çatdı,
Dava içən kimi yıxıldı yatdı.
Xeyir gördü yatır o gözəl bahar,
Duydu ki, silinib üzündən qubar.
Çıxdı ayqabağın evindən çölə,
Gəldi öz evinə şad, gülə-gülə.

Yatdı pəri üzlü, üç gün yumdu göz,
Şaha öz halından demədi bir söz.
Durdu üçüncü gün o dilbər mələk,
Yedi yavaş-yavaş yüngül bir yemək.
Belə şad xəbərdən olunca agah,
Qaçdı ayaqyalın saraya padşah.
Gördü taxt üstündə ağıllı, huşlu,
Oturmuşdur qızı – şahin duruşlu.
Yıxılıb önündə o mahcamalın
“Həmdəmin olacaq, dedi, kamalın.
Fitnə uzaq olsun, qızım, yanından,
Xəstəlik çıxdımı söylə canından?”
Şahın hörmətini gözləyərək qız,
Təşəkkür eylədi ataya yalnız.
Hökmdar sevinib oldu xeyli şad,
Getdi: tək qalaraq o sərvi-azad,
Çağırıb yanına məhrəm bir adam,
Sifariş yolladı şaha güləndam:
“Qüdrət dəftərində yazılmış belə,
Şahlar sadiq olar hər vaxt əhd ilə.
Onda ki kəsildi xəncərlə başlar,
Gözlədi qoyduğu şərti hökmdar.
Tac ləyaqətlidən mən gördüm şəfa,
Şah gərək əhdinə eyləsin vəfa.
Qılınc eyləyərsə əlac iqrara,
Tac gərək üstələyib düşməsin dara.
Minlərlə baş qoydu qılınc təlaşda,
Ucalsın tac ilə qoyun bir baş da.
Qurtardı canımı onun dərmanı,
O açıb qıfılı; belə insanı
Unutmaq bizlərə yararmı məgər?
Tapılmaz, bil, mənə ondan başqa ər.
Yetirək yerinə əhdü peymanı,
Bu yükdən qurtaraq tezliklə canı”.
Əhdi doğrultmağa şahı, ansızın,
Gözəl məsləhəti oyatdı qızın.
Xeyri şah istədi; atlı çapdılar,

Bir yolun üstündə gəlib tapdılar.
Alıb yanlarına nadir gövhəri,
Şahın hüzuruna döndülər geri.
"Ey cahan böyüyü, – dedi şah, – nədən
İqbalından yana üz çevirirsən?"
Əynindən çıxarıb sonra xələti,
Bir ölkə olardı onun qiyməti.
Bağışladı ona, bol gövhər verdi,
Afərinlər dedi, zər kəmər verdi.
Çəkildi saraya naxışlı pərdə,
Şəhəri bəzədi şəhərlilər də.
Qız dam guşəsindən yetirib nəzər,
Gördü sevgilisi tam aya bənzər.
O, gözəl üzlü bir sərvi-rəvandı,
Xətti şəvə kimi, zirək cavandı.
Həm şah razı oldu, həm də o dilbər,
Xeyir damad oldu, kor olsun qoy Şər.
Xəzinə qapısına əl atdı soltan,
Qırdı dürüst möhrü, oldu kamiran.
Sürdü, istəyincə səfalar sürdü,
Gözəllik, şən həyat taxtını gördü.
Şahın bir vüqarlı vəziri vardı,
O, xalqın əlindən hər an tutardı.
Bir qızı vardı ki, dəyərdi cana,
Üzü bənzər qarda qarğa qanına.
Toxunmuş zərəri çiçəyin aya,
Puç olub gözləri çıxmışdı zaya.
Şahdan izn istəyib o vəzir deyir,
Qızımın gözünə nur versin Xeyir.
Vəzir şah şərtinə eylədi əməl,
Dərman təsir etdi olduqca gözəl.
Oldu bu qızın da sevimli əri,
Bir gövhər cəzb etdi neçə gövhəri,
Ona qismət oldu üç gözəl tovuz,
Kəsranın tacıyla təxti-Keykavus.
Gah vəzir qızını dilə gətirdi,
Bütün istəyini ələ gətirdi.

Gözünə nur verdi şah qızı bəzən,
Bu sanki günəşdi, o bir aydı – şən.
Gah da kürd qızıyla şadlıq eylərdi,
Üç nərdlə oyunda üstün gələrdi.
Beləcə ömrünə yar oldu baxtı.
Əlinə keçirdi o tacı, taxtı.
Keçdi hesabına o gözəl diyar,
Tutdu tacidarlıq Xeyirdə qərar.
Günlərin birində o, bağa gəldi,
Bir könül açanla keyfə yönəldi.
Şər ki, yoldaşıydı onun səfərdə,
Düşdü öz əliylə öz başı dərdə.
Gördü o, cuhudla söhbət eyləyir,
Dedi yəhudiyə o saat Xeyir:
"Bir asudə zaman sal qabağına,
Gətirib gəl bunu şahlıq bağına".
Sonra gedib bağa keyfə oturdu,
Kürd əli qılınclı önündə durdu.
Gəldi eyni açıq pərakəndə Şər,
Öpdü torpağını ondan bixəbər.
Xeyir ona dedi: "Adını söylə!
Başın salacaqdır səni əngələ".
Səyyah: "Mübəşşirdir, dedi şöhrətim,
Görünür hər işdə gücüm, qüdrətim".
Xeyir dedi: "Söylə sözün düzünü,
Təmizlə qanınla yu öz-özünü".
O dedi ki: "Adım belədir ancaq,
İstəyirsən öldür, istəsən burax".
Xeyir dedi: "İşin daim zavaldır,
Alçaqsan, hamıya qanın halaldır.
Adın Şər, özün də xalq üçün şərsən,
Xisləti adından pis bir bəşərsən.
Sən o deyilsənmi bir cana qıydın,
Çöldə bir susuzun gözünü oydun.
Hələ bu bəs deyil, gör nələr etdin,
Ona su verməyib, çıxdın da getdin.
Aldın göz gövhəri, kəmər gövhəri,

Apardın onları, yandı ciyəri.
Gövhərləri gedən bil ki, mənəm, mən
Sənin bəxtin öldü, mənimkidir şən.
Hər kimin olarsa Allah pənahı,
Odur xoşbəxtliyin əbədi şahı.
Mənim taleyimə Allah oldu yar,
İqbalım eylədi məni tacidar.
Kəsildi bəxtimin tanrı pənahı.
İndi bu yerlərin şahıyam, şahı!
Vay sənin halına, yamandır zatın,
Qurtarmaz əlimdən artıq həyatın".
Şər Xeyri tanıdı və birdən-birə
Özünü götürüb çırparaq yerə,
Söylədi: "Gördüyüm işlər yamandır,
Pis əməllərimə baxma, amandır,
Başımız üstündə dönən fələklər,
Sənə Xeyir demiş, mənə isə Şər.
Nələr eylədimsə o zaman sənə,
Bütün eylədiyim yaraşır mənə.
Nələr bacarırsan mənə durma et,
Et ancaq özünə, adına nisbət".
Xeyir bu nöqtəni eyləyincə yad,
Tez onu ölümdən eylədi azad.
Elə ki, qılıncdan Şər azad oldu,
Uçdu yol uzunu, qəlbi şad oldu.
Qəzəbli kürd isə dalınca getdi,
Vurdu qılınc ilə tez həlak etdi.
"Xeyir düşündüsə xeyirli işlər,
Şərsə, dedi, çıxar qabağına şər.
Sonra üst-başını axtardı, gözdü.
İki dürr gizlədib kəmərdə, sözdü.
Gətirdi Xeyir üçün, qoydu tez yerə,
Dedi: "Çatdı yenə, gövhər gövhərə".
Öpdü gövhərləri o, kürdə verdi.
Nəcibi gövhərlə o sevindirdi.
Əlini gözünün üstünə qoydu,
Dedi: "Şər bunları xəncərlə oydu.

Verdim gövhərləri sənə mən özüm,
Çünki əllərinlə nurlanıb gözüm".
Xeyirin əməli qəlbinə yatdı,
Camaatda ondan arzuya çatdı.
Səadət taxtına çıxınca, demək,
Dəmir gümüş oldu, palaz da ipək.
Hər kimin ki, baxtı, xoş taleyi var –
Tikan ona xurma, daş da zər olar.
Qurdu çox təpərli ədalətini,
Qüvvətə mindirdi məmləkətini.
Bir zaman yönəlib yarpaq dərdiyi,
Ağır xəstələrə şəfa verdiyi
Ağacın üstünə tez-tez gələrdi,
Ağır naxoşlara əlac edərdi.
Keçirərdi orda gününü tamam,
Ürəkdən o yerə verərdi salam.
Ona xoş gəlmişdi səndəl havası,
Səndəl rəng olmuşdu onun libası.
Bağlardı hər zaman səndələ əməl.
Edərdi əynini daima səndəl.
Səndəl asayişin ruhu, qanıdır,
Ətiri hər zaman can nişanıdır.
Tozu yox eyləyər hər dərdi-səri,
Qurtarar yanğından odlu ciyəri.
Bitirdi nağılı o Çin gözəli,
Etdi öz dilini şirin, məzəli.
Şah onun yerini yanında etdi,
Yəni bədnəzərdən aldı, gizlətdi.

## VƏTƏN, XALQA XİDMƏT VƏ XEYİRXAHLIQ HAQQINDA

Çalış ki, kirpiyin olsun almaztək,
Ayıq ol, ölkənin keşiyini çək!
Belə məsəl çəkmiş aqil bir insan:
"Qurd girməz sürüyə yatmasa çoban".

Yurduna düşmənin yolun açma sən!
Hünər ardınca qoş, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç.
Dərdə döz, incitmə heç də özgəni,
Ellər qəm çəkincə, dərd alsın səni.
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.
Öz qəlbilə olan şəxs
Onunla bir yerdə yaşaya bilməz.
Buludtək damcıyla su al dənizdən,
Verəndə bol-bol ver əsirgəmədən
Xalq mənə versə də əziyyət, kədər,
Qıymaram incisin məndən bir nəfər.
Xeyirlə şər izləyir hər bəşəri əzəldən,
Xeyir xeyri tapandır, şər də şəri, əzəldən.
Hər şeyi özünçün əkmək nə yarar?
Dünyada hesabsız ruzi yeyən var!
Keçənlər zəhmətlə əkdiyi bağdan
Gələnlər meyvəni dərmiş hər zaman.
Köçənlər bir çox şey əkmişdir bizə,
Biz də əkməliyik gənc nəslimizə.
Dünya bir tarladır, diqqətlə baxsaq,
Hamı bir-birinə cütçüdür ancaq.
Eşqinlə atəşə dön, nifrətinlə buza dön,
El yolunda günə dön, aya dön, ulduza dön!
Yaxşılığı əzəldən adət etsən özünə,
Yaxşılığın hər yanda qapı açar üzünə.
El gücü – sel gücüdür, hər an çəkin bu seldən,
Yataqda da can alır qisas oxu qəfildən.
Xalqa divan tutanı divan gözlər hər yanda,
Məzlumların fəryadı qorxuludur cahanda.
Könül təlim eyləyir hər hünəri insana,
Məslək eşqi deməkdir ər hünəri insana.

Cana təpər yaranıb hər bir canın hünəri,
Bəyənməsən məhv olar hər insanın hünəri.
Alqışlarla çağlayar canda hünər çeşməsi,
Dönüb olar candakı qan da hünər çeşməsi.
Əziyyət eyləsən, cəfa görərsən,
Mehribanlıq etsən, səfa sürərsən.
Yaxşı adamların göz yum eybinə,
Yaxşı şey öyrətməz yaman göz sənə.
Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
Bəla görəcəksən pislik etdinsə,
Əvəz verəcəkdir dünya hər kəsə.
Bəlli bir şeydir ki, pislik edənlər
Öz işindən özü çəkəcək zərər.
Eşitməmişsənmi bu məşhur sözü:
“Quyu qazan adam düşəcək özü”.
Bu kənddə hər kimin əgər ağlı var,
Yaxşılığı zərdən o yüksək tutar.
Xoş ətirlər saçmaq istəyən adam
Gültək xoşxasiyyət olmalı müdam.
Adına yaxşılıq sikkəsini çal,
Böyük şöhrət qazan, göylərə ucal!
Bilir bu hikməti hər arif kişi,
Pis nəticə verməz yaxşının işi.
Yaşa ki, dünyaya işıq verəsən,
Torpağa göz dikmə ilan kimi sən.
Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.
Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil.
Gecəni, gündüzü çox vermə bada,
Yaxşı ad uğrunda çalış dünyada.
Bir xərabə görsən, qurmağa tələs,
Məsləhət belədir, əməyin itməz.
Boş təbli döyərək, hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.
Heç kəsi kin ilə etmə yerindən.

Su kimi aləmə həyat ver, can ver,
Hər rəngə uyğunlaş, dərdə dərman ver!
Əgər istər isən haqdan inayət,
Pislik eləməyi kökündən tərk et.
Həmişə dünyada yaxşılıq axtar,
Yaxşı ad almaqla əbədiyyat var,
Yaxşı ad almışla yaxşı ol müdam,
Yoxsa, axır özün olarsan bədnam.
Ol doğru miyançı, düzəlsin hər iş,
Ortada "nə kabab yansın, nə də şiş!"
Aqillər kam alır yaxşılıqlardan.
Pis fikrə düşərsə yaxşı bir insan,
Özünə yamanlıq edər hər zaman.
Biri pislik etmiş olarsa sənə,
Sən yaxşılıq etsən bir özgəsinə
Onu da, bunu da yad etmə əsla
Dilini həmişə yamandan saxla.
Özünə ölüncə özün ol qonaq,
Ağac ol, özündən doğur qol-budaq.
Qüvvətli olsan da qəlbi yumşaq ol.
Bir şəxsin olmasa şəxsə imdadı,
Say vaxtı heç saya alınmaz adı.
Bir kəsin dadına istəsən çatmaq,
O zaman ləngimə, tələs sən ancaq.
Şüşəyə öncə sən vurma daş, kəsək,
Qırılsa çətindir onu düzəltmək.
Yaxşılıqla pisdən qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün.
Əgər insansansa, insanlığı sev.
Elə bir ixtiyar olsaydı məndə,
Xudpəsənd olmayan təmiz bir insan,
Zalım bəndəyə möhtac bir bəndə.
Qorxmaz nə yaxşıdan, nə də yamandan.
İnsanla yaşayan mərddir, kişidir,
Kimsəni sevməmək namərd işidir.
Otlara yaraşar başını əymək,
İnsanın başıysa ucada gərək.

## SÜLH, MÜHARİBƏ, ƏDALƏT VƏ ZÜLM HAQQINDA

Barış zamanında döyüş başlayan
Heç ağıllı adam sayılmaz, inan!
Çox da, acıqlanma, bərk savaş olar,
Torpaq bərkidikcə dönüb daş olar.
Atəşi üfürsən alışıb yanar,
Onu suya bassan, sönər aşikar.
Haqq sözü eşitmək istəməyənlər,
Ağlını itirib öləcək hədər.
Nə üçün bir qarın çörəkçin yalnız,
Çəkişək, vuruşaq belə amansız?
Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyr olmuş, kinindən ziyan.
Qoyma qanla yusun şahlar dünyanı,
Qoy alovlanmasın düşmənin qanı.
Döyüşdən yaxşıdır barışıq, şəfqət,
Biri dərd gətirir, biri səadət.
Madam ki, sülh ilə göyərər dilək,
Döyüşə at çapmaq daha nə gərək?
Düşmənlik silinsin, dostluq var olsun!
Məsləhətə möhtacdır ədalət
Hər bir zaman.
Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət!
Ədalətin-Müksi bu dünyanı şad eylər,
Ədalətin işidir – ölkəni abad eylər
Zülmkarlıq dağıdar, bərbad eylər ölkəni,
Ədalət sədaqətlə abad eylər ölkəni.
Məmləkətin dayağı ədalətdir hər zaman,
Ədalətlə nəsibin səadətdir hər zaman.
Künc-bucaqda qalana sən bu qədər atma ox,
Yoxsulların ahından, qarğışından çəkin, qorx!
Səadət qapısını açmağa yaranmısan,
Sanma sitəm dalınca qaçmağa yaranmısan.
Hökmdar olmusan ki, yetişəsən haraya,

Daim məlhəm qoyasan hər sızlayan yaraya,
Məzlumlar güvənirlər şöhrətinə, adına,
Sən də yetiş onların köməyinə, dadına.
Kim ki zülmün evini bərbad edib indidən,
Öz sabahkı evini abad edib indidən.
Qılınc çəkib yerimə məzlum kəsin üstünə,
Hər səhər qarğış oxu tökülməsin üstünə.
Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.
Bəxtin payəsini o qədər yü,
Yıxıldığın zaman çəkmə əziyyət.
Dünyada zülm etmək qoçaqlıq deyil,
Rəiyyət bəsləmək çox yaxşıdır, bil.
Xəcalət çəkəni etməzlər zəlil,
Bu zülmkarlıqdır, ədalət deyil.
Hər kəs ki, zülm üçün qılıncı aldı,
Qan tökən şir kimi pəncəsiz qaldı.
Hansı bir ölkədə alışsa çıraq
Hər bir qanacaqlı verər ona yağ.
Yatma qoca kimi, bu yolda, aman!
Zalımdan özünü qoru hər zaman.
Zülmün toxumundan göyərməz nəbat.
Uğurlu şey deyil zülm eyləmək, bil.
Hər kəs zor göstərsə işində əgər,
İşinin nizamı pozulub gedər.
Zülm edib hər bir kəs şur qaldırsa bil,
Göndərər məzara onu hər adil.
Kim salsa dünyada zülm bağını
Deməli, bağlar öz əl-ayağını.
Dünyada çox ləziz, şirin meyvələr
Pis gözə uğrasa torpağa düşər.
Adil ol, şad yaşa ömrünü bütün,
Olmasın əlində açılmaz düyün.
Ədalətin ucaltsın qoy nəslinin adını,

El gözündən salmasın özünü, övladını.
Qarşına canavar çıxdığı zaman
Ya öldür, ya da tut, heç vermə aman.
Birilə-köhnədən olarsa kinin,
Kökünü öldür onun nəslinin.
Atayçın oğuldan alma intiqam,
Çalış dost olasan onunla müdam. (İ.)
Qardaşın qanını alma qardaşdan,
Tamam ayrı şeydir çünki südlə qan. (İ.)
Zatı pis olanı heç yüksəltmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən. (İ.)
Həyasız adama qarşı sərt rəftar
Yumşaq davranmaqdan faydalı olar. (İ.)
Zülmü birdəfəlik eylə sən kənar,
Çünki zülmkarlıq ömrü azaldar. (İ.)
Zülmün ayininə birdən çək qələm
Ki, xalqın qəlbindən silinsin ələm... (Ş.)
Ədalət mülkündən kim üz çevirsə.
Ona aqil deməz ağıllı kimsə. (Ş.)
Dünyanı namusla olur saxlamaq,
Onunla ucalır dövlət və bayraq. (Ş.)
Qan ilə islanmış zülmkar başdan,
Şübhə yox, yaxşıdır başsız bir insan. (Ş.)
Elə dünyapərəst olmayaq gərək
Ki, öz süfrəmizi qanla bəzəyək. (İ.)
Bir yerdə insafdan olmasa nişan,
Quruyar istidən, çürüyər sudan. (İ.)

## DOSTLUQ VƏ DÜŞMƏNÇİLİK HAQQINDA

Həyat nəyə gərəkdir, bir həmdəmin olmasa?
İnsan çətin yaşayar dosta əmin olmasa.
Varlığına əminsən sən ki hələ həyatda,
Çalış, könül sirdaşı gətir ələ həyatda. (S.)
Sadiq dostun sağaldar şəfasıyla yaranı,

Dönük dostun sızladar cəfasıyla yaranı. (S.)
Saxta dostun dünyanın alçağıdır, dost deyil
Ürəyinə yatmayan bir yağıdır, dost deyil. (S.)
Hamının öz sirdaşı, yarı vardır cahanda,
Əsl yar havadardır, xilaskardır cahanda.
Yalqızlıq çox çətindir, bu dərdi sezməlisən,
Tənhalığın əlindən axır ki, bezməlisən.
Hər qapıya can atıb səba kimi cumma sən,
Alçaqlardan sədaqət, dostluq, vəfa umma sən. (S.)
Heç bir işdə olma yarsız, yoldaşsız. (X.)
Dünyada çox iş var yoldaşdan aşar,
Yaman gündə çatır dada yoldaşlar. (X.)
Dost qəlbi torpaqdır, ona əl vursan,
Əlin pak olacaq o zaman, inan. (X.)
Heç kimsəylə yola getmirsə bir kəs,
Ona bel bağlayıb, bir iş görülməz. (X.)
Kiçik sanma onu kim düşmənindir,
Nərdi xam adamdan udmaq çətindir. (X.)
İçki məclisində dostun min olar,
Birini tap, olsun səninlə qəmxar. (X.)
Bağlama qapını dostun üzünə. (X.)
Ağıllılar bilir, tək yesə hər kəs,
Təklikdə də ölər, dost-aşna görməz.
Çay suyu olsa da sən içmə yalqız,
Dəniztək olarsan acı, qılıqsız. (X.)
İstəyirsən evin salamat qala,
Evə yad adamı buraxma əsla. (X.)
Heç oturub, durma pis dostla, çəkin,
Şəninə əskiklik gətirər sənin. (X.)
O qəmlər ki, tutar könüldə qərar,
Dərd bilən dostlara söyləmək olar. (X.)
Dostların üzünə məclisi parlat,
Göz və könül gülsün, xoş olsun həyat. (X.)
Paxıllıq eyləsə dostuna hər kəs,
Onun yoldaşlığı torpağa dəyməz. (X.)
Dosta yaxşı deyil dost olsa bədnam. (X.)

Dəvə uzaq düşsə, ayrılsa qatar,
Bir siçan da olar ona cilovdar. (X.)
Namuslu yar olar, hər dərddən hali,
Tovusun yoldaşı tovus olmalı. (X.)
Bazarın rəvacdır yaxşı işlərlə,
Kasadlıqda qoyma dostunu belə. (X.)
Öküz cüt olmasa kotanda əgər,
Tək öküzlə, söylə, yeri kim sürər? (X.)
Filləri qovmuşdu çeşmədən dovşan,
Kiçik görünməsin gözünə düşman. (X.)
Pisə yoldaş olma əgər pis deyilsən. (X.)
Qohumdan mehriban yadlar az deyil,
Həm vəfalı, sadiq, həm də şirindil. (X.)
Hamının yoldaşı, gizli yarı var,
Dostu var, bir yaxın havadarı var. (Y.)
Bir dost ki, dost ilə hey nifaq eylər,
O demək, düşmənlə ittifaq eylər. (Y.)
Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.
Xoş ətirli bir dost yaxşıdır, inan,
Hərzə-hərzə durub danışanlardan.
Bir dostun da olsa eyibli əgər,
Yüzünün adına ləkə yetirər.
Ehtiyatsız bir quş düşərsə tora,
Başqa yüz quşu da sürüklər ora. (Y.)
Nə qır yaxşı dürrü, nə boş yerə saç,
Bədgövhər olanla yaxınlaşma, qaç.
Sanma bədgövhərin vardır vəfası,
Xəta işləməkdə olmaz xətası. (X.)
Özünü dost tutan lağlağılar var,
Onlar kənizlərdə qürur doğurar.
O dost ki, hər işi yalnız duzaqdır,
Bəzəkli-düzəkli bir mancanaqdır. (Y.)
Yaxşılar cilovu verməzlər pisə,
Satmazlar dostları yada, nakəsə. (Y.)
Yarı əhl olanın işi səhl olar. (Y.)

Qarışqa birlikdə göstərib hünər,
Özündən çox böyük şeylər sürüyər.
Dostluqda hər kimlə səsləşə bilsən,
Onun pərdəsində nəğməni çal sən. (L.)
Çox gözəl olsa da eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək. (L.)
Dərinlik, sonsuzluq varsa dəryada,
Arxların suyundan yaranmış o da. (L.)
Düşməni qanına qərq etmək olar,
Dostla vuruşmağın mənasımı var? (L.)
Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar. (L.)
Barmağın birini çalarsa ilan,
Barmaq kəsilməsə zəhərlənər can. (L.)
Vəhşiylə dost olsa insan dünyada,
Vəhşi adətincə ömr edər o da. (L.)
Vəhşiylə dost olan, vəhşi də olar. (L.)
İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban. (L.)
Tək uçan kəkliyi qızıl quş yeyər. (L.)
Dostluq, mehribanlıq göstərsən, ey yar,
Gəlib qulun olar azad adamlar. (L.)
Var gücünlə qolunu burmalısan düşmənin,
Kürəyini tez yerə vurmalısan düşmənin. (S.)
Hər kəsi sınaqdan keçirib düz bax,
Sınaqsız olmasın o sənə küstax.
Heç kəsin əhdinə bel bağlama gəl,
Onun iç üzünə atmayınca əl. (L.)
Dostluq iddiası edən bir ürək
Sözdən başqa çox şey bildirə gərək. (İ.)
Bədgövhər adamla aranı qatma,
Sən öz kimyanı güllərə atma. (İ.)
Xoş olmaq istəsən, xoş dostlar tanı,
Xoşbəxt xoşbəxt edər çünki insanı. (İ.)

Əqilli adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan. (İ.)
Dünyada xoşbəxtdir yalnız o kəslər
Ki, öz çörəyini dostlarla yeyər. (İ.)
Böyüklə vuruşda insan ad alar
Alçaqla vuruşan özü alçalar. (X.)
Poladdan dağ olsa yenə də inan,
Onu parça-parça dağıdar insan. (X.)
Hər bir dərdə qatlaş, möhkəm duraraq,
Gözlə ki, basmasın yük səni, ancaq. (X.)
Ovlamaqdan qalsa bir tülək tərlan,
Min təpik yeyəcək sərçədən hər an. (X.)
Fil keçsin üstündən tapdalayaraq,
Xəsis adamlara əl açma ancaq.
Mərd olmaq yaxşıdır dünyada hər an,
Mərdlik ilə çatar arzuya insan. (X.)
Kim hünər köhlənini cilovlaya bilibdir,
Diləyin ovlağında ov ovlaya bilibdir. (S.)
Aman istəyincə qurbağalardan,
Yaxşıdır balıqtək tez qərq olasan. (X.)
Şir kimi hücum et, şirə rast gəlsən,
İt görən zamanda gəl baş qoşma sən. (X.)
Gərək cavanmərdi pul aldatmasın,
İşinə zərrəcə xələl qatmasın. (Y.)
Samantək oynasa küləkdə hər kəs,
Bir dağ olsa belə, samana dəyməz. (X.)
Ceyran çətin vaxtda şir olar bəzən. (X.)
İnan, zirək adam mələkdir, mələk,
Zirəklik gözəldir, əcəbdir gerçək. (Y.)
İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən zirək. (Y.)
Çarpış dünya ilə şiri-nər kimi,
Yoxsa udar səni o, əjdər kimi. (Y.)
Hünərli dünyada təxtü tac alar,
Alçalmaz heç zaman, başı ucalar. (Y.)
Qanı çörəyinə yavanlıq elə,

Papağı dik saxla, baş getsə belə. (L.)
Gül kimi yumşaqlıq göstərmə, gerçək,
Olma ikiüzlü, bənövşələr tək.
Ömrü başa vurar şir ürəklilər,
Öküz ürəklidə olmaz bir hünər. (L.)
Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan?
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!
Sən də süsən kimi ipəkdən olsan,
Səni saf torpaq da yaralar, inan!
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu olar xar.
Tikantək çiynində tut yarağını,
O vaxt qucaqlarsan gül budağını.
İnsanı sarsıdar göz yaşı, nalə,
Ah çəkib, of deyən yetməz kəmalə! (L.)
Mərdə layiq sifət deyildir, inan
Ki, bal oğurlasın bal arısından.
Bağışla atını, sən get piyada,
Sillələr yesən də, mərd ol dünyada. (L.)
Şir güclü olsa da tox bir canavar,
Ondan qoçaq olar ovda çaqqallar. (L.)
İradəsiz olma, iradəsizlər
Ayaqsız qurd kimi yerdə sürünər.
Tülkü canavarı edirsə məğmun,
Ondan iradəsi böyükdür bunun. (L.)
Düşmən silahlansa qarşında əgər,
Sən də qılınc vurub qüvvəni göstər.
Lakin, silah töksə qarşında düşmən,
O miskin düşmənlə gəl vuruşma sən. (L.)
Mərdə təmiz bir ad candan əfzəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir. (L.)
Mən meydan əriyəm, sən də bir kişi,
Mərdliklə seçilir hər mərdin işi. (Ş.)

Ovcumun içində olsa da, yenə
Dikmərəm gözümü özgə mülkünə. (Ş.)
Gənc maral nə qədər olsa da cəsur,
Cilovu aslandan çəkməsi xoşdur. (Ş.)
Həm hünər göstərmək, həm də mal üçün
Çalışmaq bir borcdur istiqbal üçün! (Ş.)
Aslanın böyrünə əl çəkmək üçün
Üstün olmalıdır aslana gücün. (Ş.)
Bir aslan köpəkdən qorxarsa, bişək,
Ona şıllaq atar qoca bir eşşək. (Ş.)
Əlaltı olma bir əlaltı şəxsə! (Ş.)

## ÇALIŞQANLIQ VƏ TƏNBƏLLİK HAQQINDA

Bir gün bar götürər ağac əkənlər,
Xəzinə aparar əmək çəkənlər.
Tənək ağlamasa vaxtında zar-zar,
Yetirməz axırda sevinclərlə bar. (Y.)
On naxış vursa da bir nəqqaş əgər,
Əsas bir cizgidən sanma əl çəkər.
Bir cizgi naxışdan çıxarsa kənar,
Başqa cizgilər də bütün pozular. (Y.)
Hər kim toxum əksə şoranlıq çölə,
Ancaq peşmançılıq gətirər ələ. (Y.)
O kəsə deyərəm daim bəxtiyar,
Səpdiyi toxumdan görsün elə bar
Ki, dünya durduqca heç pozulmasın. (Y.)
Hər halda sən çalış, həyat əməkdir,
Cənnət cahıllığı nəyə gərəkdir?
Kim qayğı bəsləsə öz əməyinə,
Özgəyə pis baxsa, o pisdir yenə. (Y.)
Kimin ki, qəlbində vardır hümməti,
Onun da yaxşılıq olur neməti.
Çalış, ayağına tikan batsa da,
Tənə bəhanəsi olmasın yada,
Bu deməsin: ömrün yetibdir başa,

O gülməsin: başın dəyibdir daşa. (Y.)
Ləl çox gec doğur, ömrü çox olur,
Lalə tez göyərir, tez də yox olur. (Y.)
Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular. (Y.)
Zəhmətdən incimə, yeni mədən aç!
Bu dünya əhlinə xəzinələr saç! (Y.)
Gərəkdir gec yatıb erkən göz açmaq. (Y.)
Çalışan ruzunu daşdan çıxardar. (Y.)
İnsan etsə əgər bir işə vərdiş,
Çətin olsa belə, görülər bu iş. (Y.)
Hər işi bacarar işlək bir insan. (Y.)
Əzəldən sevdiyim əməkdir, işdir,
Hər ağac bir bağdan gətirilmişdir. (Y.)
Dünya zirəklərin karvan yoludur,
Düz və təmizlərin sadiq quludur. (Y.)
Tərpətməzsə onu bir insan əli,
Hərəkət eləməz cəhrə də, bəlli. (X.)
Zəhmətlə açarsan bağlı tilsimi,
Açdın, xəzinə çıxar aydın gün kimi. (X.)
Ağac çatlatmasa hər bir budağı
Heç bir bahar görməz dünyanın bağı. (X.)
Cütçü saf tum atsa torpağa əgər,
Sözsüz torpaqdan da saf tum göyərər. (X.)
Dünyada diribaş qazanar ancaq. (X.)
Canın sağ olduqca bu dünyada, bil,
Vücud çətinlikdən yorulan deyil. (X.)
Hər uzanan ələ halva verilməz. (X.)
Ustanın əlinə keçənə qədər
Adətdir ki, hər iş çətin görünər. (X.)
İşini boş tutmaz heç zirək adam. (X.)
Ağac əkən zaman elə yerdə ək
Ki yəqin biləsən o bar verəcək. (X.)
Halal ye tərlantək, halal ov ara,
Bənzəmə leş üstə qonan quşlara. (X.)
Sabaha çox da sən ümid bağlama,
İşi lap bu gecə düzəlt, saxlama. (X.)
İş çətinə düşsə, bil ki, o zaman

Hamıdan tez ölər matəm saxlayan. (X.)
Bu dərya yolunda vardır çox zəhər,
Əziyyət çəkənlər dürr əldə edər. (X.)
Nə şəhvət, nə yuxu, nə də ki, yemək
Həyatın mənası olmasın gərək.
Yatmağı, yeməyi bu aləmdə sən,
Eşşək, öküzdə də görə bilərsən. (L.)
Mədəsi ac olan işsiz bir köpək
Boş-boş oturmaqla taparmı çörək?
Bu dünya səsiylə səsləşənindir.
Dövranla düz gəlsən, dövran sənindir. (L.)
Günəşin ordusu boy versə əgər,
Xəlvətə çəkilər, qaçar kölgələr, (L.)
Əzəldən dünyanın bir qaydası var:
Bal tutan barmağı arılar sancar. (L.)
Bir daş deyilsənsə, donub qalma sən,
Çolaq deyilsənsə diribaş tərpən! (L.)
Əlini vurmasa oda bir nəfər,
Odun istisini necə hiss edər? (L.)
Ömrün ixtiyarı öz əlindəykən,
İşini gör, qurtar hamıdan erkən. (L.)
Boş-bekar oturma heç yerdə bir an,
Barı əl-qolunu oynat yalandan.
Heç yerdə qəflətdə gəl tutma qərar,
Ya hərdən bir bağırıb hay-küy də qopar. (L.)
Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən gül verər, zülm etsən tikan. (L.)
Hər kəs sənətindən yapışsa əgər,
Dünyada nə əksə, onu da biçər. (L.)
Xəzinə kəşf etmək istəsən əgər,
Hər bir çətinliyə tab et, sinə gər! (İ.)
Dünya görmüş adam, yaxşı, ya yaman,
Şikayət eyləməz öz iqbalından. (İ.)
Bərk daşlar içində gizlənər gövhər,
Gövhər çətinliklə əldə edilər. (İ.)
İş bərkə düşəndə bədbin olma sən. (İ.)
Yoxsulluq üz versə sənə, heç zaman
Yalvarıb istəmə kimsədən aman. (İ.)

İnsanı süst edən boş-boş yatmaqdan
Nolaydı, gözünü açaydı insan. (İ.)
Dənizdən dürr tapar canından keçən,
Çıxaranın olar dağdakı mədən. (İ.)
O qədər xəbərsiz yatma hər zaman
Ki, birdən sel gəlib aşar başından. (İ.)
Bu nə tənbəllikdir, giriş tez işə,
Bekarlıq insanı sıxar həmişə.
Özgəyə qazdırma mədəndən gövhər,
Özün bir əl tərpət, dirisən əgər,
Əl-ayaq qulundur, işlətsən, yəqin,
Çıxmazlar heç zaman əmrindən sənin.
Minlərlə xidmətçin olsa da hökmən,
Öz əl-ayağını qoyma heç işdən. (İ.)
Nə çox əylənən ol, nə də çox yeyən,
Bunlardan süstləşər, boşalar bədən. (İ )
Sən ki, zövq alırsan yemək, yatmaqdan,
Nə deyim sənə, ey qulaqsız insan!
Nə sənətim sənin məlumun deyil,
Nə də darvazamda vurulan təbil. (Ş.)
Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət. (Ş.)
Çarə qapısını bağlı qoyma, gəl,
O fayda verərsə daha da gözəl. (Ş.)
Ancaq öz varınla ol coşqun ümman,
Götür öz faydanı öz varlığından. (Ş.)
Həddən çox yeməyə etmə sən adət,
Mədəni doldurmaq zəhmətdir, zəhmət. (Ş.)
İpək yetirməkdə iki cins qurd var,
Ziddir od – su kimi həmişə onlar.
Biri baramanı toxuyur bir-bir,
O biri karvanla ipək məhv edir.
Pətəkdə iki cür arı var müdam,
Necə pərvanəni tələf edər şam.
Biri yem daşıyır hey axşam-səhər,
O biri gizlincə o yemdən yeyər.
Bal verən arının bircəsi yəqin,
Yüzündən yaxşıdır bal yeyənlərin. (İ.)

## İDRAK VƏ CƏHALƏT HAQQINDA

Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini, daşı, heyvanı.
Qalacaq əbədi nə şey dünyada –
Öyrən günlərini vermədən bada. (Y.)
Özündən hər kim ki, deyil xəbərdar,
Bir qapıdan girər, birindən çıxar. (Y.)
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər. (Y.)
İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki, yetişmədi ağıldan bara,
Oxşar insansifət əjdahalara. (Y.)
Qızılı saymaqda bil ki, səhvin var,
Dünyanın gözünü ağıl parladar. (Y.)
Kim ki, ibrət dərsi alıb dünyadan,
Sözün lövhəsini öyrənən zaman
Eləmiş sənəti elmə xəznədar,
Dünyanın müşkülü belə açılar. (Y.)
Hər kim öyrənməyi bilməyirsə ar
Sudan dürr, daşdan da gövhər çıxardar,
Ancaq, öyrənməyi ar bilən insan
Məhrumdur dünyada bilik almaqdan. (Y.)
Aqil o kəsdir ki, vəfadar ola. (Y.)
Səbəb boş deyilməz, gəl düşün bir az,
Yolu xəyal ilə süpürmək olmaz. (Y.)
Günəş hər tərəfə dolandırsa baş,
Ona üz döndərər gül yavaş-yavaş. (Y.)
Pis, yaxşı nəyin var, demək malındır,
Lakin sənə vacib öz kamalındır. (Y.)
Hər bir işə dözər ağıllı insan,
İstər gül olsun o, istərsə tikan. (X.)
Nöqsana göz yumub, kamala baxan
Daim xoşbəxtidir cahanın, inan. (X.)
Cibi boş olandan bir bac alınmaz,
Köhnə xarabadan xərac alınmaz. (X.)

Ağıllı adamla yaşa salamət,
Nadanın dərmanı törədər illət. (X.)
Zəmanə torundan biliklə qurtar. (X.)
Çalış həqiqətlə özünü bil sən. (X.)
Ağlın olsun sənə hər işdə rəhbər,
Hər şeyi ondan sor, o deyən yetər. (X.)
Huşlu olsa insan bu yerdə əgər,
Ayağı nə palçıq, nə daşa dəyər. (X.)
Biliyə rəqib ol, dünyanı qazan. (X.)
Vaxtı boş keçirmə, qələm al ələ,
Zəhmət çək, dünyada bilik kəsb elə. (X.)
O şey ki, bizlərə lap aşikardır,
Orda da gizli bir xəzinə vardır. (L.)
Anlayıb, düşünək hər şeyi gərək,
Hər sirri açmaqla hünər göstərək. (L.)
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat. (L.)
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən. (L.)
Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elmi axtar. (L.)
Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan. (L.)
Dəliyə bir zəncir yaraşar yalnız. (L.)
Havalı yaşayan sərsəm bir insan,
Nə xeyrə, nə şərə yarayar, inan. (L.)
Qalxıb ucalsan da sonsuz göylərə,
Ağlı başında ol, düşün bir kərə. (L.)
Düşməni şad edib güldürürsə qəm,
Ağıllı dərd çəkib, olarmı dilqəm? (L.)
Bağlı bir qıfılı açmaq istəsən,
Əvvəlcə sınaqdan keçir onu sən. (L.)
Düşəndə məhbəsə aqil bir adam
Baxıb yol axtarar qaçmağa müdam. (L.)
İrəliyə addım atdığın zaman

Geri dönməyi də unutma bir an. (L.)
Dünyada məqamı bilməyən bir kəs
Pərdəli yolları düz gedə bilməz. (İ.)
Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz!
Hər uca rütbədən biliniz, fəqət
Alimin rütbəsi ucadır, əlbət! (İ.)
Nalayiq danışan şəxslərə, əlbət.
Hər zaman sükutla müqabidə et! (İ.)
Əlbət ki, əqilli bir qulaq asan
Yaxşıdır həmişə yüz şüursuzdan! (İ.)
Bir əfsun eşitsən bir əfsun gərdən,
Ayıq ol, əfsuna düşməyəsən sən. (İ.)
Haqq sözü eşitmək istəməyənlər
Əqlini itirib öləcək hədər. (İ.)
Əqilli adamla xoş rəftar etsən,
Sən öz hünərini tez göstərərsən. (İ.)
Əlində yumşalsa dəmir, bunu bil,
Tədbirlə yumşalar, hiddətlə deyil,
Qəlbi də istəsən, bu sayaqla sən
Parladıb aynatək edə bilərsən.
Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından.
O qədər saf qəlbli, pak vicdanlı ol,
Mənəvi sirləri edəsən qəbul.
Pis olan şəxslərə vur qara damğa,
Çalış öz qəlbini saflaşdırmağa. (İ.)
Günəşə göz yumub yandırsan çıraq,
Külək söndürəcək onu, bil ancaq. (İ.)
Görünməz bir şeyi təsəvvür etsən,
Əlbət ki, hər zaman yanılarsan sən. (İ.)
Əqilli adamdır dünyada o kəs:
Gözü görməyəni heç qəbul etməz. (İ.)
Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdən axtar, taparsan. (İ.)
Göndər qanacaqlı yanına qanan,
Alimin yanına alim hər zaman. (İ.)

Kimsənin getməmiş olduğu yolla
Çox yoldaş olsa da, getmə sən əsla.
Çox yaxın, ancaq ki, qorxulu yoldan
Qorxusuz uzaq yol yaxşıdır, inan. (İ.)
Aqil ol, əl çəkmə xasiyyətindən,
Özgə xasiyyətə uyma qətiyyən. (İ.)
Alim tədbirilə məqsədə çatar. (İ.)
Yerlərdə, göylərdə qoyulan əsas
Ağıl ölçüsündən kənara çıxmaz.
Ölçüyə idrakdır rəhbərlik edən,
Kənara çıxmaz bu həddən, ölçüdən. (Ş.)
Hər gecə biliyə qapı açmadan
Başımı yastığa qoymadım bir an. (Ş.)
Hər əqlə sığışan hünər, bilikdən
Bir məna çıxarır mənanı bilən. (Ş.)
Ayıqlıq nə böyük dövlətmiş, bilsən!
Əli boş olmamaq dünya nəqdindən.
Dünyada o şəxsin ucalar başı,
Çox sayıq davranar hər işə qarşı.
Şüurla ölçər bu həyat yolunu,
Oğrudan qoruyar öz var-yoxunu. (Ş.)
Ağılsız kəslərlə oturub duran
Ağıldan, şüurdan deməsin dastan. (Ş.)
Nəsihət eşitsə çarə arayan
Dərdinə bir açar tapar hər zaman. (Ş.)
Ağlın var, gül ilə olma həmnişin,
Çünki qalmasından deyilsən əmin. (Ş.)
Hər işdə lazımdır ayıqlıq, diqqət,
Hər kuzə çeşmədən çıxmaz səlamət. (Ş.)
Bir fikir doğunca geniş ağıla,
Hər yaxşı-yamana bir ölçü saxla. (Ş.)
Saf, doğru olmayan sözə inanma,
Mətinsən, verdiyin sözünü danma. (İ.)
Yaramaz heç zaman ağıllı insan
Özündən güclüyə oxusun meydan. (Ş.)
Eşşəyin cəvahir olsa da yükü
Yenə də eşşəkdir, parıldar tükü. (Ş.)

Ayıbla hünəri ayırmayanlar
Hünərlinin necə qədrini anlar. (Y.)
Günəşi palçıqla suvamaq olmaz! (Y.)
Ömrünü əfsunla vermə sən bada,
Əfsunla yaşamaq olmaz dünyada! (İ.)
Torpaqdan yaranan hər qanmaz, alçaq
İnsan surətində heyvandır ancaq. (Y.)

## SÖZ, ŞEİR, SƏNƏT VƏ SÖHBƏT HAQQINDA

Yeniliklər törədən bu qoca kainatda
Sözdən incə, kəsərli heç nə yoxdur həyatda.
Düşüncənin munisi, gözəl sirdaşı sözdür,
Unutma ki, insanın əzəl sirdaşı sözdür. (S.)
Söz bayraq qaldıranda ilham dolu könüldə,
Tərənnümə söz tapmaz sözlü ağız da, dil də. (S.)
Ürəksizlər qafildir ürək sözündən belə,
Sözün şərhi artıqdır sözün özündən belə. (S.)
Göyə meydan oxusun qanad açan sözlərin,
Bu dünyanın könlünə ətir saçan sözlərin. (S.)
Sanma bayraq söz qədər zəfər çalar hər yanda,
Qələm öz qüdrətilə ölkə alar hər yanda. (S.)
Səncə köhnə qızılmı, təzə sözmü yaxşıdır?
Söz sərrafı söylədi: “Söz dünyanın naxşıdır!” (S.)
Vaxtsız yola çıxsan, pusarlar, inan,
Başını kəsərlər vaxtsız banlasan.
Gül kimi bir neçə dil aç da, amma,
Süsən kimi uzun bir söhbət açma.
Polad kimi bərkit qızıl sözü sən,
Salsın söz sikkəsi pulu qiymətdən.
Dəmirçilər kimi qılıncı yarat,
Sonra cilalandır, gün kimi parlat.
Düşüncəsiz bir söz kimə gərəkdir?
Kim belə sözləri dinləyəcəkdir?
Sözü mənzum demək asandır, asan,

Ancaq nəzm üstündə gərək durasan.
Sözün çoxsa əgər çalış az olsun,
Yüz sözün yerində bir kəlmə qalsın. (X.)
Az danışsan əgər, sözün sayılar,
Çox sözü dinləyən çox nöqsan tutar,
Səninçin çox demək bəlkə asandır,
"Çox oldu!" desələr böyük nöqsandır.
Söz ruhdur, can üçün ruh bir dərmandır,
Cantək əzizliyi bəlkə bundandır. (X.)
Doğru yazmağa var madam ki, imkan,
Neçin gəlməlidir ortaya yalan!
Sözün qiymətini saldı yalanlar,
Doğrunu danışan hörmətli olar. (X.)
Mənim xəzinəm var – "Məxzənül-əsrar",
Boş zəhmət çəkməyin nə mənası var. (X.)
Səqqa çox götürsə suyu çeşmədən,
Çeşmənin də suyu artacaq həmən. (X.)
Əvvəl dil, sonra söz; gözdən sonra nur,
Əvvəl üzüm olur, sonra mey olur. (X.)
Özgənin nırxını sındırsam əgər,
Mənim də nırxımı özgə puç edər. (X.)
Bilici deyəni etmədim təkrar,
Məlumu deməkdən kimə fayda var. (X.)
Belə söyləmişlər bilici kəslər:
Yaxşı-pis ölümdən sonra bilinər. (X.)
Öz işinə görə söz danış hər an,
Bafta sarıyarmı həsir toxuyan?
Bu ağıllı sözlər nadir gövhərdir,
"Həlilə – Həlilə, şəkər – şəkərdir!" (X.)
Mən sözü ölçməmiş demərəm, əsla,
Sən də söyləyəndə söylə qiyasla. (X.)
Yaxşı-yaman sözlər çox olsa da, bax,
Fərqi tük qədərdir arada ancaq. (X.)
Hər söz düşüncəylə deyilsin gərək,
Xərcləməzdən əvvəl qızılı bir çək. (X.)
Gövhəri gövhərlər qiymətdən salar,
İpəyi ipəklər hörmətdən salar. (X.)

Ağzında o qədər saxla ki, sözü
Yaxşı ad qazansın deyənin özü. (X.)
Düşmənin gözüylə sənətinə bax,
Onda yaxşı-pisi görərsən ancaq. (X.)
Hiyləli sözlərdən, əcəb, nə çıxar?
Ürək bulandıran söhbətdə nə var? (X.)
Acı söz deyənlər təlx məcaz olar,
Kahada hər kəsin əjdahası var. (X.)
Ağıllı adamın söylədikləri
Yer altına düşsə itməz dəyəri.
Söz deyən düşünüb söyləsə əgər,
Pis söz də söyləsə, yenə xoş gələr.
Hər sözə bir meyar, ölçü gərəkdir.
Naqqallıq yükünü çəkən eşşəkdir. (X.)
Vaxtsız banlayanda xoruz görürsən,
Ayrılır bir anda başı bədəndən. (X.)
Apardı çox dillər başı torpağa. (X.)
Dilcə şerimizdə olsa da kəsir,
Mənaca böyükdür ondakı təsir. (Y.)
Yazdığımız sözlər nadir olsa da,
Yenə köhnələri salırıq yada. (Y.)
Sözdür həm təzə şey, həm də köhnə şey,
Sözdən bəhs edilir zaman-zaman hey.
Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan.
Ruh kimi təmiz söz oldu gövhəri,
Hatif xəznəsinin əzəldən bəri. (Y.)
İnsanın qalacaq sözü yadigar,
Yeldir yerdə qalan başqa hər nə var. (Y.)
Yaxşı söz insanın batar başına,
Ağıl yazar onu ürək qaşına. (Y.)
Əfsanə dəhlizi dar olsa əgər,
Sənətin sözü də yolda ləngiyər.
Gərək söz meydanı gen olsun müdam,
Atını dördnala səyirtsin ilham. (L.)
Şadlıqdır, eyhamdır sözün arğacı,
Bunlarla düzəlir söz ehtiyacı.

Kədərlə, zəncirlə bağlansa dastan,
Sözlər çılpaq olar, can sıxar, inan. (L.)
Hər şeir şadlıqla gəlsə nəfəsə,
Beyt hadisəylə başlayar rəqsə. (L.)
Bir misrası dürdür, bir misrası zər,
Mənayla doludur bütün beytlər. (Y.)
Qarğım hünərimin əkin yerindən
Sünbülü qaldırıb Ütaridəcən. (Y.)
Nə qədər oxuyub öyrəndim, heyhat,
Yenə də qəlbimi görmədim, rahat. (L.)
Sənətin ziddinə söz danışanlar
Əyri pərdə kimi yanlış çalarlar. (L.)
Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar. (L.)
İncitək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz. (L.)
Pis sözü ağzına alınca insan,
Qarnında öldürsə yaxşıdır, inan.
Bu dünya dolanıb, döndükcə ruzgar,
Qoy səndən yaxşı söz qalsın yadigar. (L.)
İnsanı dişləsə azğın bir quduz,
Onun məlhəmi var, keçər, qorxusuz.
Lakin dil yarası ürəkdən getməz,
Ona min məlhəm də bir əsər etməz. (L.)
Ayıblı sözlərin yazılmasından
Yaxşıdır, bir dəftər ağ qalsa, inan. (L.)
Heç kəslə qaydasız danışma ki, sən,
Axırda utanıb üzr istəyəsən.
Kamanın boşsa da, bərksə də əgər,
Ehtiyatsız çəksən bəla gətirər.
Boş olsa məlamət gətirər kaman,
Bərk olsa, xəcalət gətirər kaman. (L.)
Dilin bəlasıdır uzunçu olmaq,
Ariflər işidir sükuta dalmaq. (L.)
Dəlili qüvvətli olan bir sözü

Qanmaq istəməyən bədbəxtdir özü! (İ.)
Daşlardan cəvahir çıxaran ancaq
Bilir ki, çətindir gözəl söz tapmaq. (İ.)
Köməyi dəyməyən şirindil insan
Yaxşıdır acıdil əl tutanlardan.
Xoşdil olmalıdır mehribanlıq, bil,
Nə çıxar mehriban olsa acıdil!
Çalış ədəbli ol hər sözündə sən,
Ədəblə danışsın səni dinləyən.
Əqilli bir işdir yumşaq danışmaq,
Axmağın işidir kobudluq ancaq.
Söz gözəl olursa olsun nə qədər,
Pis əda o sözü tamam məhv edər.
Sükut çox yaxşıdır pis danışmaqdan,
Sükutdan olmamış heç kəs peşiman. (İ.)
Haqlı bir adamla qızğın bəhsə sən
Girişmiş olsan da, tez kəsməlisən. (İ.)
Çəkin söz-söhbətdən sən alçaqlarla,
Onları özündən uzaqda saxla. (İ.)
Söz hər şeydən əvvəl dinləyən istər
Alıcı olmazsa, tanınmaz gövhər. (İ.)
Nəğmə gözəl olar – olsa ahəngdar. (İ.)
Dünyada böyüklük tapmaq istərsən,
Al ələ qələmi, yaz böyüklərdən,
Dindirən olmasa danışma hədər,
Kəsəri yavaş vur, sınmasın gövhər,
Sormadan kim sözə başlasa, bişəkk,
Sözünü küləyə sovurmuş, demək. (Ş.)
Söyləmək o zaman verər mənfəət,
Aləmə səs sala, qazana şöhrət.
Sözünə almasan layiq bir cavab,
Dəyərli sözləri eləmə xarab,
Boş-boş söyləməkdən saxla özünü,
Ağzına qıfıl vur, yandır sözünü. (Ş.)
Ən ağır qiymətli mətalarım var,
İstəyən olmazsa etmərəm aşkar. (Ş.)
Şeir dövlətindən əldə var kəsər,

O bəzən ağladar, bəzən güldürər. (Ş.)
Eşq olsun, söz düzən böyük şairlər
Kiçik bir arpadan yaradar gövhər. (Ş.)
Bakir söz tapınca yontulur ürək,
Hər kəsin işimi incə söz demək? (Ş.)
Xurmatək dəyməzsə, onu bil yəqin,
Açmaram üzünü söz gəlininin. (Ş.)
Dəyərsiz sözlərdən uzaq ol bir az!
Əyri pərdələrdə çalğı çalınmaz. (Ş.)
Keçmişlər deyəni eləmə təkrar,
İnciyə bax, iki dəlik açmazlar.
Ancaq sözü sözə bağlamaq üçün,
Bəzən nə eybi var, təkrar da mümkün. (Ş.)
Ürəkdən doğan söz yatar ürəyə. (Ş.)
Hər tarix şeir ilə alsa yaraşıq,
Şübhəsiz, olacaq bir az dolaşıq. (Ş.)
Qələmə gərəkdir öylə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.
Parlaq inci kimi düzülən sözlər
Ağıla sığmazsa yalana bənzər.
Doğruya azacıq bənzəyən yalan
Yaxşıdır yalana bənzər doğrudan. (Ş.)
Sözlər padşahının bir məsəli var:
Nə gözəl söyləmiş: "Axtaran tapar!". (Ş.)
Nə qədər məsuddur şən həyat quran,
Təməh süfrəsindən az bir şey uman,
Sevdiyi guşədə keçinir rahət,
Hünərlə çalışır, yaradır sənət. (Ş.)
Düşüncəsi, ağlı sağlam olan kəs,
Lüzumsuz sözləri söyləməz əbəs.
Qızışanda dili səbr etsə bir az,
Tutduğu işindən peşiman olmaz.
Sürəkli alqışla tapsa da zəfər,
Susmaq söyləməkdən çox fayda verər.
Nə gözəl söyləmiş qoca bir ərən:
"Dil ətdən yaranmış, qılınc dəmirdən".

Özünə, özgəyə olmaz mehriban
Dilinə gələni söyləyən insan. (Ş.)
Hər söz öz yerində olur çox gözəl,
Çünki nar bar verməz vaxtından əvvəl.
Hər vaxtsız banlayan xoruzun gərək
Durmadan başını bıçaqla kəsmək.
Dilini bağla ki, əldə qalsın baş,
Dil quru olarsa, boğaz olmaz yaş. (Ş.)
Dilini damaqda saxla daima,
Yersiz heç bir zaman nəfəs çıxarma.
Dil damaq evində otursun gərək,
Bəxtiyar yaşasın, gülsün hər dilək. (Ş.)
Öylə söz vardır ki, yaramaz demək.
Başqa bir dil ilə söyləmək gərək.
Sözü incə-incə söylərkən bir-bir,
Ondan hər eşidən alar bir təsir. (Ş.)
Deyilməz sözləri danışma, burax! (Ş.)
Ölkədə tərk olsa sənət, sənətkar,
Heyhat, bundan böyük fəlakətmi var?
Sənətkar əl çəkmiş öz sənətindən,
Başqa bir sənətə yapışmış cəbrən. (Ş.)
Hər kəs sənətində olmasa azad,
Dünya bu gedişlə olurmu abad? (Ş.)
Sənətkar getməsə öz sənətinə,
Yaxşı iş görsə də suçludur yenə. (Ş.)
Məndən sənət alar hər bir sənətkar,
Əlinə dövlətdən verərəm açar. (Ş.)
Vücudu sağlamlar bunu bilməli,
Sənətdən gərək boş qalmasın əli. (Ş.)
Hər sözün xüsusi bir ölçüsü var,
Ölçüsüz söylənən söz qulaq yırtar.
Bir söz ki, qaşlara düyün vuracaq,
Gözəl söz olsa da söyləmə, burax! (Ş.)
Xanəndə bəstəsiz şərqi söyləsə,
Söz ilə kamança gülər o səsə. (Ş.)
Ölçüsüz söyləmə, tökməyəsən tər. (Ş.)

Hər cavab vaxtında verilsin gərək! (Ş.)
Vəfasız kimsədən umulmaz kömək. (Ş.)
Ahəngsiz səs ilə inləyir cahan,
Qüsurlu pərdədir, suçsuzdur çalan.
Pərdəyə istəsən xoş ahəng vermək,
Həmahəng pərdəyə get elə kömək. (Ş.)

## ŞƏNLİK VƏ SƏRXOŞLUQ HAQQINDA

Madam ki, dünyadan getməliyik biz,
Yaşayaq qayğısız, qəmsiz, kədərsiz. (X.)
Doğruluq yolunu tutmayan sözlər
Ay qədər ucalsa qiymətdən düşər. (Ş.)
Nəşəsiz bir ürək nəyə gərəkdir? (X.)
Burax qəmi, qəmə dəyməz bu dünya. (X.)
Məyusluq insanı sardığı zaman
Uzaq düşər insan xilas yolundan. (X.)
Palçıqdan yaranmış, diltəng olma, gəl,
Ürəyi darlıqdan törənər əngəl.
Dünya üçün olsa diltəng bir insan,
Dünya ar eyləyər onun adından. (X.)
Qəlbini şad elə, tamahdan əl çək. (X.)
Ölüm yatağında olsa da bir şəxs
Umudunu əsla həyatdan üzməz. (X.)
Dünyanın işini şadlıqla keçir,
Alıb xəracını xərc eylə bir-bir. (X.)
Qəm yemə, gül, sevin, sağsan nə qədər,
Başından bir tükü salmasın yellər. (X.)
Baharın var bu gün, ye meyvəsindən,
Hər gün novruz olmaz, məgər bilmirsən? (X.)
Arif ol, qəm çəkmə, qəmdən et həzər,
Qum nəm çəkən kimi qəm qəmi çəkər. (X.)
Şadlıqdan asudə aləm olarmı?
Rahatlıqdan gözəl bir məclis varmı? (X.)
Şadlıqla gün keçir, fikirdən qurtar,
Çox qayğı çəkməyin min bəlası var. (X.)

İçmə, huşyar eyləməz o içdiyin mey səni,
Yaddan çıxar varlığın, şərab eylər key səni.
Sərxoşluğa uyan kəs ələm çəkər ömürlük,
Aqilliyin üstünə qələm çəkər ömürlük. (S.)
Nə qədər bu torpaq, hava, od, su var,
Ol qəm aləmindən hər zaman kənar. (Y.)
Dünya nemətini daim yada sal,
Ondan sağlığında mənfəətlər al. (Y.)
Bu kənddə hər kimin əgər ağlı var,
Zərdən yaxşılığı o yüksək tutar. (Y.)
Şadlığı bir yaşat təbiətinlə,
Şad ol öz qismətin, öz nemətinlə. (L.)
Daş-kəsək olsa da, keçdiyin bu yol,
Rəqsində oynağan fələk kimi ol! (L.)
Dərdlərdən, qəmlərdən azad bir ürək
Özgənin dərdini hardan biləcək?
Toxun ac olandan nə xəbəri var?
Verdiyi çörəyi xırdaca doğrar! (L.)
Sən şadlan, kor olsun buna düşmənin,
Gəlsin məclisinə dostların sənin. (L.)
Vəhşilər yanında nəğmələr demək,
Evdə qəm yeməkdən xoş olsun gərək. (L.)
Asudəlikdədir olmaq sələmət,
Bundan başqa nə var, boş şeydir əlbət. (İ.)
Yükü yüngül olan xəşbəxtdir, inan. (İ.)
Gözəl bir həyat qur, şən yaşa hər an,
Kimsəyə dəyməsin səndən bir ziyan. (Ş.)
Nəyin var, şən-şən ye, sevin bu günə,
Qoyma bir dirhəmi dirhəm üstünə. (Ş.)
Bu anı xoş keçir, hər şeydən vaz keç,
Gələcək və keçmiş çünki heçdir, heç. (Ş.)
Bu gözəl dünyada varkən hər büsat,
Behiştdə nə lazım əbədi həyat?! (İ.)
Bəyənən bir şeyi görsə xoşnəzər,
Ona yeni şeylər əlavə edər.
Hər şeyi bəyənsə bədnəzər ancaq
Onu tələf edər, qoymaz qala sağ. (İ.)

Özünü şad göstər, heç olma qəmgin,
Gizli dərdin olsa, zahirdə sevin. (İ.)
Ağalıq torpağa girincədir şən,
Torpaqda seçilməz kimsə kimsədən. (Ş.)
Kədərə dəyməz bu dünya, şən keçin!
Kim deyər bu dünya tikildi qəmçin?
Şənlikçin yaranmış dünya, bunu bil!
O zillət, fəlakət ocağı deyil! (Ş.)
Ver şənlik meyini, can qurban ona!
İçək, həm də verək başqalarına.
Gün keçdi, sabah da gəlməmiş ələ,
Yalnız bu gecəni şən keçir hələ. (Ş.)
Yalnız şənlik düşün nuş edərkən
Şərab məclisində yox başqa bir şey.
Özünü zillətdə tutmaq nə gərək!
İl boyu qəm, kədər udmaq nə gərək! (Ş.)
Əlində nə qədər var isə imkan,
Çalış ki, şən keçsin hər nəfəs, hər an.
Qəlbimiz hər zaman şən olmalıdır,
Kin, tamah bədənə atəş nalıdır.
Ömrə sərmayədir aldığın nəfəs,
Kədərə tapşırmaq əbəsdir, əbəs!
Şənlikdə səslənsin çıxan nəfəslər!
Şən nəfəs almasan, sərmayən gedər. (Ş.)
Sərvətçin kar olma, dönmə sərt daşa!
Sərvətin olmasın, ancaq sən yaşa. (Ş.)
Ayağı zəncirli, əlində də cam
Sərxoş bir nəfərdən əql ummaz adam. (X.)
Sərxoşu çətindir qonaq eyləmək. (X.)
Sərxoşluq, dəlilik birgə pis olar. (X.)
Hər kəsin başını qızdırsa şərab,
Anlamaz duzludur, ya şitdir kabab. (X.)
Bir sərxoş eyləsə yüz bikri qarət,
Ayılcaq unudar, böylədir adət.
Çox sərxoş qıfılı özü açar şad,
Ayılıb oğrudan eyləyər fəryad. (X.)
Əbləhlər içərkən olar bixəbər,

Huşyar olan meyi başqa cür içər. (Y.)
Bəzən əyri görər keflinin gözü. (Y.)
Dəlidən, sərxoşdan ağıl ummazlar. (L.)
Çox içən adamlar bədxumar olar. (L.)
Şərab halalsa da mindirmə başa,
O haramzadədən uzaqda yaşa.
Meyi qaydasında nuş edə bilsən,
Sən şərab içərsən, keflənər düşmən. (L.)
Şərabı içmədən, gözüm, məst olma!
İçsən də dönərək bütpərəst olma! (Ş.)
Batil xəyalatının, durma, gözünə mil çək,
Ayağını zəncirlə, meyxanalardan əl çək! (S.)
Eşqsiz bir adam bir neydir qırıq,
Yüz canı olsa da ölüdür artıq.
Sevgi hiylə bilməz, o qurmaz duzaq,
Səni sevdasından buraxmaz ancaq.
Eşşək kimi yemək-içmək nə şeydir,
Bir pişik olsa da, məhəbbət yetir.
Pişiyin eşqinə tutulmaq, inan,
Yaxşıdır şir olub, yalnız qalmaqdan.
Əgər olmasaydı eşqin danəsi,
Gəlməzdi dünyadan dirilik səsi.
Eşq evindən gözəl bir məkan hanı?
Aşiqdən asudə yaşayan hanı?
Eşqin suzişindən gözəl şey nə var?
Onsuz nə gül gülər, nə bulud ağlar. (X.)

## EŞQ, VÜSAL, HİCRAN, DÜZLÜK VƏ SƏDAQƏT HAQQINDA

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin? (X.)
Eşqin qulu ol ki, doğru yol budur,
Ariflər yanında, bil, eşq uludur.
Bu dünya eşqdir, qalan fırıldaq,
Eşqdən başqa şey bütün oyuncaq.

Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı böyük cahanı.
Baxma ki, bu ürək can sultanıdır,
Eşqə könül ver ki, canlar canıdır. (X.)
Eşq düşsə daşın qəlbinə əgər,
Gövhərtək bir məşuq o əldə edər.
Maqnit olmasaydı eşqin əsiri,
Özünə çəkməzdi dəmir zənciri.
Kəhrəbanın eşqə düşməsə canı,
Öylə axtarmazdı quru samanı. (X.)
İdrakı dinləsək, söyləyər o da:
Hər şey eşq üstündə durur dünyada.
Yaransaydı göylər eşqdən azad,
Düşün, olardımı yer üzü abad? (X.)
Bir neçə gün hicran dağıyla tək qal,
Ayrılıqdan sonra xoş olur vüsal. (X.)
Gözü yolda qalmaq yaman bəladır,
İnsanı min cürə möhnətə salır.
İşgəncəsiz olmaz heç qəm, doğrudur,
Gözü yolda qalmaq çox yaman olur.
Yollarda qalmasın kimsənin gözü,
Həsrət ömrü qırır, saraldır üzü. (X.)
Doğrudur intizar çəkmək yamandır,
Sonu vüsal olsa, yenə asandır.
Nə qədər xoş olur cəfa çəkərək,
İntizardan sonra arzuya yetmək. (X.)
Məhəbbətlə dolub çağlarkən bahar,
Sevgisiz yaşayan xəta iş tutar. (X.)
Sonralar verilən yüz mey camı, bil,
İlk verilən qədər dəyərli deyil. (X.)
Sevda əldə qılınc araya girsə,
Qaçmaq məsləhətdir hər məğrur kəsə. (X.)
Eşq ilə hökumət uymaz heç zaman,
Bunlardan birini tutmalı insan. (X.)
Yüz mülk olsa yarsız nə çıxar ondan. (X.)
Arzu gec yetişsə xoşdur, ey nigar,

Tez-tez içən adam tez sərxoş olar. (X.)
Biliyin yolunu ağıl göstərər,
Eşq üçün deyildir bir belə dəftər.
Eşqin meydanında aciz qalanlar,
Tez ağlın atına olurlar suvar. (X.)
Eşqdə səbr etmək xamlıqdan gəlir,
Hər eşqin binası səbirsizlikdir.
Səbr etmək uzaqdır eşqin yolundan,
Aşiq adlanarmı səbr edən insan? (X.)
Kimsə məhəbbətdən pislik gözləməz,
Varsa da özünə götürməz heç kəs. (X.)
Ömrümüzün günü sayılır bir-bir,
Eşqsiz keçən gün ölüm deməkdir.
Eşqin yollarında əvvəl fərhad ol,
Sonra ölümünçün sevinib şad ol! (X.)
Kam ardınca olma çox da həvəskar,
Tapmayan zamanda olmayasan xar.
Bir şey tapan zaman az olsun nəfsin,
Onda qat-qat olar qələbən, yəqin. (X.)
Bir ürəkdə olmaz iki sevgili,
İki ürəklinin düz olmaz dili. (X.)
Gözəlin zülmündən incimək olmaz,
Adətdir məşuqə etsin gərək naz. (X.)
Hər eşqin bir cürə fəryadı vardır. (X.)
İstidə lazımsa sərin bir külək,
Aşiq könüldə də dərd olsun gərək.
Eşqə könül verən ahü zar eylər,
Naləsiz aşiqi eşq inkar eylər,
Eşq təkəbbürlə düşməndir hər an,
Eşqlə oynamaq yamandır, yaman. (X.)
Bəxtiyardır sonda kamə irənlər. (X.)
Yaxşı olur güldən gülab alasan,
Gül solar geciksə o gülabtutan. (X.)
Aşiqin ələmlə qəlbi uyuşar. (X.)
Aşiqi süslədən bütün əməllər
Zirək məşuqənin əlindən gələr. (X.)

Kimin ki, dünyada bir məşuqu var,
O adam həqiqi bir aşiq olar. (X.)
Bir kəsək üstünə quşu qonmayan
Bir canana uymaq əbəsdir, inan. (X.)
Eşqinin ucundan can versəm də mən,
Yaşa bu həyatda, xətər görmə sən. (X.)
Gəlini gül-çiçək bəzəyi örtməz,
O, gözdən itsə də, könüldən itməz. (X.)
Kimin ki, eşqdən nişanı yoxdur,
Demək ruhu yoxdur və canı yoxdur. (Y.)
Gözəllər tünd olur fələk kimi, bil,
Onlardakı tündlük təəccüb deyil. (X.)
Cananla nə zaman dursan üz-üzə,
Doğru cavab verin sorulan sözə. (Y.)
Səbrin eşq əhlinə yoxdur faydası. (Y.)
Könül əsirgəməz aşiq canandan. (Y.)
Əgər ki, aşiqin nəsibi ahdır,
Tövbə eşq əhlinə böyük günahdır.
Eşq tövbə ilə aşina deyil,
Tövbə eşq əhlinə heç rəva deyil.
Aşiq yar yolunda versin can gərək,
Qorxusu olmasın qılıncdan gərək. (Y.)
Bir xəlvət yer ola, bir də nazlı yar,
Söylə, belə yerdə kimdə səbr olar? (Y.)
Birinci badənin yaman zəhmi var,
İlk dəfə yıxılan çox bərk yıxılar. (L.)
Aşiqin dərdini üzündən tanı. (L.)
Məhəbbət daimi olmasa əgər,
Gəncliyin bir şəhvət oyuna dönər,
Məhəbbət odur ki, odu sönməsin,
İnsan yaşadıqca, üzü dönməsin.
Həqiqi məhəbbət bir məhəbbətdir,
İlki də, sonu da əbədiyyətdir. (L.)
Eşqsiz bir ürək heçliyə varsın,
Onu qəm selləri yuyub aparsın. (L.)
Demə məhəbbətə qılıncdan iti,

Ürəkdir yaradan bu məhəbbəti. (L.)
Eşqin qılıncından qorxmaz ki, heç kəs,
Aşiqin başından qılınc əksilməz.
Aşiq olan kimsə canından qorxmaz,
Cananını sevən cahandan qorxmaz. (L.)
Bir baş verilməsə canana qurban,
Qılınca və təştə layiqdir, inan. (L.)
Məşuqə verdikcə aşiqə nəfəs,
Aşiq də verməli ona bir əvəz. (L.)
Canana can vermək xoşdur əzəldən. (L.)
Quru bir çörəklə şor bir halvadan
Pisdir zorla gələn bir arvad, inan. (L.)
Məhəbbət fili də qoyar piyada,
Ona diz çökənlər mərddir dünyada. (L.)
Aşiqi axtarıb gəzsə bir insan,
Onun yarını da qoy tapsın ondan. (L.)
Özün də aşiqsən, bilirsən, ey yar,
Sevən ürəklərdə qısqanclıq olar. (L.)
Yar üstə bir milçək qonarsa əgər,
Həqiqi aşiqə qartal görünər. (L.)
Sevgi meydanında yalnız dayanmaq,
Canana can vermək şərtdəndir ancaq.
Qızılgül ətrindən doysa bir nəfər,
Ona haram olur başqa ətirlər. (L.)
Əgər məhəbbətdə olmasa ismət,
O şəhvət hissidir, deyil məhəbbət!
Saf eşqin nurlu bir güzgüsü vardır,
Eşqin hesabından şəhvət kənardır,
Qərəzli bir sövda yaşamaz, inan!
Eşq ilə qərəzi bir tutmaz insan.
Düz gəlməz eşq ilə qərəz, müxtəsər,
Qərəz olan yerdən eşq qalxıb gedər. (L.)
Bir eşq doğruluqda tutarsa qərar,
Dostun yaxşılığı birə on olar,
Sevgi bu kamala çatarsa bir an,
Yaxşı ad qazanar özünə insan. (L.)

Eşqin aləmində ox kimi süz sən,
Uzaq düşməyəsən o nişanədən. (L.)
Özün gənc olasan, əlində gözəl,
Mümkünmü çəkəsən məhəbbətdən əl? (İ.)
Bir könül məhəbbət eylərsə izhar,
Çox şeylə seçilər ondakı rəftar. (İ.)
İki qəlb bir olsa dağı parçalar,
Böyük bir kütləni edər tarü mar. (Ş.)
Yüzü halva üçün yandırar ocaq,
Halva şirin eylər bir ağzı ancaq. (Ş.)
Bir ovuc arpa üçün nə əyil, nə daş daşı,
Könül dəyirmanında
Qoy yeməsin daş daşı. (S.)
Sığın könül mülkünə, öz yerini bilən ol,
Hünərinlə dünyanın hər eybinə gülən ol! (S.)
Aşıb-daşsa biliyin, dinməməyə alış sən,
Danışmağa çalışma, dinləməyə çalış sən! (S.)
Yersiz gülən dodağı bağlamağın yaxşıdır,
Boş gülüşdən yerində ağlamağın yaxşıdır. (S.)
Bu bir həqiqətdir ki, doğruluq etsə hər kəs,
Öz doğru işlərindən dünyada ziyan görməz. (S.)
Dediyiçün sübhi-sadiq doğrunu
Dünyalar qızıla tutdurmuş onu. (X.)
Misə qızıl vurmaq nəyə gərəkdir?
Mis yenə özünü göstərəcəkdir. (X.)
Qəlbində doğruluq olan bir insan
Cahan tutar, onu tutmaz bir cahan. (X.)
Zəfərin açarı baxın nə deyir,
Xəznələr açarı – düz düşüncədir. (X.)
Heç bir vaxt meyl etmə ilqar pozmağa. (X.)
Doğruluq yaxşıdır, uymayın yada,
Bircə düzlükdədir nicat dünyada.
Sağ qulaq düzlükdən eyləsə həzər,
Bir çox sol qulaqlar çəkəcək zərər. (Y.)
Vəfasız olmayan dost yaxşıdır, bil! (Y.)
Sönükdür hər zaman yalan xəyallar,

Yalnız həqiqətdə ölməz qüvvə var.
Həqiqət açarı əbədiyyətdir,
Onunla seçilir möcüzdən sehir. (Y.)
Düz olmasa işdə qurduğun təməl,
İnandığın adam işlər pis əməl. (Y.)
İlan düz getməsə yoluyla əgər,
Özünə sarılıb, dolaşıq düşər. (L.)
Əhdini sındıran yaxşı adlanmaz,
Sən əhdi qırmaqdan gəl saqın bir az. (L.)
Ədalət axtaran insanlara sən
Doğru cavab göndər dəlillərdən.
İşində sadiq ol, sözündə möhkəm,
Kim aman istəsə, olsun xatircəm. (L.)
Xıltdan ayrılmağı öyrən gümüşdən,
Çalış gümüş kimi tərtəmiz ol sən. (İ.)
Pozsa öz rəyini rəyi xoş insan,
Öz abad mülkünü etməzmi viran? (Ş.)
Xəstə şəfa şərbəti içdi dayə əlindən,
Divanəlik binası sarsıldı təməlindən. (S.)
Arzu həvəsinə əməl edənin
Yoxsuldur axırı, olsa da zəngin. (Y.)
Nə qədər ki, dünyada alıb verirsən nəfəs,
Sən düzlük qapısını döyməyə göstər həvəs.

## GƏNCLİK, QOCALIQ VƏ ÖVLAD TƏRBİYƏSİ HAQQINDA

Həyat dünyasıdır hər şeydən üstün,
Cavanlıq günüdür ən qiymətli gün.
Dünyada həyatdan yaxşı şey nədir?
Gənclik günü ömrə bir nümunədir. (X.)
İçki, yar, çiçəklik, cavanlıq dəmi,
Böylə gözəl həyat dağıdar qəmi. (X.)
Qocalıq, xəstəlik birləşsə ancaq,
Sönər, möhkəm olsa nə qədər çıraq. (X.)

Nə qədər yağmayıb bağçalara qar,
Bağın, bağçanın da min səfası var. (X.)
Ömrün yarısında mərd tapar kamal,
Ayın ortasında bədr olar hilal.
Qara tük ürəkdən hər dərdi silər,
Qaralar gözündə olmaz qəm, kədər. (X.)
Meyvə kal olduqda böyüyər, artar,
Yetişən zamanda yerə düşər bar. (X.)
Gənclik – təzə nallı, köhlən əbrəş at,
Qocalıq zamanı dadsızdır həyat. (İ.)
Həyat yox, gəncliyi alınca xəzan,
Gənclik qalmayınca qalmasın cahan,
Gənclikdir insana gözəllik verən,
Gözəllik sönərsə qəlb olurmu şən? (Ş.)
O gün ki, gəncliyin qüruru sönər,
İş görməz daha bu cəsarət, hünər. (Ş.)
Meyvəli bağlarda saralan yarpaq
Xəzan yellərindən gətirər soraq. (X.)
Cavanlığın qədrini bilərsən qocalanda,
İtən ömrə göz yaşı çilərsən qocalanda. (S.)
Dünyada keçməsin boş cavan çağın,
Yol get ki, güclüdür indi ayağın. (Y.)
Bağ, bağça gözəldir, şəndir gülüstan,
Sərv ilə lalələr güldüyü zaman.
Öylə ki, bağlara boz xəzan girər,
Bülbül öz yerini qarğaya verər.
Bağbanlar qəlbini dərd, qəm yaxaraq,
Yaşıl qol-budaqdan tökülər yarpaq.
Bostanlar pozular, reyhanlar qalmaz,
Bağın açarını soruşan olmaz. (Ş.)
Cavan olsa xurma ağacı, barı
Daha bol gətirər güclü şaxları. (Y.)
Əlliyə çatınca dəyişər əhval,
Dəyişər yaşayış, dəyişər hər hal. (Ş.)
Bir gəncin ürəyi coşsa dünyada,
Düşməz nəsihəti pirlərin yada. (Y.)

Otaq boş qalınca işıqlı şamdan,
Qalmaz pərvanədən daha bir nişan. (Ş.)
Şiddətli küləklər qopduğu zaman, –
Düşər yarpağımız bir-bir ağacdan. (Ş.)
Kişinin həmsalı ölən zamanda
Həyat ümidindən iz qalmaz onda. (Ş.)
Bədəndən çıxınca dəyərli cövhər,
Ona öz qadını arxa çevirər. (Ş.)
Gənclik hər ürəyi coşduran zaman,
Qocanın susması deyilmi nöqsan? (Ş.)
İstəyə gəncliklə mümkündür çatmaq,
Qocalıq gəldimi, axtar bir bucaq. (Ş.)
Yemə var-yoxunu, gec qalxacaqsan,
Yoxsulluq yamandır qocalan zaman. (Ş.)
Bilənlər başçısı olsa da yenə,
Bu gənclər möhtacdır qoca fikrinə. (Ş.)
Bilikdə birinci olsa cavanlar,
Qocalar fikrinə ehtiyacı var. (Ş.)
Sənə nə eyləsə övladın, inan,
Onu görəcəkdir öz övladından.
Oğlunun yaxşı-pis işiyçün, dayan.
Cəza vermə, o da alar oğlundan.
Əvvəl əyri bitən bir cavan budaq
Zənn etmə qocalsa düzgün olacaq. (X.)
Mənimçün üstündə gül olan tikan
Yaxşıdır meyvəsiz sərv ağacından. (X.)
Uşağın cinsini dayəsi bilər. (X.)
Əyri bitsə əgər əvvəldən calaq,
Onu od düzəldər, düzəltsə ancaq. (X.)
Məsəldir deyərlər oddan kül olar. (X.)
Hər anadan olan övladdır məgər,
Hər gül meyvə verməz, hər qamış şəkər. (X.)
Sən yaxşısan, o da pis olmayacaq,
Öz tumuna bənzər göyərən budaq, (X.)
Oğlun harındırsa, bundan zərər yox,
Zəmanə yumşaldar, qəm eyləmə çox. (X.)

Anadan ayrılsa bir quzu əgər,
Onun arxasınca canavar düşər. (X.)
Görərsə buluddan sədəf, səxavət,
Bulud da sədəfdən görər məhəbbət.
Bulud nə səpərsə göylərdən yerə,
Sədəf də onları çevirər dürrə. (Y.)
İnsan bu dünyada daimi yaşar,
Yurdunda bir övlad qalsa yadigar. (L.)
Bir əkin yerini vursa quraqlıq,
Yağışın mənası qalarmı artıq? (L.)
Ağac əkilməli münbit bir yerə,
Ta behişt barıtək meyvələr verə. (Y.)
Təlimdir düzəldən itləri saptək,
Olmazmı cəhd etsə bir insan mələk? (Y.)
Oğlunu bir rəngdə görmək istəsən,
Ürəktək bir ata-analı ol sən. (İ.)
Hər kəs yaxşı, yaman, nə qoysa əsər,
Bununla zatını büruzə verər. (İ.)
Bulud ağlamasa, gülərmi çəmən? (Y.)
Hər kim istəsə ki, işləsin haram,
Haramzadə olar yalnız o adam. (Y.)
Əsası çox möhkəm olmayan evin
Bütün dörd divarı tez uçar, yəqin. (İ.)
Əgər bir damcı su yoxsa quyuda,
İp uzun, ya qısa olsa nə fayda. (İ.)
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki, böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən, aslanlar kimi keç cəbhələrdən,
Ancaq hünərinin balası ol sən! (L.)
Uşağı yolundan qaçırmaq üçün
Üzü zənci kimi qaraltmaq neçin? (Ş.)
Ağıllı övladla ata fəxr edər. (Ş.)
Dünyada ataya varmıdır, gerçək,
Ağıllı oğuldan başqa bir istək? (Ş.)

Oğlunun boyuna gəlsə paltarın,
Məhəbbət gözləmə, gedəcək varın. (Ş.)
Hər bir şey təməldən möhkəm qurulur,
Təməlsiz binalar çox tez də uçur! (Ş.)
Böyük bir ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən. (İ.)
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz. (L.)

## SƏBR, QƏNAƏT, HƏR ŞEYİN HƏDDİNİ BİLMƏK VƏ SİRR SAXLAMAQ HAQQINDA

Ürəyinin sirrini faş eyləsə dil sənin,
Yad qəlbimdə bir sirrin qala bilməz, bil, sənin. (S.)
Kim saxlasa dilini, görməz canı xətanı,
Dil gətirər başlara hər bəlanı, xətanı. (S.)
Dünyadan əlimdə şey yoxsa əgər,
Qənaət ki vardır, o bəsdir, yetər! (X.)
Səbr etməklə kişi zindandan çıxar,
Səbr ilə açılar bağlı qapılar.
İş çətinləşəndə səbr açar bağı,
Gecə ardında var sübhün çırağı. (X.)
Qoy dünyada qalsın dünyalıq nemət,
Bir parça çörəyə eylə qənaət. (X.)
Ağlın var, hər şeydən çalış azad ol,
Nəyin var qane ol, onunla şad ol! (X.)
Etməklə insan yetər kamına,
Yavaş-yavaş çatar dilaramına. (X.)
Çörəyin, suyun var, qane ol otur!
Ən azad bir ölkə, inan ki, odur! (X.)
Ağıllı adamlar səbirsiz olmaz,
Keçi yüyürməklə heç ətə dolmaz. (X.)
Ciyər yırtansa da qəmin peykanı,
Bununçun yaranmış səbrin qalxanı. (Y.)
Bugünkü bərkliyə dözəsən gərək,

Kim bilir ki, sabah nə göstərəcək! (X.)
Ovçu səbirsizlik göstərsə əgər,
Oxu nişanəyə dəyməz, yan gedər. (Y.)
Çətin axar sular üzü yuxarı,
Səbr etmək vaxtıdır, tələsmə barı. (X.)
Hər kim qənaətlə əgər şad olar,
O hörmətli olar, sərazad olar. (Y.)
Qoy başımın altı olsun bir dəmir,
Qanlı zər kəməri könlüm istəmir.
Əlimi yandıran gümüşdən mənə
Qolumda mis qolbaq yaxşıdır yenə. (X.)
İnsanlardan başqa bütün canlılar
Qənaət evində tutmuşdur qərar. (L.)
Ümidsiz bir işdən, səbr etsən əgər,
Bir ümid işığı parlaya bilər.
Hər ümidsiz işdə bir çox ümid var,
Qaranlıq gecədən ağ səhər doğar. (L.)
Sənin də səbrində qoy olsun qərar,
Gövhəri səbr ilə qazanmaq olar. (L.)
Bir arzuyla yaşa, o puç olsa da,
Arzuyla şadlanar aqil dünyada. (L.)
Özgəsinin eybinə gözlərini açma sən,
Öz-özünü görəndə, öz eybindən qaçma sən! (S.)
Hər qorxu içində bir ümid də var,
Ümid zamanında qorxu da olar. (L.)
Heç kəs ruzisini adlayıb keçməz,
Əndazəylə yeyər ruzini hər kəs. (İ.)
İş düyün düşərsə, bunu bil ki, sən
Səbr etmək yaxşıdır boş əlləşməkdən.
Açılar bir zaman düyünlər bütün,
Ancaq ki, tədriclə açılar düyün.
Çox tez-tez düyünə düşər iş bəzən,
Görərsən açılar o düyün birdən. (İ.)
Səadət qapını açmasa bu gün,
Kəsmə ümidini ondan büsbütün. (L.)
Hər çəkilən dərdin bir sonu da var. (L.)

Bir şeyi tapmasan, çalış, səbr elə,
Özünə təsəlli ver ümid ilə. (İ.)
Hər bəndin açarı səbirdir, inan.
Səbirli kimsələr olmaz peşiman. (Ş.)
Dünyada səbr elə hər şeydən əvvəl –
İradə mülkünün – hakimi ol gəl. (L.)
İndiki dərdinin sonu xoş olar,
Bir gün ağlamağın gülməyi də var. (L.)
Darılma sənə üz verdikdə kədər,
Ondan da böyük bir dərddən qıl həzər. (Ş.)
İndi ki, bildiyini saxlaya bilməyirsən,
Özgədən öz sirrini saxlamağı umma sən. (S.)
Dodağında şəkər də olsa açma, ol huşyar,
Hər divarın dalında bir eşidən qulaq var. (S.)
Susuzluq yatıran sərin su xoşdur,
Artıq içilərsə faydasız olur.
Bir dirilik suyu olsa da bu su,
Başdan aşsa əgər, vardır qorxusu. (X.)
Bir də ayağını öz yorğanından
Artıq uzadanlar bədbəxtdir, inan.
Bir quş ki, həddindən artıq ucalar,
Özünü fəlakət yoluna salar. (L.)
Silaha sarılsa bir zahid axmaq,
Onun qazandığı sillə olacaq.
Aslanla döyüşə çıxsa tülkülər,
Bilinər kimdədir qılıncla hünər. (L.)
Duzla ağarsa da xörəyin üzü,
Qaydasında gərək tökəsən duzu. (X.)
Yersiz bir gülüşün nə mənası var?
Yerində ağlamaq daha xoş olar. (L.)
Dövranından çıxma heç yüksəklərə,
Uzat ayağını yorğana görə.
Ləpəni atma sən çölə dəniztək,
Çalışma uçmağa özündən yüksək. (X.)
Hər rast gələn suyu içmək yaramaz,
Hər şeyə bir paltar biçmək yaramaz. (X.)

Hər gələn xörəyi tez yemək olmaz,
Hər əldən gələni eyləmək olmaz. (X.)
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da. (L.)
Baş vaxtından əvvəl ucalsa əgər,
Özü təpəsinə sillə endirər. (L.)
Çəkdi o sərkərdə yaxşı bir məsəl;
Saxla öz işinin ölçüsünü gəl. (L.)
İş, doqquz addımla atılsa sən bil,
On addım atmağın məsləhət deyil. (L.)
Nə o qədər ver ki, sərxoş olsunlar,
Nə də elə et ki, ac qalsın onlar. (İ.)
İşini ölçüyə uydur hər zaman,
Ortadır faydalı, az, çox olmaqdan. (Ş.)
Deyilməyən sirri gətirmə dilə,
Onun barəsində düşünmə belə.
Elə pərdə saxla bu məclisdə sən,
Darğa qılıncına rast gəlməyəsən. (X.)
Dağıtma əlində var isə sərvət,
Bihudə yeməkdən çəkərsən zəhmət.
Xərclərkən ölçüdən gəl götürmə əl,
Nə artıq, nə əskik, ortadır gözəl. (Ş.)
Bir şey qaydasından çıxarsa kənar,
Ondan üz döndərər əlbət ki, ruzgar. (İ.)
Yoldaşın ağıllı, ya axmaq olsa,
Ona qıfılsız şey tapşırma əsla. (X.)
Qayğısız bir könül sirr anlayarmı?
Həmahəng olmayan sazlar uyarmı? (X.)
Təmkinli oturmağı etdiyiçin dağ peşə,
Mö'təbərdir yerində varlığıyla həmişə. (S.)
Sirri yavaş deyən ağıllı insan
Örtülü danışır o asimandan. (X.)
İşə kömək etsə təmkinlik, gər,
Sonunda daima işlər düzələr. (L.)
Ən yaxşı dostuna sirr verən zaman
Zənn elə qarşında durmuşdur düşman.

Deyilməyən sözü demə əğyara,
Deyil tək əğyara, hətta dostu qara.
Sirrini bilməsin evdə divarlar,
Divar dalında da çünki qulaq var.
Gizləyə bilməsən sirri qohumdan,
Onu qəlbinə də buraxma bir an.
Örtülü adamdan sirrini saxla,
Onlardan məsləhət eşitmə əsla. (İ.)
Adam yaşadıqca arzu çoxalar. (Y.)
Ürəkdə arzun var, çatarsan əlbət,
Qoyma ki, qarışsın işə xəyanət. (Y.)
Biçəndə tələsmə, əkəndə tələs! (X.)
Yeməkdən yaxşıdır ümid eyləmək. (İ.)
Sür'ətlə yol getmək nəticə verməz,
Yorular sür'ətlə yol getsə hər kəs. (X.)

## SƏHHƏT VƏ TƏBABƏT HAQQINDA

Məcaz itirərsə yolunu əgər,
Səlamətlik ələ çox çətin düşər.
İştahla olduqca yemək-içməyin,
Dodağında gülüş olacaq şirin. (X.)
Az yeməkdən kimsə qızdırmaz, ancaq
Çox yeməkdən gündə yüzü ölür, bax.
Haramdır ələfi tarac eyləmək,
Bədəni dərmana möhtac eyləmək.
Çörək gülşəkərtək yeyilsə əgər,
Nə gərək vücuda daha gülşəkər. (X.)
Xurmanı az ye ki, tikan olmasın,
Gəlib yaxşı xörək yaman olmasın. (X.)
Lazım olanı ye, öz qədərində. (X.)
Bədən sağlam olsa, saf olar söz də,
Süst adam süst olar bədəndə, sözdə.
Həkim xəstələrə eyləyər əlac,
Xəstələnsə olar özgəyə möhtac. (X.)

Az yemək, çox yemək ziyan gətirər. (X.)
Çox yemək, az yemək yaxşı şey deyil,
Etidalı gözlə, hər qaydanı bil. (X.)
Demə azarlamaz bədəni sağlam,
Zənn etmə ki, ölər hər xəstə adam. (X.)
Can vermədən əvvəl hər kim ölərsə,
Can çəkişmə dərdi yoxdur o şəxsə. (X.)
Bir can dərmanına çatmaqçın, əlbət,
İçilir min kərə zəhərli şərbət. (Y.).
Çox yaşar murada gec yetən adam,
Murada yetincə ömr olur tamam. (Y.)
Elə də yuxusuz və ac qalma sən
Ki, bədən yorulub düşsün qüvvədən. (İ.)
Varkən sağlıq əldə, cavanlıq əldə,
Sənindir hər murad, hər xoş əməl də. (Y.)
Halva çox şirindir, şəkər kimidir,
Kəkliyi azmışa zəhər kimidir. (L.)
Bağban ürəyindən su içsə də nar,
Axırda xəstələr qisməti olar. (L.)
Çox yemə süfrəyə hər nə qoysalar
Ki, düşər canına yeməkdən azar. (İ.)
Nə qədər susasan, istiyə düşsən,
Tələsik soyuq su içmə əsla sən. (İ.)
İçmə heç bir zaman yoxlanmamış su,
Əvvəl başqasında yoxla bir onu.
Qəribə görünən meyvəni yemə
Ki, səni salmasın o, dərdə, qəmə.
Qanacaqlı adam yemək yeyərkən
Nəfsini saxlayar yad yeməklərdən. (İ.)
Heyvantək qarnına əsir olanlar
Heyvan sifətində qəbirdən qalxar. (İ.)
İnsan sağlam olar az-az yeməkdən,
Çox qalmaz dünyada əsla çox yeyən.
Çox yeyən yeməyi həzm edə bilməz,
Odur ki, çox iyrənc gəyirər tez-tez.
Aslantək sən də az yeməyə çalış,

Çünki qorxaq olar çox yeyən camış.
Dartıb sürüyərlər tənbəl eşşəyi,
Çünki ölçüsüzdür yeyib-içməyi. (İ.)
Bu yeməkxanada yaşdan, qurudan
Elə ye ki, daim sağlam qalasan.
Dövründə ölçüylə həm ye, həm payla,
Ancaq bir azca da yerində saxla.
Yedinmi, verdinmi, qoydunmu bir az,
Bil ki, səndən yaxşı yaşayan olmaz.
Yeməkdə əsasdır cana nuş olmaq,
Onun dadına yox, faydasına bax.
Sirkədən xoşlasan, süddən et həzər,
Sirkəylə süd içmək azar törədər. (İ.)
Torpaqtək dincliklə daim yoldaş ol,
Qoy fələk tələssin, sən ağırbaş ol. (İ.)
Əlac eyləsə də təbib nə qədər
Ömür qalmamışsa, nə fayda verər! (İ.)
Sönəcək olarsa bir çıraq əgər,
Ona öz yağı da zərər gətirər.
Çürümüş bir meyvə ağacda durmaz,
Düşər, əgər ağac tərpənsə bir az. (İ.)
Xərclərkən o qədər xəsis olma sən,
Xəstəlik alarsan yeməməzlikdən.
Bir gündə dağıtma bütün xəznəni,
Toxluqdan xəstəlik yaxalar səni. (Ş.)
Tox ilə ac kabab yesə bir yerdə,
Kök adam kababdan düşəcək dərdə. (Ş.)
Dövlət quşu hümasan, qayən səadət olsun,
Az yemək, az danışmaq, nəciblik adət olsun. (S.)
Dərdə əlac edən təbib heç zaman
Tapmamış və tapmaz ölümə dərman. (İ.)
Ölüm bir bəladır, çarə edilməz,
Onun çarəsini tapmayıb heç kəs.
Ölüm qızdırması hücum edərkən
Gizlənər əlacı onun həkimdən. (İ.)
Az yeməyə, pəhrizə alışmağın yaxşıdır! (S.)

Əgər çox yaşasaydı çox yeyənlər dünyada,
Çox yemişlər yaşardı, ölüm olmazdı onda. (S.)
Bir dərman istəsən dərdinə əgər,
Gizlətmə dərdini, təbibə göstər. (X.)
Bədənin əsası olmasa möhkəm,
Əldə düz işləməz yazarkən qələm.
Sağlam bir qarğaya ən adi dənlər
Bəsti inciritək dadlı – xoş gələr. (İ.)
Hər əməlin üstündən sanma keçəndi dövran,
Hər yaxşını yamanı yaxşı seçəndi dövran. (S.)
Süleymanın mülkünü sorma hər an hardadır?
Mülkü öz yerindədir, de, Süleyman hardadır? (S.)
Beli sındırmasa ikiqat fələk,
Arpa qədər etməz kimsəyə kömək. (X.)

## ZƏMANƏ VƏ ZƏMANƏDƏN ŞİKAYƏT

Bir yan qəm məclisi, şənlikdir bir yan,
Bura ağlayandır, ora oynayan.
Hanı bu dünyanın vəfadarlığı,
Bir yanda ağlaşma, bir yanda çalğı! (X.)
İndi yüz yoxsulun tökülsə qanı,
Qeydinə qalacaq bir adam hanı? (X.)
Dövrə bax ki, alçalıb zülmdən, şərdən bəşər,
Azğınlığın əlindən qaçır bəşərdən bəşər.
İnsanda nə ləyaqət, nə mərdlik qalıb indi,
İnsandan insanlığı namərdlik alıb indi. (S.)
Könüldə qəm varkən gülmək olarmı?
Qəmli ürəklərə sevinc dolarmı? (X.)
Bu insanı boğan tora inanma,
İçi çürük qozdur, ona inanma. (X.)
Kimin bu dünyada mənzili yoxdur,
Onun qəlbi qəmsiz, gözləri toxdur.
Bu çöldə yaşayan kim olsa acdır,
Bir parça çörəyə, suya möhtacdır. (X.)

Bu bir ölkədir ki, çox dönük sözlü,
Ağa qara deyir, kora da gözlü. (X.)
Bülbüllər olsa da bağın zinəti,
Əncirlər olmuşdur qarğa qisməti. (L.)
Bil ki, zəmanənin həyası yoxdur,
Ondan uzaq olan sələmət olur. (X.)
Əfi ilan kimi qıvrılır cahan,
Ona yaxınlaşmasan, çəkməzsən ziyan. (X.)
Qolu güclülərdən ölkəmizdə, bax,
Qarışqalar belə olmuş sinədağ. (Y.)
Bu bağda bir ağac bitməmiş rahat,
Baltadan qalmamış canı salamat. (Ş.)
Əbədi versəydi şahlığı zaman,
Xosrova keçməzdi o Keyxosrovdan. (X.)
Əgər bir kefi var, yüz dərdi vardır,
Bir gül dərən yüz-yüz tikan qopardır. (X.)
Dövrün kişiləri nakişidirlər. (İ.)
İşlər çox düyünlü, dərd-qəm bir yandan,
Nə dost var, nə də ki, halıma yanan. (İ.)
Keçib getdiyimiz vilayətə bax,
Vilayət deyil bu, zindandır ancaq. (X.)
Əbəsdir fələklə bəhsə girişmək,
Heç kəslə həmahəng olmayıb fələk. (İ.)
Hərə öz işinə qalmış xeyli mat,
Susmuş, çarə nədir, belədir həyat. (Y.)
Bağda əmək qoydu göyərçin, ey yar.
Meyvə yetişəndə yedi qarğalar. (L.)
Oğru oylağıdır bizim bu cahan,
Təklikdə köç etmək olmaz buradan.
Keşikdə bir adam olmasa sayıq,
Deyildir dünyanı güdməyə layiq. (İ.)
Dünyada düzlükdən yoxdur əlamət,
Əyrilik etməkdən qaçmalı, əlbət. (İ.)
Olsaydı yer ilə fələk uyuşan,
Silib-süpürməzdi onu anbaan. (İ.)
Dünyada görmədim elə bir himmət,

Öyrədən kəslərə göstərsin rəğbət. (Ş.)
Bu necə həyatdır, hər yanı qorxu,
Hər tərəf fəlakət, hər tərəf cadu. (Ş.)
Dünyanın çəkilməz bəlaları var,
Bu yolun qorxusu, cəfaları var. (Ş.)
Xoşbəxtlərtək əgər dövlət sevərsən,
Tamahı məhv elə, qurtar ondan sən. (X.)
Gör dünyada necə huşsuz insan var,
Bir quru çörəyə canı satırlar. (X.)
İstər bir sərxoş ol, istərsə huşyar,
Çalış uzaq olsun səndən fitnəkar. (X.)
Səni sevməyənlər çoxdur, ayıq ol!
Ətrafın paxıldır, yatma, sayıq ol!
Qəflətdə keçməsin bir anın sənin,
Zənn etmə qəflətdə yatıb düşmənin. (X.)
Lovğalıq, uşaqlıq söhbəti etmə,
Bu sərxoş yoludur, onunla getmə! (X.)
Bir yerdə ki, ola tədbir və hiylə,
İnsan deyil, divi ovlarlar belə. (X.)
Qəssabın yanında hərlənən köpək
Ciyərini yeyər ciyər görərək. (X.)
Sulu görünərək nə qədər şoran
Su axtaranları qırmış susuzdan. (X.)
Dovşantək, tülkütək aldanma yenə
Dovşan yuxusuna, tülkü məkrinə.
Bir çox şir ovlayan, canavar yıxan
Tülkü hiyləsinə olmuşdur qurban. (X.)
Tülkü şahlıq edir qurdlara, çünki
Balığı qurd görür, tələni tülkü. (X.)
Üzdə gördüyünü dalda deyənlər
Olurlar qapqara kölgədən bədtər. (X.)
Təbiətcə əgər süst olsa bir kəs,
Kimsənin canını o sağ istəməz. (X.)
Ya qara ol, ya ağ, nədir bu qılıq?
Xislətdə ilan ol, ya da ki, balıq. (X.)
Tülkü nə gördüsə yırtıq təbildən,

Onu görəcəksən hiylə işlətsən. (X.)
Zahid xirqəsini oğruya verdi,
Sən də xəsis olma, artırma dərdi. (X.)
Gör balıq yeyənə neylədi xərçəng,
Onları yada sal, hiylədən əl çək. (X.)
Çadırı yandıran nəqqaş kimi sən
Hiyləgərlik etmə, əl çək hiylədən. (X.)
Arvadın məkrinə göz yumdu xarrat,
Son gözünü yumma, belədir həyat. (X.)
Gözü torpaq kimi ac olan, gərək
Bilsin yeyər ancaq bir qarın çörək. (Y.)
Köpək eləsindən yaxşıdır, düzü
Ki, hey eşşək kimi otdadır gözü. (Y.)
Hiyləylə xalq malı yeyilməz, inan. (X.)
Tutar qarınqulu çox əziz hər an
Xingəl yarpağını gül yarpağından. (Y.)
Paxıllıq tozuyla elə gün olar,
Günahsız qönçələr saralıb solar. (Y.)
Paydan məğmun olar çox uman adam. (Y.)
Qələt addımlamaq deyil ictihad,
Yanlış oxuyana olmaz etimad. (Y.)
Etmə, dedim sənə, gəl pis fikirlər
Ki, sonra əlindən baş verməsin şər. (Y.)
Bəzən divxasiyyət insanlar da var,
Adəm övladını yoldan çıxardar.
Dünyada bir neçə əbləh var, düzü,
Gülər əbləhlərə, əbləhkən özü.
Yalana doğrudan pərdə tutarlar,
Bəzən də ki, bala zəhər qatarlar. (Y.)
Hiyləgər saqidən piyalə alma,
Başını qovğaya, bəlaya salma!
Darğası yol kəsən küçəyə getmə,
Ev tutma orada, kirayə etmə! (Y.)
Torpaqdan yaranan hər qanmaz, alçaq
İnsan surətində heyvandır ancaq. (Y.)
Xəyanətkar olar ellər bədnamı,

Pislərin pislikdir hər sərəncamı. (Y.)
Yüz min hiylə qursan, işlətsən kələk,
Payındır yenə də bir qarın yemək. (Y.)
Yıxılmaz az yeyən ucadan, haşa!
Çıxmaz tamahkar da ucaya, başa. (Y.)
Evin sahibini görən oğrular
Haray qopardaraq deyir: “Oğru var”. (L.)
Xəzinə tapşırsan hər gədaya sən,
Bir dünya xətalar çıxar əlindən. (L.)
Yaxşı iş deyil yalan danışmaq.
Qanmazın etdiyi əta, səxavət
Yırtıq təbil kimi səs verər, əlbət! (İ.)
Həsəd dərdə salar daim insanı,
Dostdan ayrı salar dostu, aşnanı. (İ.)
Bir müflis, xəzinə tapdığı zaman
Yıxılıb ölmüşdü o, şadlığından. (İ.)
Qarınqulu adam doyarsa əgər,
İgid də olarsa, qorxaqlıq edər. (İ.)
Adətin dəyişsə hər kimsə tez-tez,
Ona mal-dövlət də heç vəfa etməz. (İ.)
Xörəyi evində saxlamış olsa
Çox evə pis qoxu yayılar ondan.
Vaxtında evindən çıxarsan əgər,
Qapına müşktək ətir səpilər. (İ.)
Acgöz olma, sənin deyil bu saray,
Yalnız bir çörəkdir alacağın pay. (İ.)
Xəcalət gətirən bir peşə əlbət,
Peşə sahibinə çəkdirər zillət. (İ.)
Kimsənin dalınca söyləmə yaman,
Utanma üz-üzə gəldiyin zaman. (Ş.)
Çətinlik çox xəsis olmaqdan doğar. (Ş.)
Xəzinə yolunda yoxsul verər can. (Ş.)
Nə fayda, nakəsə desən afərin,
Afərini sanar böyük bir nifrin. (Ş.)
Xərclə, ye, bərk tutma köhnə dünyanı,
Xəsislik, ac qalmaq məhv edər canı. (Ş.)

Özünü bəyənsə insan nə qədər,
Öz gözündən dəyər ona bədnəzər.
Özünü bəyənən hər zaman sınar,
Ondan qurtarana uzun ömür olar. (X.)
Papaqsız eləyər güvənmək başı. (X.)
"Mənəm-mənəm" deyib çox qılınc taxan
Torpaqlar altında yatmışdır əlan. (X.)
Adam yüksələndə əhdini pozmaz. (X.)
Təkəbbürlə baxma – yoxsula, zinhar,
Onun da özünün bir cəlalı var. (X.)
Sən hümmətli olub başını dik tut,
Hər bir afərini, xələti unut! (X.)
Kəhrəba olsa da əqrəb quyruğu,
Yenə də əqrəbdir, zəhərlidir bu. (Ş.)
Kimsə təkbaşına dünyanı udmaz,
Yalqız bir insanın şahlığı tutmaz. (X.)
Başı böyüklükdən, söylə, nə çıxar? (X.)
Öyünmə, öyünmək günahdır, günah. (X.)
Özünə güvənmə gəl sən heç zaman,
Hər nə olmuş olsan, sən də insansan! (İ.)
Zəriflik eyləsə kobud bədənlər,
Sanki yapışqandır, bal olmaq istər! (İ.)
Ey könül, böyüklük almadan ələ,
Böyüklər yerində oturma hələ! (Ş.)
Atsa qabaq gülü uca qol-qanad,
Çinara tay ola bilərmi? Heyhat!
Qabaq suyu içib doyduğu zaman,
Kəndirlə aşağı enər ağacdan. (Ş.)
Əlindən əziyyət çəkincə insan,
Öldür, birdəfəlik köçsün dünyadan. (Y.)
Dikbaşlıq yaramaz, uyuşmaq gərək,
Dikbaş at həmişə qırmanc yeyəcək,
Dikbaşlıq edərsə ən gözəl bir at,
Misir eşşəyindən əskikdir qat-qat. (Ş.)
Hiylə qura bilməz qəlbinə insan,
Qapı güdmək olmaz ev oğrusundan. (X.)

Oğrunu bağında tutarsa bağban,
Əl atar kötüyə, döyər bu zaman. (Y.)
Bir də çəpər boyu gizli dolaşma,
Darvaza yerinə divardan aşma. (Y.)
Oğurluq bir malın olmaz dəyəri. (Ş.)
Oğurluq maldan səs çıxmazsa, pişiktək,
O malı qarovul aparmış demək. (Ş.)
Sən əl uzatmaqdan gəl çəkin bir az,
Əli uzun olan murada çatmaz. (Y.)
Gəl, yad süfrəsindən it kimi əl çək,
Özgə süfrəsinə baxma pişiktək. (L.)
İtə qurd silahı verilsə artıq,
Başını qaldırıb edər aslanlıq. (L.)
Təkəbbürlə gəzmə, bu işdən əl çək. (L.)

## DÖVLƏT VƏ EHTİYAC HAQQINDA

Bəs deyil, baş əydin pula, qızıla –
Saldın dörd düyünə, yeddi qıfıla?
Yel, qızıldan ötrü, yaxşı nəzər sal,
Gör necə eylədi laləni pamal.
Çayır ki, yoxsuldur, ona dəyməyir,
Onu məhv etməyir, əsla əyməyir. (Y.)
Kim qızıldan ötrü ölür boş yerə,
Demək, o sitayiş eləyir zərə. (Y.)
Bir xəzinə ki, ancaq cəfa naxşıdır,
Ondan üz çevirmək daha yaxşıdır. (Y.)
Mədə dolu olsa, geyim mükəmməl,
Dürr nəyə lazımdır, nəyə gərək ləl? (Y.)
Alışsa da, yansa da, uyma qızıl pula sən,
Torpaq sovur üstünə, dönmə aciz qula sən!
Hansı başdan oğrutək papaq qapan olmayıb,
Kim bu sarı iblislə yoldan sapan olmayıb? (S.)
Var-dövlətə qul olmaq bihudə bir həvəsdir,
Həyatının bəhrəsi bircə anlıq nəfəsdir. (S.)

Tamahı cilovlayan kamalıdır bəşərin,
Öz nəfsini öldürmək amalıdır bəşərin. (S.)
Əzəl gündən canını salıb oda xislətin,
Hərislikdən ömrünü verər bada xislətin. (S.)
Uyma vara, dövlətə, təkəbbürdən uzaq gəz,
Zülmət ömür yoluna günəş nuru çiləməz. (S.)
Comərd insan canında zər odunu söndürüb,
Şirin dillə düşmənin hər odunu söndürüb. (S.)
Arzu-istək tərəzin qızıl çəkən olmasın,
Müqəddəssən, qəlbində çalış, ləkən olmasın.
İstəyinin yolunda saf çeşmətək çağla sən,
Nizamitək könlünü ülviyyətə bağla sən! (S.)
Qızıl üstə qəlbini qanatmasan yaxşıdır,
Əzəl gündən qızıla can atmasan yaxşıdır. (S.)
Dövlətlə olmuşdur arzular hasil,
Quş da tora gələr dən olanda, bil. (X.)
Hər işi dövlətdi işıqlandıran,
Dövlətsiz olmaqdan uzaqlaş hər an. (X.)
Sərmayəsi olan qorxar, qəm çəkər,
Yoxsul yol kəsəndən eyləməz həzər. (X.)
Bəzən göz qızıldan kor olar həmən,
Qılınclar qızılla düşər kəsərdən. (X.)
Varlı çətinliklə pul versə, əgər,
İşinin sonunda fəlakət görər. (X.)
Qızıl, gümüş yığan bir xəsis adam
Öz fikrini çəkər hər səhər, axşam. (X.)
"Özün qal, ya malın", desələr sənə,
Özün qal, malı ver bir istəyənə. (X.)
Bir şey ki, öləndə düşmənə qalar,
Onu bəsləməyin nə mənası var? (X.)
Çoxları buğdanı saxlanc etdilər,
Qazanc görmədilər bir arpa qədər. (L.)
Əlində saxlama, quyutək varı,
Dəyirman daşıtək üyüd onları. (L.)
Nə qədər dən dərdi çəksə bir insan,
Onunçun o qədər dərd verər zaman. (L.)

Pul vermək ədavət odun söndürər,
Rəf olar könüldən köhnə kin, kədər. (İ.)
Qılıncın paslanıb kəsməsə əgər,
Qızıl ver, daşları dəmirə döndər.
Xəzinə qızılı yığmaq üçündür,
Qızıl da düşməni yıxmaq üçündür. (İ.)
Səninçin bir yükdür daim xəzinə,
Dincəlmək istərsən, ver özgəsinə.
Qızıl toplanacaq bir atəş deyil,
Uzaq ol, yanarsan yoxsa, onu bil.
Qızıl ya sahibi xoşdur, – sorma sən,
Düyün bənddən pisdir, bənd də düyündən. (İ.)
Sevinmə əlinə çox dövlət düşcək,
Çünki çirkinlikdir pulçun sevinmək.
Qızılı toplayıb yerə basdıran
Özü torpaq yeyər, əslinə baxsan. (İ.)
Qəlbini çalmasın bu mal, bu dövlət,
Azı bir zillətdir, çoxu fəlakət. (Ş.)
Dövləti saxlamaz yalnız bir nəfər,
Dünyanı özünə bağlamaz bir ər. (Ş.)
Dəyərsiz bir daş ki, olmayır yemək,
Onunçun bu qədər zəhmət nə gərək? (Ş.)
Qorxaq – əyridən, quldur – oğrudan
Varlılar qızılı gömər hər zaman. (Ş.)
Düşüncə, kədərdir çox sərvət, çox var,
Dövləti az olan olur bəxtiyar. (Ş.)
Ürəklə çalışmaz varı olanlar,
Əlindən var-yoxu getməkdən qorxar. (Ş.)
Bu dünya malına uyma çox, zinhar,
Hər sadə keçinən asudə yaşar. (Ş.)
Aclığı olmasa şahinin bir az,
Turacın üstünə uçub şığımaz.
Ac üçün kəpək də yağlı çörəkdir.
Tox üçün yağ-çörək sanki kəpəkdir.
İştah qızışanda baş alıb gedər,
Çovdar çörəyini mumtək əridər. (L.)

Qeybdən bir kəs məni səslədi: “Dinlə, ey sən!
Borca elə giriş ki, tez qaytara biləsən”. (S.)
Çalış borcunu ver getsən hər yana,
Ta ki oxşayasan yüksüz heyvana. (Y.)
Xəzinə qızıldan olduqca kənar,
Qapısı daima qıfılsız olar.
Onu qızıl ilə doldursa insan,
Xəzinə qapısı bağlanar hər an. (L.)

## ŞAH VƏ ŞAH SARAYI HAQQINDA

Şahlar intiqama başlarsa əgər,
Hirsi yatsın deyə, qızar, qan tökər.
Marala acığı tutarsa hərgah,
Qırar üzəngini at qovaraq şah.
İtə hirslənərsə əgər, hirsindən
Məhrum eylər iti öz dərisindən. (Y.)
Şahın odu güldür, gövhərlər saçan,
Qarşıda gül olur, qucaqda tikan.
Şah dediyin ki var, tənəkdir, tənək,
Kim uzaqsa ona ilişməcəyək. (Y.)
Şahlar məclisindən kənar ol, kənar!
Pambıq od görəndə alışıb yanar. (L.)
Aləmi alt-üst edib, talamısan elləri,
Xalqa xeyrin dəyibmi şah olan gündən bəri? (S.)
Əsil tacdarlıq, düşün, yaxşı bil:
Yüzlərcə tac yığıb saxlamaq deyil;
Hökmdar odur ki, hər başa müdam
Mərhəmət göstərib tac edə ənam. (İ.)
Şahın məclisində gərək hər zaman
Ola alimlərə əbədi məkan.
Şah yeyib-yatmağa meyl etməyərək,
Bilik toplamağa çalışsın gərək. (İ.)
İş vaxtı həmişə şah oyaq olar,
Çünki yatmışları məhv edər ruzigar. (İ.)

Şah xalqla edərsə dəva-ədavət
Xalq şaha qələbə çalar, nəhayət. (İ.)
Min ölü dirilsə şahın əlilə,
Düşmənin ürəyi düzəlməz hələ. (Ş.)
Padşahın ayağı sürüşsə artıq,
Çıxar məmləkətdə bir qarışıqlıq.
Yaman göz şah ilə başlarsa oyun,
Hiylələr, fitnələr olar qol-boyun. (Ş.)
Kimsənin şahlarla tutmaz dostluğu. (Ş.)
Şah yola çıxanda əsla dəlitək
Hər yana at çapmaz cövlan edərək. (İ.)
Şah elin hər işini nizama salsın gərək,
Həmişə öz xalqının qeydinə qalsın gərək. (S.)
Kini cuşa gəlsə, acıqlansa şah
Rəhm etməz, olarsa oğlu da hərgah.
Padşahın tinəti atəşdir, ancaq,
Yanğına yaxşıdır uzaqdan baxmaq.
Padşaha o zaman öyüd bar verər
Ki, yolu qürurdan, kindən təmizlər.
Padşaha nəsihət verən bir insan,
Toxumunu şor yerdə səpmiş o nadan. (Ş.)
Padşah sayılmaz öylə bir kimsə
Tanrının xalqına əziyyət versə. (Ş.)
Alçaqlıq becərən şahmı sayılır?
Alçaqlıq başqadır, şahlıq başqadır. (Ş.)
Bilirsən şahmatın iki şahı var,
Hər qəlbə yeni qəm gətirir onlar. (Ş.)

## NƏSİMİ
## (1369-1417)

Ey nuri-dilü didə,
Didarına müştaqəm.
Vey yari-pəsəndidə,
Didarına müştaqəm.

Ey mahi-pəri-peykər,
Vey huri-mələkmənzər,
Ey lə'li-ləbi şəkkər,
Didarına müştaqəm.

Ey şəmsü qəmər üzlü,
Şirin dodağın duzlu;
Vey şəhdü şəkər sözlü,
Didarına müştaqəm.

Ey dərdimə sən dərman,
Mən gövdəyəm, eşqin can!
Ey tazə güli-xəndan,
Didarına müştaqəm.

Ey dilbəri-pünhani,
Sənsiz nedərəm cani?
Vey Yusifi-Kən'ani,
Didarına müştaqəm.

Ey dilbərü dildarım,
Sənsən əbədi yarım!
Vey yari-vəfadarım,
Didarına müştaqəm.

Ey hüsnü bədayətsiz,
Vey lütfü nihayətsiz,
Vallah ki, bəğayətsiz,
Didarına müştaqəm.

Ey rəhməti-illahi,
Sənsən yeri göy mahi!
Vey qamu xubun şahi,
Didarına müştaqəm.

Ey çeşmeyi-heyvanım,
Sənsiz nedərəm canım?
Vey şahimü sultanım,
Didarına müştaqəm.

Ey cümlə cahan cani,
Aşiqlərin imani,
Vey simü göhər kani,
Didarına müştaqəm.

Ey sahibi-təxtü tac,
Canlar canına möhtac!
Ey görklü üzün me'rac,
Didarına müştaqəm.

Ey nuri-səmavati,
Vey məzhəri-ayati,
Vey canü cahan zati,
Didarına müştaqəm.

Ey eşqi-dürəfşanım,
Vey bülbüli-dəstanım,
Ey tazə gülüstanım,
Didarına müştaqəm,

Ey buyi-baharistan,
Vey huri-nigaristan,
Vey dilbəri-sərməstan,
Didarına müştaqəm.

Ey çeşmeyi-heyvanım,
Sənsiz olamaz canım!
Vey bəhri-göhər kanım,
Didarına müştaqəm.

Ey dilbəri-simintən,
Sən canü Nəsimi tən!
Ey sərvü güli-gülşən,
Didarına müştaqəm.

## NƏZƏR EYLƏ İSTƏRLƏR

Sərsəri, girmə meydana,
Aşiq, səndən yol istərlər.
Qəllaş ilə oturmadan,
İman əhli, pul istərlər.
Bu yola girən oturmaz,
Haqq sözə hiylə qatılmaz,
Bunda heç hiylə satılmaz,
Gövhərindən qul istərlər.
Bir qılı min parə edər,
Bu yolu ixtiyar edər,
Şahım bir yol qurmuş gedər,
Yol içində, yol istərlər.

## X Ə T A Y İ
## (1486-1524)

### EYLƏ

Aqil, gəl bəri, gəl bəri,
Gir könülə nəzər eylə.
Görür göz, eşidir qulaq,
Söylər dilə nəzər eylə.

Başdır – gövdəyi götürən,
Ayaq – mənzilə yetirən.
Dürlü məsləhət bitirən,
İki ələ nəzər eylə.

Sufi isən, alıb satma,
Həlalına haram qatma.
Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

İki əlin qızıl qanda
Çox günahlar vardır məndə.
Ya ilahi, kərəm səndə,
Düşkün qula nəzər eylə.

Xətayi eydür: ya ğanı,
Verən mövla alır canı,
Əvvəl kəndi kəndin tanı,
Sonra elə nəzər eylə.

### EYLƏ

Gövhərin keçməyən yerdə,
Satma, qardaş, kərəm eylə,
Ləl daşını, çay daşına,
Qatma, qardaş, kərəm eylə.

Gördün bir yerdə aşina,
Hər nə dersən özbaşına.
Yol daşını, yol quşuna,
Atma, qardaş, kərəm eylə.

Gördünsə bir yerdə rəqib,
Neylərsən yüzünə baxıb.
Müngiri qatara çəkib,
Getmə, qardaş, kərəm eylə.

Xətayim çağırır, ərə!
Dünya böylə əlmiş zirə,
Arif oxun əbəs yerə,
Tutma, qardaş, kərəm eylə.

## GƏRƏK

...Bir işi bitirmək gərək,
Əksikin yetirmək gərək.
Yar ilə oturmaq gərək,
Heç sitəmə qoymaz ola.

Bir sözü söyləmək gərək,
Bir acı doyurmaq gərək.
Bir dildən söyləmək gərək,
Firiştələr bilməz ola.

Quş oluban uçmaq gərək,
Obalara köçmək gərək.
Bir qədəhdən içmək gərək,
İçənlər ayılmaz ola.

Ğayət çabuq olmaq gərək,
Dəryalara dalmaq gərək.
Bir gövhər çıxarmaq gərək,
Dəkmə sərraf bilməz ola.

Gerçək aşiq olmaq gərək,
Məşuqunu bulmaq gərək.
Ölməzdən ön ölmək gərək,
Varub, onda ölməz ola.

Bağçalara girmək gərək,
Güllərindən dərmək gərək.
Bir gülü qoxlamaq gərək,
Hərgiz ol gül solmaz ola.

Gəl, Xətayi, sən keç otur,
Dəviyi məniyə yetir,
Söhbətinə bir ər gətir,
Cana, başa qalmaz ola.

## BİR SÖZ

Sözünü bir söyləyənin,
Sözünü edər sağ bir söz.
Pir nəfəsin dinləyənin,
Yüzünü edər ağ bir söz.

Bir söz vardır xalq içində,
Dəxi söz var xülq içində.
Olmaya ki, dəlq içində,
Deyəsən çarqadağ bir söz.

Söz vardır kəsdirir başı,
Söz vardır kəsər savaşı.
Söz vardır ağulu aşı,
Bal ilən edər yağ bir söz.

Sözünü yaxşı bişirkil,
Yaxşı us ilə düşürkil.
Yaramazını şaşirkil,
Canına olur dağ bir söz.

İstərəm görəyim yarı,
Bu rəmzi anlakil barı.
Həzaran əhli-iqrarı,
Edər qara torpaq bir söz.

Şah Xətayi ayatindən,
Sözün söylə öz zatindən.
Olmaya kim pir qatindən
Səni edə irağ bir söz.

## BAHARIN TƏRİFİ

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.
Yer geydi qəbayi-xizrpuşan,
Cümlə dilə gəldi ləbxəmuşan.
Sərvin yenə dutdu damənin su,
Su üstə oxudu faxtə gu-gu.
Qönçə dəhəni çəməndə xəndan,
Gülməkdən ənar açıldı dəndan.
Bülbül oxudu süfati-hicran,
Dəryadə dürr oldu əbri-neysan.
Durna uçuban həvayə düşdü,
Laçın aluban ovayə düşdü.
Alma ağacı dibində sayə,
Tən eyləridi bulud da ayə.
Yaşın yerə tökdü əbri-neysan,
Bülbüllər oxudu səd həzaran.
Mey bəslədi jalə hər vərəqdə,
Turac kitab oxur təbəqdə.
Qum-qum, der idi ağacda qumri,
Məst oldu bənövşə içdi xəmri.
Şax üstə qabaqlar aslı halı,
Qu gərdənidən verir misalı.

Quş beçələri ünü yuvadan,
Məktəb ünü tək gəlir həvadan.
Boyandı zəmin həzar rəngə
Övraqi-şəcər də təngə-təngə.
Neylufər açıldı suyə girdi,
Pirahənini başına burdi.
Çinar əlini çü rəqsə açdı,
Gül xırda zərin şəbaşə saçdı.
Çaylar bulandı, yıxdı arxın,
Bağlar ağacı göyərtdi şaxın.
Gilas ağacı dibində mahum,
Çün mah idi dərmiyani-əncüm.
Yüz dürlü qəba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər.
Şax üstə şükufeyi-şəcərlər,
Musa elindən verir xəbərlər.
Sirabi gülün yüzündə abi,
Nərgiz oturur gözündə xabi.
Hər qönçədə verdi-ərğəvani,
Qumru gözündən verir nişani.
Ta çalmaya urü yeli tapança,
Yüzünə niqabın örtdü qonça.
Yaşıl çəmən üstə jalə çin-çin,
Əxzər fələk üstə rəşk-Pərvin.
Sərv etdi çəməndə sərfərazi,
Gül cilvələnir başında nazi.
Çıxmış budağ üstə əndəlibi,
Mənbər də oxur çəmən xətibi.
Cular axadır çəməndə hər su,
Nərgizgüdanün gözündə uyqu.
Lalə oturur başında taci,
Heç sərvərə yoxdur ehtiyaci.
Sünbül daramış saçın bəşanə,
Ənbər qoxusun qılur fəşanə.
Cular axadır kənari-bağdan,
Su içməyə ahu gəldi dağdan.
Lalə gecələr yaxıb çirağı,

Aşiq ciyərinə çəkdi daği.
Naz ilə bəzəndi bağ sərvi,
Sancıb başına düyün-təzərvi.
Güllər vərəqinə doldu-şəbnəm,
Çün bərgeyi-hovzi-abi-zəmzəm.
Al ilə yaşıl geyindi bağlar,
Ağ ləçəyi sərpə saldı dağlar.
Susən qılınc aldı, bid-xəncər,
Eyş etməyənin gözünə sancər.
Pərvaz qılır həvadə turğu,
"Ya rafe" oxur, kimisi yahu.
Sayrar ağac üstə yüz sığırçın,
Ahəng dutar ona göyərçin.
Əsməkdə nəsimi-ənbər-əfşan,
Yaprağı qılur budağda lərzan.
Ötgün quşu geçdü, qıldı pərvaz,
Durnavü üqabü qurğura, qaz.
Murçinü çürəvü nərgə, sona,
Yaydı qanadın ki, gülə qona.
Kəklik gülər idi dağda qah-qah,
Bayquşlar oxurdu "li məəllah".
Sərv öz ayağına sayə salmış,
Zilli-saçını hümayə salmış.
Novruzgülünün açıq dəhanı,
Mürğ onda həzar oxur zəbanı.
Daylar tülədi buraxdı yalı,
Kişnər çalağan qulun misalı.
Quzladı qoyun, tegüldü döllər,
Yaylağ həvəsini qıldı ellər.
Düşmən qanıtək qızardı hər su,
Ötgün saruya yeridi ahu.
Bir-birini qovur geyiklər,
Bala dölümün qılır peyiklər.
Durmuş çəmən üzrə sərv ayağa,
Qılmağa tamaşa solu sağa.
Gül doxtərinin erus yetmiş,
Gülgün duvağın başına örtmüş.

Ahu quzu doydurub uyutdu,
Oğurlanıb özü, ota getdi.
Səhrayə buraxdı nafə ahu,
Xaki-siyəh oldu müşki-xoşbu.
Durna uçub ün çəkib havadə,
Gedər ünü qırx ağacü ziyadə.
Bağrı qaranın qarardı bağri,
Şahbaz ona varanda doğri.
Quşlar yuvadan uçubdu bala,
Ahu yenə süd verər ğəzala.
Çıxdı günəşə yer əjdəhası,
Buynuzunu saldı dağ buğası.
Hər bir çiçək üstə qondu zənbur,
Döşyürməyə çıxdı danəsin mur.
Hər şey günəşə qurutdu yaşın,
Qövsi-qüzeh açdı tər qumaşın.
Şəb cü-cü edər ağacda sərçə,
Uçanda, qonanda beylə pərçə.
Yarpağı ağaclar üstə lərzan,
Kimisi çu tir, kimisi peykan.
Şah tuti oxur şükür kəlamın,
Qənd ilə pür etdi bəndü damın.
Döndü vətəninə cümlə quşlar,
Gəldi yuvasına qurla quşlar.

## MƏHƏMMƏD FÜZULİ
## (1494–1556)

### MEYVƏLƏRİN SÖHBƏTİ

Qəvvasi-bəvahiri-rivayət,
Səyyahi-bəvadiyi-hekayət.
Dəryayi-rivayəti üzündə,
Səhrayi-hekayəti gəzəndə
Düzmüş bu nizam ilən göhərlər,
Vermiş bu əda ilən xəbərlər.
Kim, var idi bir xücəstə sima,
İdrakı təmam, təb'i ğərra.
Əşya' təkəllümündən arif,
Hər əlsinədən olurdu vaqif,
Bir gün ki, şəhi-sipehri-rabe'
Tiğini həməldə qıldı lame',
Təsxiri-həməl qılan zamanda,
Xuni-həməl axıdan zamanda,
Cari olub hər tərəf gəzəndə,
Hər səbzəgəhə güzər edəndə,
Bir tövr ilə dövr edib zəmanə,
Bir özgə fəza yetib cahanə,
Əbvabi-xəyal olundu, məftuh,
Əmvati-nəbatə yetdi çün ruh.
Çün nəşvü nəma bulub çəmənlər,
Çak etdi nəbat pirəhənlər,
Mey nəş'ə ilə əyağ çəkdi,
Lalə cigərinə dağ çəkdi.
Nərgis ki, göz açdı bağə girdi,
Bir baxmağılan özün itirdi.
Kəcgərdan olub bənəfşeyi-zar,
Bir nəş'eyi-meylə oldu xummar.
Qönçə yaxasını eylədi çak,
Bülbül baxıban olub fərəhnak;
Bağ içrə açıldı qırmızı gül,

Başladı əninü nalə bülbül.
Əlqissə, fəzalənib çəmənlər,
Xoş, tazə geyindi yasəmənlər.
Seyr etmək üçün o pakdamən,
Tutdu rəhi-bağü tərfi-gülşən,
Bir bağə güzər edən zəmanda,
Hər meyvəyə bir nəzər qılanda,
Gördü ki, fəvakehü səmərlər
Öz-özünə iftixar edənlər.
Aluçə edərdi şükri-səttar
Kim:
– Mən kimi xoş cahanda kim var?
Təblərzəyə mən şəfa verirəm,
Təlxiyyi-fəmə səfa verirəm.
Əklimdən olur baş ağrısı dur,
Demiş hükəma bu sözü cümhur.
Ol sözünü axirə yetirdi,
Xişmindən Alu özün itirdi.
Aluçayə söylədi ki:
– Ey zar!
Fəxr eyləmə, eyləməzmisən ar?
Kim turş, dəxi zəlilsən sən,
Əsmar ara əlilsən sən.
Əklində sənin qamaşı dişlər,
Xoş təb'lərə rütubət işlər.
İflicə vü küft cümlə azar,
Səni yeyənə olur səzavar.
Ol qadiri-bimisalü həmta,
Aluyə məni qılıb müsəmma,
Çün dürri-qələndəri bəguşəm,
Yüz min tərəfə saçıldı xuşəm.
Gəh səbzəvü, gah ərğüvani,
Gəh sürxü səfid, zə'fərani.
Onun səsini Gilas eşitdi,
Bu zərb ilə ona tənə etdi:
– Key nakəsü dun, utanmadınmı?

Azərm oduna yanmadınmı?
Kənduzuni bunca vəsf etdin,
Qurtar sözünü ki, həddən ötdün.
Hər kim səni yesə etməz əhlal,
Gündə gərək ona üç kərə bal.
Ol dəm ki, məni həq etdi zahir,
Verdi tənimə libasi-faxir,
Rəxtim kimi yoxdu hiç cövhər,
Cismim kimi yoxdu hiç cövhər.
Gəh Zöhrəvü, gah Müştəriyəm,
Gahi mələkü, gəhi pəriyəm.
Sərv ağacı təkdir hər butağım,
Xublar çəkəllər iştiyaqım.
Zərdalu eşitdi, nə'rə urdu
Kim:
– Gilası görgilən, qudurdu!
Dedi ki:
– Ey əhqəri-zəmanə!
Vey zağü kəlağə abu danə!
Nə fəxr ilə özünü ögərsən,
Bu eyb ilə sən nə fəxr edərsən?
Bir qətrə su, bir də üstüxansan,
Hər kim ki, yesə ona ziyansan.
Əgər səni qurutsa bağibanlar,
Axir günü çox çəkər ziyanlar.
Ol əsli-binayi-cümlə bünyad,
Zərdalü mənə qoyubdu həm ad.
Gəh səbz oluram zümürrüdasa,
Gahi bədənim olur mütəlla.
Gər məni qurutsa bağibanlar,
İstər məni cümlə karivanlar.
Hər qanda aparsalar əzizəm,
Hər təbxə buraxsalar təmizəm.
Ərik sözün Alma guş qıldı,
Acıqlanuban xüruş qıldı:
– Key qarnı vərəmli, sinəsi çak,
Vey caməsi tozlu, ləzzəti xak!

Xasiyyətini ki, sən bilirsən,
Kənduzinə rişxənd edirsən.
Hər kim səni yedi qarnı şişdi,
Dəryayi-bəla içinə düşdü.
Ənvai-bəlavü dərdü sövda,
Səni yeyənə olur mühəyya.
Ol qadirü həyyü fərdü fəttah,
Adımı mənim qoyubdu Tüffah.
Həm çöhrəmə verdi sürx rəngi,
Həm əynimə ətləsi-firəngi.
İki yarın arasında məhrəm
Yox mən kimi dəhrdə müqəddəm.
Həm peyki-nigari-nazəninəm,
Həm qasidi-yari məhcəbinəm.
Təbliği-risalətimdə söz yox,
Təfhimi-bəlağətimdə söz çox.
Xəlvətgəhi-yarə əhli-sirrəm,
Mə'şuqinə aşiqi yetirrəm.
Bir bəzmdə gər ola müyəssər,
Təcmii-fəvagehü səmərlər,
Mən həm gər o bəzmdə bulunsam,
Əsmar içində hazır olsam,
Cümlə məni intixab edəllər,
Həm qeyrdən ictinab edəllər,
Alma edər idi yüz təfaxür,
Əmrud özüni qıldı zahir.
Səsləndi ki:
– Ey fəsadi-dövran!
Vey müfsideyi-misali-şeytan!
Gər qabili-iftixar olubsan?
Alma adını neçün qoyubsan?
Gər yaxşı olardın al deyərdin,
Alma neçün adını qoyardın?
Ol həzrəti-layəzali-mə'bud,
Ad qoydu mənə lətifə Əmrud.
Verdi mənə yaxşı xasiyyətlər,
Həm əklimə çox-çox afiyətlər.

Hər xəstəyə mən şəfa verirəm,
Hər cərgəyə mən səfa verirəm.
Əmrud edərdi vəsf halın,
Bilməzdi öz işinin məalın,
Nagəh səsini eşitdi Əngur,
Qeyzə gəlib oldu məstü məsrur.
Əmrudə o dəm xitab qıldı:
– Key rəngi saralmış illətindən!
Başı yekə zə’fi-qüvvətindən!
Öz başına sən təbib oldun,
Bimarlara nəsib oldun.
Kənduzinə vardır ehtiyacın,
Eylərmisən özgələr ilacın?
Dəxi kəl əgər təbib olurdı,
Əvvəl başına dəva qılırdı.
Əvvəl varıb özünə dəva ver,
Ondan sora xəstəyə şəfa ver.
Ol caili-zülmətin ilənnur,
Ad qoydu məni-hərifə Əngur.
Verdi mənə dürlü xasiyyətlər,
Lütf etdi mənə çox afiyətlər.
Mən səbzəvü kişmişu məvizəm.
Əsmar içində çox ləzizəm.
Məndəndi şərabi-ərğüvani,
Məndəndi sürurü şadimani.
Mən saqiyi-məclisi-vəfayəm,
Ziynətdehi-məhfili-səfayəm.
Turşi ilə həmnişin mənəm, mən!
Həlva ilə həmqərin mənəm, mən!
Heyva eşidib bu göftüguyi,
Qeyzə gəlibsən saraldı ruyi,
Əngurə dedi:
– Yum dəhanın!
Danışma ki, lal ola zəbanın!
Şüğlün qəmü mehnətü ələmdir,
Mədhin özünə tamam zəmdir,
Bir kəslə ki, ittihad qılsan,

Bir cam mey ilə şad qılsan,
Ol şadlığı tamam olur qəm,
Qəm üstünə qəm gəlir dəmadəm,
Əvvəl ki, edər xilafi-əhkam,
Dəxi həm olur cahanda bədnam,
Həm əqli-mürəccəhi olur fəsl,
Həm cəhli-mürəkkəbi olur vəsl,
Gər mün’im ola gedər tilası,
Vər müflis ola gedər həyası.
Ol cümleyi-müşkili edən həll,
Adımı mənim qoyub Səfərcəl.
Var ləzzətü rəngü dad məndə,
Hər namü ləqəb, xoş ad məndə.
Ətrimlə dolubdu bağü bağça,
Həm mənzilim oldu tağü tağça.
Məni aparırlar hər diyarə,
Həm töhfə verirlər hər nigarə.
Kənduzini vəsf edərdi heyva,
Narinc eşidibən oldu peyda,
Heyvayə xitab qıldı:
– Key zar!
Danışma ki, səndə yox məgər ar?
Rəngin saralıbdı büğzü kindən,
Yoxdur xəbərin məgər özündən?!
Min tə’nə edər sənə xəlayiq,
Onlar ki dedin, sənə nə layiq?
Qarnın dolu kirmü büğzü kinə,
Kirmə bədənin olub xəzinə.
Mədhin özünü məzəmmət eylər,
Vəsfin sənə cümlə lə’nət eylər.
Ol leylü nəhar edən, günü şəb
Narınca qılıb məni müləqqəb.
Lütf etdi mənə qəbayi-faxir,
Ol don ilə eylərəm təfaxür.
Yüz şükr edərəm mən ol xudayə,
Yüz fəxr tənimdəki qəbayə.
Bir don mənə lütf eyləyibdir

Kim, qeyriyə dəxi verməyibdir.
Şəklimi dəxi edibdi püstan,
Püstanı sevəllə cümlə mərdan.
Yüz fəxr ilə söylər idi narınc,
Nagah səsini eşitdi Turunc,
Göftarə gəlib dedi ki:
– Ey dun!
Fəxr etmə qəbayə kim, nədir don?
Gər eşşəyə məhmil etsələr cül,
O cüli münəqqəş ola gül-gül,
Eşşəkdə zəval həm kəm olmaz,
Minbə'd o eşşək adəm olmaz.
Ol qaziyi-həşrü nəşrü miad,
Turunc mənə qoyubdular ad.
Mən əfşürəyi-təami-şahəm,
Yemişlər içində padişahəm.
Sərdəftəri-meyvəcati-bağəm,
Əsmar içində çün çirağəm,
Hər nə ki, desəm ziyadəyəm mən
Kim, daima səbzü tazəyəm mən.
Bu sözləri Nar edib təfəhhüm,
Ağzın açıb eylədi təbəssüm
Kim, rənginə fəxr edirdi Narınc,
Həm özünü vəsf edərdi Turunc;
Dedi ki:
– Nədir bu göftgulər,
Bifaidə batil arizulər!
Əgər rəng ilə olsa işvəvü naz,
Rəng içrə şükufəm oldu mümtaz.
Vər kimsə edərsə sui-təhsin,
Var məndə zülali-turşü şirin.
Kənduzimi mədh etməzəm mən,
Öz halimi şərh etməzəm mən
Kim, meyvəyi-rövzeyi-cinanəm,
Namü ləqəb ilə mən Rümanəm.
Dünya səməri mənə nə nisbət
Kim, mə'xəzim ola baği-cənnət.

Narincü Turunc çakərimdir,
Heyva ilə Sib nokərimdir.
Hər danəm olubdu lə'li-qəltan,
Hər cövhər ona olubdu heyran.
Nar öz sifətini vəsf etdi,
Bağ içrə səsi Rütəb eşitdi,
Xişm ilə o dəm ayağə durdu,
Qəhr ilə Ənarə nə'rə urdu:
– Key bağİ-behiştdən uran dəm,
Səndən degiləm o vəsfdə kəm.
Mən qabili-əkli-ənbiyayəm,
İftari-cəmii-ətqiyayəm.
Məşhur əcəmdəvü ərəbdə,
Mə'ruf həm əsldə nəsəbdə.
Mə'kul tamami-xasü amən,
Səyyahi-biladi-Misrü Şaməm.
Əzbəs ki, mənəm həbibi-əhbab,
Bu vəch ilə mənə xoşdur əlqab.
Xəstaviyü zahidi, müfəttəl,
Həm əş'əmiyü dəxi müfərcəl.
Xoş büq'ələr içrə hazirəm mən,
Məşhədlərə çün mücavirəm mən.
Sürtəllə məni məzari-yarə,
Töhfə aparırlar hər diyarə.
Vəsfini Rütəb çün etdi itmam,
Yüz xişmlə nə'rə urdu Badam,
Xurmaya dedi ki:
– Ey cahangərd!
Zəmmində sənin bəsindi bu fərd:
Gəh Bağdadisən, gəh İsfəhani,
Hərcayiliyin tutub cahani.
Vəsf eyləməgində həddən ötdün,
Danışma ki, sən məni əritdin.
Çox dürlücə xasiyyət mənim var,
Şərh etməyə özüm eylərəm ar.
Kim, abi-nəbatü nüqlü həlva
Olur məni-zardən mühəyya.

Püstə ki, eşitdi ağzın açdı,
Badamə bu növ ilən sataşdı:
– Key bağlı dəhani xissətindən,
Puşidə üzü ləamətindən!
Bir zərrə sənin səxavətin yox,
Bihəddü ədəd xəsasətin çox.
Min daş yetişməyincə canə,
Qənnadiyə verməsən ki, danə.
Xəllaqi-cahan zülmətü nur
Püstə mənim adımı qoyubdur.
Qönçə kimi ağzım açmışam mən,
Hər talibə danə saçmışam mən.
Bir yandan eşitdi Xoxü Fıstıq.
Həm Süncüdü Şahpaludü Fındıq.
İnnab ilə Tut, Alubalu,
İncirü Zoğalü Cövz, Limu,
Hər biri bir afəti-zəmanə,
Hər biri sölərdi bir fəsanə;
Şaftalu deyərdi:
– Padişahəm.
Fıstıq ki:
– Əncüm içrə mahəm.
Həm Cövz deyərdi:
– Xosrovəm mən.
Fındıq deyərdi:
– Sərvərəm mən.
Limu ki:
– Mənəm bu bağə mahmud.
– Şahəm ki, deyərdi Şahpalud.
Həm Cövz deyərdi:
– Pəhlivanəm.
Əncir ki:
– Şöhreyi-cahanəm.
İnnab deyərdi:
– Mən bəcihəm.
Zoğal ki:
– Mən sənə...

Həm vəsf edib özün Gilənar,
Tut oldu ki, bağə tuti-göftar,
Qıldı nəzər ol xüçəstə sima,
Gördü ki, olub bu bağda qovğa.
Gəlmişdi ki, eyləyə səyahət,
Ləzzət aparıb qıla fərağət.
Gördü ki, bağ içrə yoxdu ləzzət,
Fəsx eylədi, əzmin etdi ric'ət.
Düşdü yola həm gözətdi xanə,
Nagəh yolu düşdü bustanə.
Bir növ' ilə gördü bustani,
Az qaldı ki, tərk edə cahani.
Eylərdi Xiyar şükri-xaliq
Kim:
– Qıldı məni cahanda haziq,
Əklimdə olur məriz dilsərd,
Vəsfimdə mənim bəsimdi bu fərd:
Mən dafei-dərdi-möhriqatəm,
Mərhəmnəhi-sədri-mütbiqatəm.
Gərmək ki, eşitdi bu məqali,
San kim, mütəğəyyir oldu hali,
Üz tutdu Xiyarə:
– Key cəfakar!
Bu vəsf sənə degil səzavar.
Yoxdu ləzzətin həmin bir adın,
Camuş ətinə dönübdü dadın,
Ol mədhlərin sənə nə layiq?
Ol vəsflərə mənəm müvafiq.
Mən xəstələrə şəfa verirəm,
Həm qəlblərə səfa verirəm.
Var əmzicə ilə e'tidalim,
Hər təb'ilə mötədildi halim.
Gərmək sölər idi yüz fəsanə,
Bu yandan eşitdi Hindivanə.
Bir nə'rə çəkib xüruş qıldı,
Dərya kimi daşdı, cuş qıldı.

Dedi ki:
– Məgər bu xasiyyətlər
Mən möhtərəmə degil müyəssər?
Mən sinələrə səfa verirəm,
Mən didələrə cila verirəm;
Səfravü hərarətə dəvayəm,
Baş ağrısına əcəb şəfayəm.
Xoş təm, ləziz, rəngim əhmər,
Suyum dəxi çün zülali-Kövsər.
Bimarlarə dəva mənəm, mən.
Həm xəstələrə şəfa mənəm, mən.
Övsafın edərdi Hindivanə,
Qavun eşidib çəkib zəbanə,
Vermişdi çü Qarpıza vəzarət,
Həm gərməyə mənsəbi-vəkalət,
Etmişdi Xiyari çün mülazim,
Şəmmaməni həm özünə xadim.
Bostançıya əmr qıldı Qavun,
Verdirdi cəzasını bularun.
Soydurdu dərisini Xiyarın,
Aldırdı əlindən ixtiyarın.
Həm Gərməyə urdu neçə yarə,
Cismini elətdi parə-parə.
Qarpızı o dəmdə şaqqalatdı,
Şəmmaməni bir kənarə atdı.
Dedi ki:
– Mənəm sizin pənahız,
Bu bustan içrə padişahız!
Şəh məclisinə müsəddərəm mən,
Əsmər içində sərvərəm mən.
Hər kim yesə məni, qılsa rehlət,
Yetər ona rütbeyi-şəhadət.
Ətrim dəxi ətri-mişkə bənzər,
Nə mişk ki, bəlkə ətri-ənbər.
Vermişsə mənə zülal-Kövsər
Saqisi o Kövsərindir Heydər.
Əlqissə ki, bustanda Qavun

Vəsf etdi özünü həddən əfzun.
Qeyz ilə o dəm ayağə durdı,
Öz başını xişm ilə ayırdı.
Bunu görüb ol xücəstə sima,
Bustanə həm etməyib tamaşa,
Bildi ki, bu dövrdə vəfa yox,
Dünyanı sevən çəkər cəfa çox.
Pəs etdi yəqin ol cəfakeş,
Olmaz bu cahanda kimsə dilxoş.
Bildi ki, olub bu deyr fani,
Tərk eylədi ləzzəti-cahani.
Dünya işinin mədarı yoxdur,
Heç kimsəyə e'tibarı yoxdur,
Eylər birisini sahibi-tac,
Ol birisin eylər ona möhtac.
Leylayə verib izari-külgun,
Qeys onu görəndə ola məcnun.
Həm Yusifə verdi Hüsni-ziyba,
Oldu ona mübtəla Züleyxa.
Əzrayə veribdi Hüsni-bihəd,
Qılmış ona Vamiqi müqəyyəd.
Bu köhnə evin vəfası yoxdur.
Əndühü qəmü cəfası çoxdur.

## QURBANİ
## (XV-XVI)

### DAR OLMAZ

Qəm yemə, qəm yemə, divanə könlüm,
Həmişə ruzigar belə dar olmaz!
On bir il çəkmişəm zimistan qəhrin,
O nə güldü, çevrəsində xar olmaz?!

Siyah zülfü daraq ilə dara gör!
Öz könlünü öz dərdinə dara gör!
Gözəllərin neçəsini dara gör!
Özgə bağda belə heyva, nar olmaz!

Əgər şahdan bizə qəzəb olmasa,
Qəzəb atəşindən əzab olmasa,
Ortalıqda çuğul, gəzzab olmasa,
Dünya bahar olar, boran, qar olmaz!

Hər bir adam öz yerində oturmaz,
Ağlın zaya verməz, fəhmin itirməz,
İgidlər könlünə şikvə gətirməz,
Necə dağdı quzeyində qar olmaz?!

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə, artar azarı,
Sağ olsun dünyada vəfalı yarı,
Bir mən ölməkilən dünya tar olmaz.

### AYRI

Səhər bülbülləri hə fəğan eylər,
Düşərsə güzarı çəməndən ayrı.
Səhər-səhər qönçəsindən ayrılan,
Şəqayiqlər gülməz səməndən ayrı.

Yanında dayanan yoldaşların var,
Sirrini saxlayan sirdaşların var,
Sənin elin, günün, qardaşların var,
Mənim kimsənəm yox, yar, səndən ayrı.

Dedim, Pəri, nə elərsən məhpara,
Mənim həsrət gözüm heç uymaz xara,
Bir qətrə yaş tökdün, bir də dübara,
Əqiqdən, yaqutdan, yəməndən ayrı.

Qurbani der: məgər axırzamandı?
Sevgi sevgisindən ayrı zamandı,
Bağrım dəlik-dəlik, sinəm peykandı,
Mənim üzüm gülməz vətəndən ayrı.

## DOLANA-DOLANA

Alçaq yerdən duman qalxar,
Dağı dolana-dolana.
Göy üzünü alar bulud,
Mahı* dolana-dolana.

Kimi ağa, kimi nökər,
Nökər olan cəfa çəkər,
Bülbül ağlar, qan-yaş tökər,
Bağı dolana-dolana.

Qurbani murada yetdi,
Canan gəldi, burdan ötdü,
Nobat gəldi, mana yetdi,
Saqi dolana-dolana.

---

* Mah – ay

## EYLƏMƏK OLMAZ

Nazlı dərviş, naz eyləmə,
Belə naz eyləmək olmaz.
Pünhan sözüm vardı sana,
El içində demək olmaz.

Dərdim söylə bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzüvə gülənlərə,
E'tibar eyləmək olmaz.

Dərviş ol dərvişlər ilə,
Haqqa layiq işlər ilə,
Heç sınanmamışlar ilə,
Düz rəftar eyləmək olmaz.

Qurbani der: gətir məzə,
Köhnə dərdim oldu təzə,
Dərd biləni dərd bilməzə
Giriftar eyləmək olmaz.

## ABBAS TUFARQANLI
## (XVI-XVII)

### SINDIRAR

Bəd övladı əzəl başdan tanıram,
Çör-çöp yığar, yad ocağın yandırar.
Səhər durar ar-namusun gözləməz,
Suyu tökər, öz ocağın söndürər.

Ulğun cuşa gəlsə, köpük yağ olmaz,
Söyüd bar gətirsə, bağça, bağ olmaz,
Zibil təpə olsa, güllük dağ olmaz,
Yel əsəndə alçaqlara endirər.

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən,
Söz bir olsa, dağ oynadar yerindən,
El bir olsa, zərbi kərən sındırar.

### BAR OLMAZ

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki, kar görsən öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Amanat, amanat qonşu malını,
Qonşu yox istəyən, özü var olmaz.

Soruşun, qul Abbas, halın necədir?
Gündüzlərim, ay qaranlıq gecədir,
Sərv ağacı hər ağacdan ucadır,
Əsli qıtdır, budağında bar olmaz.

## BƏYƏNMƏZ

Ay həzarat, bir zamana gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Adam var ki, getməyəsən işinə,
Adam var ki, dolanasan başına,
Adam var ki, ayran tapmır aşına,
Dindirərsən, yağlı nanı bəyənməz.

Adam var, dağları gəzər sərsəri,
Adam var, geyinər pustinən* dəri,
Adam var, mərfətdən yoxdur xəbəri,
Adam var, soltanı, xanı bəyənməz.

Adam var, dolanar səhranı, düzü,
Adam var, döşürər gülü-nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz.

Adam var, çox işlər eylər irada,
Adam var ki, yetə bilməz murada,
Adam var ki, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.

Adam var ki, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı,
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən, heç insanı bəyənməz.

Adam var, dəstinə verərsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz.

---

* Pustin – kürk

# XƏSTƏ QASIM
## (XVIII)

### YAXŞIDI

Dəli könül, məndən sənə əmanət,
Demə bu dünyada qalım yaxşıdı.
Bir gün olar, qohum, qardaş yad olar,
Demə ulusum var, elim yaxşıdı.

Bir məclisə varsan özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə,
Qüvvətli olsan da yoxsulu döymə,
Demə ki, zorluyam, qolum yaxşıdı.

Qoçaqdan olubsan, qoçaq olgunan,
Qadadan, baladan qaçaq olgunan,
Aşıq ol, comərd ol, alçaq* olgunan,
Demə varım çoxdur, pulum yaxşıdı.

Xəstə Qasım, kimə qılsın dadını?
Canı çıxsın, özü çəksin odunu,
Yaxşı igid yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdı.

### EYLƏR-EYLƏR

Bir elə kişinin tut ətəyindən,
Bil sənə imdadı ol eylər-eylər.
Zərrəcə üstündə olsa nəzəri,
Yerdən daş götürsən, lə'l eylər-eylər.

Böhtan demə, böhtan tutar adamı,
Qul eylər, bazarda satar adamı
Cəhənnəm odundan betər adamı
Yoxsulluq yandırar, kül eylər-eylər.

---
* Sadə təbiətli

Aqil insan deməz hər gördüyünü,
Daldalar düşməndən vay dərdiyini,
Görməzsən nakəsin pay verdiyini,
Versə də, töhmətin bol eylər-eylər.

Xəstə Qasım deyər sözün bu başdan,
Pay umma qohumdan, yaddan, qardaşdan,
Özün əmək çəksən, su çıxar daşdan,
Əridər dağları yol eylər-eylər.

## OLMAZ

Dəli könül, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi-peymanı,
Hərcayıda namus, qeyrət, ar olmaz.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,
Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz,
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma,
Seyraqıb adama sən yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım günü keçmiş qocadı,
Gələn bəzirgandı, gedən xocadı,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

## KƏKLİKLƏR

Mən gedirəm sizi kimə tapşırım,
Dam üstündə duran sona kəkliklər.
Al-yaşıl geyinib, tirmə bağlarsız,
Nə girmisiz dondan-dona, kəkliklər.

Fərə kəklik daş başında səs eylər,
Qaqqıldaşıb bir-biriylə bəhs eylər.
Heç bilmirəm, toymu eylər, yas eylər,
Əllər batıb qızıl qana, kəkliklər.

Kəkliyin ovlağı qayalar başı,
Qaqqıldaşıb tapar yoldaş yoldaşı
Bərəsi bərk olsa, ovçusu naşı,
Uçub gedər ol asimana kəkliklər.

Gözəl kəklik dam üstündə durubdu,
Gərdən çəkib, necə boynun burubdu.
Heç bilmirəm ovçusunmu görübdü,
Üz tutdular biyabana kəkliklər.

Hər ikiniz yaşıl başlı sonasız,
Mənim gizli dərdim pünhan qanasız,
Ayrılırıq, sağlığınan qalasız,
Qasım gedir Dağıstana, kəkliklər.

## DEYƏRLƏR

Ay ağalar, gəlin sizə söyləyim,
Yalqız daşdan olmaz, divar deyərlər.
Bəzirgansan, aç mətahın, xırd eylə,
Ararlar: yükündə nə var? – deyərlər.

Ovçu olan bəslər alıcı quşu,
Sərraflar tanıyar qiymətli daşı,
Bir oğul atadan artırsa işi,
El içində ona tavar deyərlər.

Qızılgülü dəstə-dəstə dərginən,
Dəribən də yaylıq üstə sərginən.
Hər nə versən öz əlinlə verginən,
Yüz qadanı başdan sovar deyərlər.

Neynirəm bir bağı, barı olmasa,
Alması, heyvası, narı olmasa.
Bir igidin dövlət-varı olmasa,
Yeləksiz ox kimi çovar deyərlər.

İskəndər atlandı, çıxdı zülmətdən,
Qasım, Xızr içdi abı-həyatdan.
Bəhsə düşsə igiddən, qılıncdan, atdan,
Süfrəni hamsınnan kübar deyərlər.

## MOLLA PƏNAH VAQİF
**(1717-1797)**

### QIZLAR

Bir bölük yaşılbaş sonalar kimi,
Yığılıb gəlibdir Qazağa qızlar.
Ayna qabağında qara qaş ucun
Endirib gətirmiş qulağa qızlar.

Hər birində mina gərdən, nazik bel,
Sizə qurban tamam ölkə, tamam el,
Gülab ilən sığallanmış qara tel
Xub yaraşmış bəyaz buxağa, qızlar.

Qəmzə kaman, müjgan xədəng, göz ala,
Yüz qan olur, əyri baxsan hilala,
Sözləri qənd, ağızları piyala,
Şəkər əzmiş dilə, dodağa qızlar.

Ey ağalar, necə sitəm etdilər,
Vaqifin canını çox incitdilər,
Yenə durub qatarlaşıb getdilər,
Sözlərin qoydular qırağa qızlar.

### DURNALAR

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz bizə, durnalar!

Sizə müştaq durur Bağdad elləri,
Gözləyə-gözləyə qalıb yolları,
Asta qanad çalın, qafil telləri,
Heyifdir, salarsız düzə, durnalar!

Xeyli vaxtdır yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü, görün, gözə, durnalar!

Mən sevmişəm ala gözün sürməsin,
Bədnəzər kəsibən, ziyan verməsin,
Saqın gəzin, laçın gözü görməsin
Qorxuram səfnizi poza, durnalar!

Nazənin-nazənin edərsiz avaz,
Ruhlar təzələnir, olur sərəfraz,
Vaqifin də könlü çox edər pərvaz,
Hərdən sizin ilə gəzə, durnalar!

## YOXDUR

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm dəxi qoymazlar kəndə.
Xalq batıbdır noğla, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahibcamalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

## QASIM BƏY ZAKİR
**(1784–1857)**

### BAHAR OLDU

Keçdi növbəti-zimistan,
Yenə fəsli-bahar oldu.
Əndəlibi-binəvanın
Sənəti ahü zar oldu.

Yasəmənü gülü lalə
Bir çəməndə qurub halə;
Ərğüvan tutub piyalə,
Nərgiz içib xumar oldu.

Əmr olundu, abi-niysan
Cansızlara bəxş etdi can,
Yenə təzələndi dövran,
Nə gözəl ruzigar oldu!

Səbzpuş olub çəmənlər,
Qaldırdı hər şükufə sər.
Oyan, ey bəxti-bixəbər,
Yatan hamı bidar oldu.

Əlac oldu hər bimarə,
Tapıldı dərdinə çarə.
Elə, həsrət qalan yarə
Zakiri-dilfigir oldu.

### AY MƏDƏD

Dost yolunda cəfa çəkdim, can üzdüm;
Yetişmədim bir məkana, ay mədəd.
Sərasər əndamım mum tək əridi,
Eşq atəşi düşüb canə, ay mədəd.

Muradımız şükufəsi bitmədi,
Bəlalı sərimdən sövda getmədi,
Yetər oldu ömür başə, yetmədi
Əlim zülfi-pərişanə, ay mədəd.

Qalmışam göz yolda, könül intizar,
Qəm tutub yaxamı hər yana dartar,
Mən bilmənəm necə bağlanıb yollar,
Bir gələn yox bu viranə, ay mədəd.

Ayrı düşmək vətənindən yamandı,
Diyari-qürbətdə öldüm, amandı.
İtirmişəm yarı xeyli zamandı,
Axtarıram yanə-yanə, ay mədəd!

Bir kimsənin yoxdu məndən xəbəri
O qaşları yayı sevəndən bəri,
Şikəstə Zakirəm, ahım əsəri
Od salıbdı asimanə, ay mədəd.

## ARZULAR

Can üzüldü, gələ gör ki, sevdiyim,
Gülgəz yanağını könlüm arzular.
Bəyaz püstanını, mərmər sinəni,
Nəsrin buxağını könlüm arzular.

Gah küsüb özümü sana satdığım,
Gah barışıb ixtilatı qatdığım,
Öpüb, qucub, o qolboyun yatdığım
Xəlvət otağını könlüm arzular.

Əmib-əmib ləblərindən doyduğum,
Mürgüləyib kənarında uyduğum,
Tutub, sıxıb qucağıma qoyduğum
Şümşad ayağını könlüm arzular.

Ayrılıqda keçən karı dediyin,
Yarı gizlətdiyin, yarı dediyin,
“Ahəstə sor, sən tanrı”, – dediyin
Şəkkər dodağını könlüm arzular.

Yox idi Zakirdən haşa etməgin,
Nə bir yaşınmağın, nə üz tutmağın,
Kəsilibdi indi gəlib-getməgin,
Əzəlki çağını könlüm arzular.

## ÇƏKƏR

Adətdir xublara başdan, binadan,
Bir müddət aşiqə hələ yağ çəkər.
Eylə ki, yandırdı dürüst ayağın,
Görərsən ki, yavaş-yavaş dağ çəkər.

Beş gün, üç gün duzlar tərəsin əvvəl,
Aralıqda olur filcümlə get-gəl,
Sonra deyər çoxdur yanımda əngəl,
Biçarə eşikdə iştiyaq çəkər.

Aldadıban alar əlindən varın,
Elə ki, keyfincə, saf gördü karın,
Xəlvətdə öyrədər motalçıların,
Kimi qapaz salar, kim çomaq çəkər.

Əzəldən deyər ki, bəri dur, bəri,
İrəli gedərsən o durar geri.
Səni görcək özün soxar içəri,
Tünd olub, qapını bidamağ çəkər.

Lə’nət olsun bədəsilə, gövdənə,
İstəmə, əgər ki, can verə sənə;
Şikəstə Zakirəm, gərəkməz mənə,
Bu xiffəti hansı qurumsaq çəkər?

## OLURMU?

Dedim dilbərə: ey zalım
Bu qədər də qan olurmu?
Dedi: pərvanə yanmaqdan
Şəmə bir nöqsan olurmu?

Eşq əhlinə ol şəkərləb
Hər görəndə eylər qəzəb.
Öldürəndən sonra, ya rəb,
Görən, peşiman olurmu?

Dil bağladım bir dilbərə,
Yıxdı evimi göz görə;
Əqli olan, gözəllərə
Valehü heyran olurmu?

Sevdiyim, Allahı sevər,
Ahımdan eyləmə həzər;
Ta əsməsə badi-səhər
Qönçələr xəndan olurmu?

Təbibə götürüb pərdə,
Dedim: – Bir od var cigərdə.
Dedi: – Zakir, elə dərdə
Təbibdən dərman olurmu?

## SƏDAQƏTLİ DOSTLAR HAQQINDA

Bir tısbağa, bir kəsəyən, bir qarğa
Yoldaş olmuş idi bundan sabiqa.
Pakizə məkanda tutuban vətən,
Asibi-dəhrdən asudə, eymən.
Övqat keçirirdi yazü, yayü, qış,
Eyşü nuşə məşğul idi bitəşviş.
Bir ahu şol yerə eyləyib güzar,

Üç ikən həmdəmü həmrah oldu çar.
Səhərdən dağılıb hərə bir yana,
Günorta zamanı gəlib məkana,
Başından keçəni eylərdi söhbət;
Bu hal ilə dolandılar bir müddət.
İttifaqən, bir gün gəlməyib ahu,
Aldı yoldaşların canını qayğu.
Qarğaya dedilər – "dur, aç pərü bal,
Gətir biçarədən bizə bir əhval.
Şayəd ki, fəqiri, xudanəkərdə,
Damə salmış ola səyyad bir yerdə".
Biməksü təvəqqəf ovcə qalxıb zağ,
Dolanıb hər tərəf edərkən soraq,
Gördü ki, heyvanı səyyadi-birəhm,
Üqubəti-həqdən eyləməyib vəhm,
Tutub, əl-ayağın bağlayıb möhkəm,
Atıb günə qarşı, özü gedib həm.
Dami-təzvirini qurubdu genə,
Şayəd özgə şikar sala çənginə,
Ahuyi-pabəndə verib təsəlli,
Qanadı on isə, eyləyib əlli.
Gəlib həmrəhlərə gətirdi xəbər,
Bir parə naləvü şiyvən etdilər.
Təkəllümə gəlib dedi kəsəyən:
"Onun əncamını yaxşı billəm mən.
Məni qanadının üstünə götür,
O yer ki, ahunu görübsən, yetir.
Be-hövli-qüvveyi-xaliqi-zülmən,
Bir ləhzədə bəndin parə qıllam mən".
Bu tədbiri həmə eyləyib pəsənd,
Oldular, filcümlə, dilşadü xərsənd.
Kəsəyəni qarğa alıb dalına,
Olan gücün verib pərü balına,
Bir zaman yetirdi ahuya muşi,
Qalmamışdı səbrü qərarü huşi.
Zərbi-dəndən ilə kəsib kəməndin,
Bir əndək qalmışdı dəf edə bəndin,

Gördülər tısbağa üftanü xiyzan,
Özünü yetirdi şol yerə nalan.
Zəbani-təərrüz etdilər diraz,
Söylədilər: "Bu nə işdi, anlamaz?
Nə fikr ilə gəldin buraya, görək,
Səndən bizə olacaqdı nə kömək?
Məgər ki, gələndə səyyadi-pürfən
Biz qaçaq, qalasan aralıqda sən
O da bizə ola əlahəddə dağ,
Gərəkdi dübarə çalaq əl-ayağ".
Dedi: "Ey yarani-ba-istiqamət,
Ayini-dostluqda deyil mürüvvət –
Aşinanın biri gəzə asudə,
Şol birisi qala daməi-qayğuda.
Girəm ki, məsrəfim yoxdur bir karə,
Necə dura billəm sizdən kənarə?
Tanrı o yoldaşa eyləsin qəzəb!
Kim, dari-dünyada ola xüdtələb!
Üç həmrəhi-sadiq tək olsun azad,
Mənimki səhldir, hərçi bada-bad!"
Gövtgunu bunlar etməmiş təmam
Gördülər ki, gəlir mərdi-bədəncam.
Həmrəhi-çarümdən əl çəkib naçar,
Ahu, siçan, qarğa etdilər fərar.
Səyyad gəlib ol məqamə yetişdi
Kim, ahunu pabənd edib getmişdi.
Baxıb hər tərəfə etdi nəzarə,
Görmədi, be-ğeyr əz rismani-parə.
Bir də bir tısbağa zarü sərgərdən,
Yaşınmaq qəsdilə dolanır hər yan.
Bəs ki, çox yüyürüb eniş-yoxuşa,
Ov tapmayıb əli çıxmışdı boşa.
Tısbağanı labüd torbaya saldı,
Ağzını bağlayıb dalına aldı.
Yornuq köpək kimi ovçu ahəstə
Yol başladı, ixtiyarı küsəstə.
Qarğa dövr eyləyib ovçi-həvadə,
Baxardı əməli-ibni-ziyadə.

Gətirdi həmrəhi-fərarə xəbər,
Hali binəvadən olub müstəhzər,
Muşi-sahibi-huş tapıb bir tədbir,
Dedi: "Durmaq vəqti deyil, ey nəxcir!
Sən eylə məkr ilə payını axsaq,
Səyyadın önündə dolan bir səyaq,
Fikr eyləsin asan tutacaq səni,
Xəyali-xam ilə atıb kisəni,
O olsun şikarın tutmağa məşğul,
Mən ollam torbanı yırtmağa məşğul
Ol zaman ki, qarğa eylədi səda,
Bil ki, tısbağanı etmişəm rəha.
Səbr eylə bir qədər ta ki, biz qaçaq,
Sən də sıçrayıb gəl yenə qarışaq".
Bu məkr ilə oldu dü məhbus azad,
Qayıdıb gəldilər məsrurü dilşad.
Bu məsəlin vardır ona nisbəti:
Bir kəsin bir kəsə ola ülfəti,
Gərək zar olanda, o da zar ola,
Həmişə dostundan xəbərdar ola.
Nəinki dost qala dami-bəladə,
O gözə arxayın dəştü səhradə.
Həm dəxi həqarət gözilə, zinhar,
Baxıb bir adəmə eyləmə inkar.
Hər meşəyə güman aparma boşdur,
Xudbinlik kişiyə nə kari-xoşdur.
Yazıbdır Sədiyi-şirinkəlam,
Əmləhüş-şüəra, arifi-əyyam
"Hər bişə guman məbər ki, xalist,
Şayəd ki, pələng xüfte başəd".

## TÜLKÜ VƏ QURD

Bir rubəhi-kühənsalə gedirdi,
Qismət üçün seyri-aləm edirdi.
Obadan kənara gördü, ittifaq,
Atıblar səhrayə bir dünbeyi-çaq.

Diqqət ilə baxıb, tələni seçdi,
Yavuğa düşməyib, uzaqdan keçdi.
Gəzər ikən oldu bir qurda düçar,
Dedi: "Filan yerdə yaxşı tö'mə var".
Biçarəni çəkə-çəkə gətirdi,
Bir azca qalmışdı quyruğu gördi.
Dedi: "Təəccübəm, sən belə şeyə
Düçar oldun, özün yemədin niyə?"
Dedi: "Boynumda var qəza orucum,
Tutmuşam ki, saqit ola borcum.
Soxuldu quyruğu yerdən götürə,
Neçə gündü naharsızdı, ötürə,
Çırtlayıb, payinə tələ oldu bənd,
O yana, bu yana tullandı hərçənd,
Nə qədər güc vurdu, götürmədi əl,
Kəsilib əlacı, qaldı məəttəl.
Tülkünün əlinə düşdü girəvə,
Quyruğu yeyirdi çox sevə-sevə.
Dedi: "Sən deyirdin orucam, bayaq,
Nədəndir yeyirsən indi bu sayaq?"
Dedi: "Oruc idim, amma bu axşam
Təzə ayı görüb, etmişəm bayram".
Hiyləsinə o pürfənin inandı,
– Bəs mənim bayramım, – dedi, – haçandı?
Sənin də bayramın sahibi-tələ
Gələndədir, – dedi, – tələsmə hələ.
Hər kimsədə ola əqlü fəhmü huş,
Bu məsəli eyləməsin fəramuş:
Əvvəl gərək suyu yoxlasın möhkəm,
Boylayandan sonra soyunsun adəm.
Nəinki etməyib fikir, əndişə,
Sala canavar tək özünü işə.
Həm özünün payın, həm onun payın
"Tülkü yeyə bidərd-sər, arxayın.

## ABBASQULU AĞA BAKIXANOV
**(1794–1847)**

### ƏMƏLİN CƏZASI

(*"Mişkatül-ənvar" əsərindən hind əfsanəsi*)

Hindistanda bir şah vardı ədalətli, bəxtiyar,
Dünyaları fəth edərdi bu qüdrətli hökmdar.
Sonsuz idi qəzəbi tək onun lütfü, şəfqəti,
Hər tərəfə yayılmışdı adı, şanı, şöhrəti.
O şah əgər etiqadca atəşpərəst olsa da,
Xudpərəstlik badəsilə məst deyildi dünyada...
Xudpərəstlik – dinsizlikdir, bu bir aydın həqiqət,
Cəmiyyətə ondan yetir yüz bəla, yüz fəlakət.
Çox yazıqdır öz nəfsinə əsir olan dünyada,
Axır onun gedəcəkdir ömrü, həyatı bada.
Çatmaq üçün arzusuna nəfsə uyan hər insan,
Öz işini salar daha çətinliyə anbaan.
O yazığın işi daim olar həsəd, sitəm, kin,
Bu dünyada halı budur nəfs ardınca düşənin.
Layiq deyil belə alçaq sifət, məncə heç kəsə,
Xüsusilə ünvanına şah deyilən bir şəxsə.
Şahın hökmü olmalıdır xalq rəyinə müvafiq,
Elə bir iş tutmalı ki, xalqa olsun o layiq.
Hər zalim şah ölkəsində zülmə edərsə adət,
Heç bir zaman xalq içində hökm sürməz ədalət.
Şah bir etsə zülmü, onun xadimləri yüz edər,
Ölkənin hər iqtidarı, rövnəqi əldən gedər.
Bu halları görən zaman söyləmişlər atalar:
Ölkədə şah zalim olsa, xadimləri can alar.
Viran edər öz yurdunu zülm eyləyən padşah
Həqiqəti yox eyləyər, dini, imanı təbah.
Şah kafər də olub, əgər iş görsə ədalətlə,
Ölkəsini abad edər yad olunar rəhmətlə...
Xülasə, o padşahın var idi bir vəziri,
Ki, ölkəni düzəldərdi onun hər bir tədbiri.

Hər kəs əgər döndərsəydi xaqandan üz arabir,
İşi islah etmək üçün çalışardı o vəzir.
Qəzəblənib əgər xaqan versəydi yersiz fərman,
Onu yanlış fərmanından döndərərdi hər zaman.
Vəzirdən çox razı idi xaqan da, rəiyyət də,
Onun fikri əsas idi hər işdə, hər söhbətdə.
Onda xalqın xeyri üçün böyük bir hümmət vardı,
Şaha sadiq idisə də, xalqa da havadardı.
Bir gün şahda hiss edildi bir zəiflik əsəri,
Fələk onun boğazına tökdü ölüm zəhəri.
Bu durumsuz dünyada bir boşluq oldu qisməti,
Bu qanundur: gərək hamı içə ölüm şərbəti.
Səltənətə varis onun təkcə bir oğlu vardı
Onun da nə qanacağı, nə də ki, ağlı vardı.
Çıxıb şahlıq taxtına o fərəhləndi oldu şən,
Lakin sonra səltənəti get-gedə bərbad oldu.
Vaxt getdikcə hər tərəfdən düşmənlər qaldırdı baş,
Dostlar isə xidmətindən çəkildi yavaş-yavaş.
Biri ona zülm öyrətdi, biri hiylə, biri fən,
Ölkə içrə nizamsızlıq çoxaldı günü-gündən.
Biri xoşa gəlmək üçün yaltaqlandı gülərək,
Biri qurub kef məclisi işlətdi minbir kələk.
Biri dedi: – Sənin kimi ləyaqətli sərdara,
Sənin kimi hökmdara, şücaətli sərdara,
Layiq deyil ömr eyləyə min bir qovğa içində,
Gərəkdir şah daim ola kefdə, sevda içində.
Filankəsin bir qızı var, – dedilər, – mələk xislət,
Günəş çəkər camalının qarşısında xəcalət.
Bir yol ilə bu saraya düşməlidir o dilbər,
Sənə layiq yaranmışdır ancaq o nadir gövhər.
Bir başqası deyirdi ki, şərab nəş'ədir cana,
İçib məst ol, kef içində sarıl bir şux canana.
Biri dedi, bir cavan var söndürür canda odu
Gözəl, şaqraq nəğməsilə heyran edər Davudu.
Məlahətli səsi verər ruha misilsiz ləzzət,
Bir hökmdar cəlalından çox üstündür bu nemət.
Püstə ağzı, saz səsilə oxuyanda nəğmələr,

Bu nəğmənin hər cəh-cəhi bütün dünyaya dəyər.
Xülasə, şah elə daldı sonsuz eyşə, işrətə,
Ki, unutdu şahlığını, laqeyd oldu dövlətə.
Hökmdarlıq qüdrətini verdi yelə, tufana,
İşə düşdü saqi, şərab, saray oldu meyxana.
Əvvəllər o məhrumdusa düşüncədən, ağıldan,
İndi daha dəlidən də dəli oldu o nadan.
Şahin kefi məmləkətə bir çəkilməz matəmdir.
Birisinin kefi çünki minlərinə dərd, qəmdir.
O ağıllı vəzir isə olmayıb bir ay rahət,
Bu sayğısız padşaha hey verirdi nəsihət.
Nə etməli, cahillərə nəsihət etməz əsər,
Qəlbirdə su qalmaz onu doldursan da nə qədər.
Şah, işini qanmırdısa, vəzir yaxşı qanırdı,
Şahın axmaq işlərinin oduna o, yanırdı.
Çalışırdı ifşa etsin hər hiyləni, qərəzi,
Təbib kimi o sağaltmaq istərdi hər mərəzi.
Xəbərsizdi lakin ona qurulan kələklərdən,
Bilməzdi ki, onu necə məhvə çalışır düşmən.

## VƏZİRİ MƏHV ETMƏK ÜÇÜN FİTNƏKARLARIN TƏDBİRİ

Bir gün bədxah, paxıl, nacins və hiyləgər adamlar,
Vəziri məhv etmək üçün birləşərək nə ki var.
Bir çox hiylə düşündülər, yürütdülər min yalan,
Qaldırmaqçın maneəni tezlik ilə aradan,
Hər birisi bir yol tapdı, bir söz dedi hər biri,
Axtardılar nə yol ilə məhv etsinlər vəziri.
Axır biri dilə gəlib, dedi: "Tapdım yolunu,
Ançaq belə üsul ilə məhv edərik biz onu, –
Lazımdır ki, kahinləri əvvəl ələ gətirək,
Ki, bizimlə əlbir olub etsinlər işə kömək.
Çünki xalqın kahinlərə sonsuz ehtiramı var,
Dində dövlət işlərində onlardadır ixtiyar.
Əgər kahin tədbir töküb nə desə yaxşı, yaman,

Hamı onun sözlərinə inanacaq, durmadan.
Sarsaq şah da kahinlərə inanacaq şübhəsiz,
Vəziri dəf ədib sonra hökmran olarıq biz”.
Bu fikri çox bəyəndilər, oldular yaxşı sirdaş,
Kahinlərə dil tökdülər, verdilər qızıl, daş-qaş.
Kahinləri ələ alıb bir cəbhədə durdular,
Bu işə bir çarə üçün incə kələk qurdular...
Savadsızın hiyləsi də verməz böyük xəsarət,
Kahin əgər hiylə etsə baş verər min fəlakət.
Bu hikməti yaxşı öyrən, bunda dərin məna var,
Bu barədə bir çox sözlər söyləmişdir atalar.
Demişlər ki, dərs öyrənmək pis adamdan dünyada,
Elə bil ki, kəsərli bir qılınc verdin cəllada.
Bir gün şahın hüzurunda ə’yanlar səf çəkərkən,
Sərkərdələr təkəbbürlə, sırayla əyləşərkən,
Şah məclisin baş yerində əyləşərkən taxtına,
Yaltaqlar dil tökən zaman cavan şahın baxtına,
Tə’zim ədib irəliyə qədəm atdı bir qoca,
O pirani alimsifət şeytan əvvəl bolluca –
Şahı tərif eyləyərək dedi: “Ömrün çox olsun,
Baxtın, taxtın əzizlənsin, düşmənlərin yox olsun.
Dünən gecə mən yuxuda gördüm mərhum atanı,
Gördüm bir nur bürümüşdür nəhayətsiz dünyanı,
Mərhum cənnət bağlarında gəzir düzü-düzünə,
Çoxlu nemət qapıları açılmışdır üzünə.
Təbəssümlə dedi mənə: “Sabah qalxıb tezcə get,
Bu tənhalıq dərdimi tez şah oğluma bəyan et!
Söylə ki, bu cənnət içrə olsa da hər bir şey cəm,
Çatmır ancaq yaxın sirdaş, həmsöhbət, yaxın həmdəm.
O dünyada vəzirimlə ürəyim çox şad idi,
Vəzirimlə mənim könlüm qəmlərdən azad idi.
Dost olmasa oxşayır bax zindanlara bu cənnət,
Əgər oğlum istəyirsə mən daha olum rahət
Qoy yandırıb vəzirimi tez yanıma göndərsin,
Bu cənnəti daha da şən bir aləmə döndərsin”.
Onu təsdiq elədilər hiyləgər koramallar,
Söylədilər hələ daha uyğun gələn misallar.

Nadan şahsa inanaraq bu sarsaq sözə həmən,
Dedi: “Gərək tez yetirim yerinə bu əmri mən”.
Vəzir işi belə görüb itirmədi özünü,
Səbr edərək gizli qoydu qəlbindəki sözünü.
Bildi ki, çox hiyləgərdir düşmənləri nə ki var,
Ancaq idrak, səbir onu bu bəladan qurtarar.
Təzim edib vəzir dedi: “Əzəmətli xaqanım,
Mən də belə yuxu gördüm, artdı zövqüm, həyəcanım,
Düşündüm ki, desəm atan edir yanına də’vət,
Qorxdum ki, şah deyər vəzir istəmir edə xidmət.
Bundan qorxub mən susdum, ah, bunu duyan hökmdar,
Başqa dostun dili ilə etdi hökmün aşikar.
Öz əmrini icra etdi bu kahinin dilindən,
Bu yol ilə xilas etdi məni əzab əlindən.
Məni ağır həyəcandan qurtardı böyük xaqan,
Belə fəxri bir də’vətdən şah xəbər tutan zaman,
Gərək bir an yubanmadan icraya versin qərar,
Mənsə belə bir də’vətçün eyləyirəm iftixar.
Lakin uzun illər boyu qul olmuşam sizə mən,
Şahım mənim yanmağıma indi qərar verirkən,
Gərək məni yandırmasın həqarətlə, nifrətlə,
Yola salsın gərək məni nəvazişlə, hörmətlə.
Vida edib ayrılarkən sizin kimi “dostlardan”,
Gərək məni təntənəylə yola salsın hökmran.
Şah səbir etsin gərək məni yandırmağa neçə gün,
Ta ki, meydan hazırlansın mərasimə büsbütün.
Yanmaq üçün gətirilsin palıd, şümşad, naridan,
Onun üstə qoy səpilsin müşk, ənbər, zəfəran.
Böyük meydan mərkəzində yandırılsın bədənim,
Ta qalmasın bu dünyada kiçik bir arzum mənim.
Belə hörmət və cəlalla yanmaq ah nə gözəldir!
Belə yanmaq özü böyük bir arzu, bir əməldir”.
Oradakı ə’yanlar da etdilər onu təhsin,
Gurultuyla söylədilər vəzirə çox afərin.
Sonra xaqan təyin etdi yandırılmaq gününü,
Dedi, o gün elan olsun bir mərasim düyünü.

## VƏZİRİN TƏDBİR İLƏ TƏHLÜKƏDƏN XİLAS OLMASI

Vəzir evə dönən kimi, bir guşədə tək qaldı,
Bu bəladan çıxış yolu axtarıb fikrə daldı.
Lağım atan çağırtdırdı yanına haman gecə,
Ona bütün macəranı nəql eylədi gizlicə.
Gələcəyə vədə verdi, şirnikdirdi daş-qaşla,
Dedi bir an vaxt itirmək olmaz, işə tez başla!
Bir lağım at həmən yerdən ortasına meydanın,
Boş yerə heç keçməməli bu iş üçün bir anın.
Usta hümmət kəmərini bağlayaraq, hünərlə,
Lağım atdı o durmadan, sür'ətlə, min zəfərlə.
Çox çəkmədi istənilən hazır oldu tərtəmiz,
Bir nəfər də bu tədbirdən tutmadı heç xəbər, iz.
Vəzir özü odun yığdı e'tibarlı adamla,
O meydanın ortasında qalatdırdı nizamla.
Məharətlə o örtdürdü gizli yolu, bacanı,
Xəbər verdi şaha artıq çatdı yanmaq zamanı.
Bu xəbərlə guruldadı bir anda böyük şəhər,
Dildən-dilə gəzib getdi bu macəra, bu xəbər.
Kişi, qadın, uşaq, böyük toplaşdılar durmadan,
Baxmaq üçün çoxlarına qalmadı heç bir imkan.
Küçələrdə qalmadı yer izdihamın əlindən,
Tərpənməyə imkan yoxdu, xas, avamın əlindən.
Bu dəm saray gözləyirdi həyəcanla vəziri,
Ta görsünlər vəzir necə yanacaq diri-diri.
Səf çəkərək durmuşdular əyanlar, sərkərdələr,
Sür'ət ilə gəldi vəzir qəlbi şad, üzü gülər.
Böyük inam və fərəhlə şaha təzim edərək,
Ətrafını istehzalı baxışlarla süzərək,
Dedi: "Şahım, qoy dövlətin artsın sənin dəmə-dəm,
Bəxtin sənə qoy ram olsun, qul olsun sənə aləm.
Məni şahın qulluğuna aparırkən bu səfər,
Soruşsa o əgər sənin əhvalından bir xəbər,
Nə söyləyim?" Şah dedi ki, məni əzir de hicran,
Qoy ona bir məktub yazım qoy oxusun şadiman.
Sonra o bir məktub yazdı baxa-baxa camaət,

Hər şeydən az xəbər verib tamam etdi. Nəhayət –
Təqdim edib dedi: “Apar, atamı sən salamla!”
Qucaqlaşıb yola saldı vəziri ehtiramla.
Vəzir girib odunların arasında oturdu.
Bədxah olan fitnəkarlar tez oduna od vurdu.
Atəşpərəst dini necə deyirdisə – etdilər,
Vəzir “yanıb kül olan tək” dönüb evə getdilər.
Lakin vəzir, asimana qalxarkən alov, duman,
Gizli kola girib dərhal evə getdi durmadan.
Günlər, aylar keçdi vəzir gizli qaldı nəzərdən,
O, ölkədən xəbərdardı, şah xəbərsiz xəbərdən.
O, ölkənin halını çox izləyirdi xəlvəti,
Bir gün üçün müntəzirdi gözləyirdi fürsəti,
Gözləyirdi maraq ilə işin sonunu vəzir,
İstəyirdi bilsin nə bar verəcəkdir bu tədbir.
Müxtəsər ki, o həriflər bu kələkdən xoşdular,
Rahat nəfəs alıb daha əl-qol açıb coşdular.
Nə istədi hər kəs etdi, nə bir hesab nə kitab,
Ölkə xərab oldu, xalq da çəkdi böyük iztirab.
Hər tərəfdə zülm o qədər artdı xalqa anbaan,
Çox çəkmədi ki, ölkəni etdilər xalqa zindan.
Dövlət işi elə bərbad hala düşdü, nəhayət,
Hətta nadan şah da qandı ki, necədir vəziyyət.
Lakin o nə əlac etsin bu sağalmaz dərdinə,
Bu dolaşıq işi necə nizama salsın yenə?
İndi bildi ki, vəzirsiz etmir əmri bir təsir,
Atılan ox geri dönmür, getmiş əldən o vəzir.
Çox təəssüf elədisə, oldusa çox peşiman,
Peşmançılıq fayda verməz, qalmışdı işə heyran.

## VƏZİRİN GERİ QAYIDIB PİS FİKİRLİ DÜŞMƏNLƏRİ CƏZASINA ÇATDIRMASI

Vəzir gördü ölkə daha günbəgün gedir əldən,
Səltənətin bünövrəsi sarsılır hey təməldən.
Xalq içində çox hörmətli qoca bir kahin vardı,
Hamı onu din adamı, müqəddəs tanıyırdı.

Vəzir ona göndərərək gecə gizli bir xəbər,
Çağırtdırıb qızıl verdi, etdi böyük vədələr.
Dedi: “Sabah şah yanına o tələsik gedərək,
Ə’yanların yanındaca şaha təzim edərək,
Desin: – Dünən gecə gördüm yuxuda mərhum şahı,
Xeyli qəmgin, dərdli, məhzun göylərə çıxmış ahı,
Dedi: – Nə səhv eylədim mən düşünüb tək özümü,
Öz əlimlə başsız qoydum əziz iki gözümü.
O vəzir ki, tədbiriylə yüksəlirdi məmləkət,
O vəzir ki, hünəriylə qurulurdu səltənət,
Belə mahir bir vəziri mən ayırdım oğlumdan,
Zəiflətdim dövlətimi ölkəni etdim viran.
İndi daha son qoymaqçın hər şərə, xəyanətə,
Vəzirimi göndərirəm oğluma himayətə.
Get xəbər ver ta çıxsınlar pişvazına bu axşam,
Təntənəylə qarşılayıb eyləsinlər ehtiram.
Söylə haman yerdən vəzir yenə elan olacaq,
Gətirdiyi fərman ilə hər şey bəyan olacaq”.
Şah eşitcək çox şad oldu, səs yayıldı hər yana,
Ə’yanlarla axşam çağı üz qoydu şah meydana.
Gördü vəzir yanan külün içindən qalxdı, nagah,
Haman paltar, qiyafətdə: heyran qaldı xalq və şah.
Qollarını açıb vəzir cəld atıldı meydana,
Təzim edib nəvazişlə gülümsədi xaqana.
Yüz əfsanə uydurdu o atasından vüqarla,
Əlavə bir fərman verdi öpərək iftixarla.
Şah da öpüb o fərmanı əvvəl sürtdü üzünə,
Məzmununu çox müvafiq gördü o gün özünə.
Oxudu ki, vəzirə çox hörmət etsin həmişə,
O, vəzirin sözlərilə əməl etsin hər işə.
Yazmışdı ki, necə olsun, ölkə, saray, məmləkət,
Sonra neçə qəzəbli söz yazmış idi. Nəhayət –
Demişdi ki, köməyinə göndərirəm vəziri,
Çətin işdə əsas olsun sənə onun tədbiri.
İndi gərək tək qalmayım deyə, bir neçə nəfər,
Saraydakı şənlik sevən, ə’yanları bərabər,
Göndərərsən ta burada mən də qurum ziyafət,

Qoy bir az da onlar burda mənimlə olsun xoşbəxt,
Ta bu qəmli ürəyimi onlar ilə edim şad.
Daha aydın olsun deyə, yazıram, bax adbaad.
Şah tələsik yığıb bütün əyanları həvəslə,
Atasının fərmanını oxudu uca səslə.
Sonra da şah əməl edib aldığı bu fərmana,
Göstərilən adamları toplatdırdı meydana.
Onlar necə hıcqıraraq, etdilərsə nalələr,
Bu nalələr şah qəlbinə eyləmədi bir əsər.
Üzürləri boşa çıxdı, hiylələr dəydi daşa,
Şahın möhkəm əmri ilə yandılar başdan-başa.
O fitnəni törədənlər özləri qurban getdi,
Törətdiyi hiylə, fəsad özlərini məhv etdi.
Bəli, belə olmuş dünya – aşına nə tökərsən,
Öz tökdüyün çıxacaqdır qaşığına bil hökmən.
Belə demiş bu məsəli babalar duya-duya,
Başqasına quyu qazan özü düşər quyuya
O şeyi ki, sən özünə rəva görmürsən aman,
Başqasına onu rəva görməyəsən heç zaman.
Çalış daim başqasına yaxşılıq et dünyada,
Ta ki, səni yaxşılıqla salsınlar daim yada

## ÜMİDİN BOŞA ÇIXMASI

İş bilən, ağıllı, qoca bir dehqan,
Bir gecə söylədi belə bir dastan:
Ki, Həsən adında bir kəndli vardı,
Bağbanlıq edərək rahət yaşardı.
Dünyanın qəmindən ürəyi azad,
Əkindən başqa şey eyləməzdi yad.
O, məhsul alardı cüzi, bir qədər,
Xərcinə çatardı güclə, birtəhər.
Xeyirxah bir qərib Həsəni gördü,
Ona çox qəribə bir toxum verdi.
Həsən əkdi onu çəkdi çox zəhmət,
Yetişdi bir neçə alma, nəhayət.

Heç kəs belə alma görməmiş yəqin,
Onda ətri vardı gözəl güllərin.
Bir yanı qırmızı, sarı bir yanı,
Var idi fərəhdən, dərddən nişanı.
Aşiqlə məşuqdur guya bu sayaq,
Birləşib oturmuş qucaqlaşaraq.
Həsən çox dəyərli gördükdə barı,
Bilmədi nə etsin bu almaları.
Əqlinə gəlirdi onun min xəyal,
Gah dedi, ver yesin qoy əhli-əyal.
Gah dedi, gəl göndər dosta ərmağan
Qalsınlar belə bir almaya heyran.
Gah da pul qazanmaq gəlib niyyətə,
Dedi ki, sataram baha qiymətə.
Axırda o gəldi belə qərara:
Layiqdir bu alma hökmdarlara.
Qəlbini bəzədi min rəngli xəyal,
Sudakı köpük tək coşdu ehtimal,
Zənn etdi güləcək ona hökmdar,
Edəcək ölkədə onu bəxtiyar.
Belə xoş ümidlə, yüksək xəyalla,
Yönəldi şəhərə, gördü cəlalla –
Şah çıxır səfərə, tələsik Həsən,
Şaha təqdim etdi adamları şən.
Şah dedi: qoyun o, sarayda qalsın,
Qayıdan zamanda mükafat alsın.
Lakin xadimləri bəd cinsdi tamam,
Həmişə zülmkar, nəməkbəharam.
Nə xalq, nə də dövlət düşürdü yada,
Bir qızıl-gümüşdü məqsəd dünyada.
O uca qapıda çox alçaqdılar,
Xidmətdə daima zalim, cəfakar.
Belə alçaqların əlində qaldı,
Gör necə başını bəlayə saldı:
Müxtəlif evlərdə saxlandı Həsən,
Didərgin salındı doğma evindən.

Yorulub belə bir işdən nəhayət,
Dustağa salaraq oldular rahət.
Həsən, o binəva, o yazıq Həsən,
Sonsuz əzab çəkdi, qəlbində şivən,
Gün keçdi, ay keçdi gəldi hökmdar,
Həsənin halından oldu xəbərdar.
Əmr etdi hüzura gəlsin o bağban,
Təəssüf eyləyib bu işə sultan,
Hökm etdi açsınlar ta xəzinəni,
Salsınlar oraya təkcə Həsəni.
Könlü nə istəsə götürsün dövlət,
Bəlkə yaddan çıxa çəkdiyi zillət.
Girdi xəzinəyə tək-tənha Həsən,
Heyrətə düşdü o bu xəzinədən.
Bircə şey alsaydı, ömrünə bəsdi,
Lakin daş-qaşlardan tamahı kəsdi.
Götürdü iki şey ancaq oradan:
Biri balta idi, biri də Qur'an.
Bu xəbər çatdıqda şaha qaldı mat,
Çağırıb danladı, etdi iltifat.
Dedi: "Ey divanə, bu fürsət bir də,
Əlinə düşərmi sənin ömründə?
Sonralar bu işdən olarsan peşman,
Bir fayda gətirməz bu sənə, inan.
Fürsəti itirməz ağıllılar bil,
Qayıt xəzinəyə, gözlərini sil.
Qiymətdə ən böyük bir cəvahir al,
Gedib öz dərdinin əlacına qal!"
Şaha təzim edib söylədi Həsən:
"Bunlardan özgə şey istəmirəm mən.
Baltayla kəsərəm ağacı əvvəl,
Ki, odur gətirən başıma əngəl.
Deyərəm and içsin nəslim Qur'ana.
Ümid bağlamasın heç bir sultana..."
Nə arzu etmişdim noldu nəhayət.
Qoy onlar halımdan alsınlar ibrət...

## HİKMƏTİN FƏZİLƏTİ

Qədim bir kitabda vardır bu xəbər:
İranda bir həkim varmış mö'təbər.
Ümidi yox ikən onun sabaha,
Belə bir sifariş göndərdi şaha:
Onun üzüyünü böyük hökmdar,
Ən müdrik adama versin yadigar.
Şah bu vəsiyyəti icra edərkən,
Ehtiyat edirdi divanələrdən.
Çünki hər dövlətli, kasıb, hər gəda,
Özünü ən müdrik bilir dünyada.
Nəhayət hamını çağırtdırdı şah,
Onları mətləbdən eylədi agah.
Dedi: üç suala istərəm cavab,
Kim daha düz desə olsun intixab.
Əvvəl – ən xeyirli nədir müxtəsər?
Tamahkar olanlar dedilər ki – zər.
Müşavir olanlar dedilər: xərac,
Tacirlər dedilər: şadlıq və rəvac.
Şah dedi: uzaqdır bunlar mətləbdən,
Orada bir kasıb durmuşdu, həmən
Söylədi: "Hər şeydən xeyirli – hünər.
Hünərsiz heç bir şey olmaz müyəssər".
Şah qəbul eylədi, soruşdu yenə:
"Dünyada hər şeydən yaxşı deyin, nə?"
Yüksəldi müxtəlif səslər saraydan:
"Şahın razılığı... şadlıq... firavan".
Yenə də o qoca dedi bu sözü:
"Hər şeydən yaxşıdır" yaxşılıq özü.
Çünki yaxşı sifət olarsa səndə,
Afərin söyləyər dost da, düşmən də".
Şah dedi: "Ən lazım nədir insana?
Yenə də çox fikir çıxdı meydana.
Şah isə o şəxsə edirdi diqqət,
Dedi: "Ən lazımlı şeydir həqiqət.
Həqiqət olmasa, olmaz intizam,

Dünya həqiqətlə dolanır müdam".
Şah qalxıb qocaya eylədi təzim,
Üzüyü hörmətlə eylədi təqdim.
Əmr etdi saraydan getməsin bir an,
Ki, alsın hər işdə məsləhət, ondan.
Nəhayət oldu o, şahın vəziri,
Ökəni düzəltdi onun tədbiri.
Nə yaxşı olardı hər ölkədə ah,
Olaydı belə bir vəzir ilə şah.
Ey Qüdsi, hikmətdən varsa xəbərin,
Yaxşı adamlarda olsun nəzərin.
Məna gülşəninin ustadı yenə,
Belə güllər səpdi öz gülşəninə:
Bir zaman Şirvanda bir əmir vardı,
Zahiri-batini xoş hökmdardı.
Vücudu əzizdi, hümməti yüksək,
Lakin xudpəsənddi, hər zaman gərək
Hər işdə sarayda olan adamlar,
Onun dediyini edəydi təkrar.
Əksinə çıxmazdı onun bir insan
Getdikcə qalırdı ağlına heyran.
Məsləhət zamanı bir şəxsi-fazil,
Əmirin sözünü eyləyib batil
Dedi: "Həqiqəti danmayınız bir,
O iş başqa cürdür, belə deyildir".
Əmir çox söylədi o eşitdi az,
Dedi ki, düz sözü rədd etmək olmaz.
Nəhayət qızışıb qışqırdı əmir:
"Ədəbsiz, nə hədlə elədin təhqir?
Unutdun ki, mənəm burda hökmran,
İcra olmalıdır verdiyim fərman!"
O fazil əmirə cavab verərək,
Söylədi: "Hər şeydə bir düzlük gərək.
Danışma, eşitmə, görmə əmr etsən,
Bağlaram dil, qulaq, gözümü həmən.
Əmr etsən anlama, əfv et hökmdar,
Bu işdə əlimdə deyil ixtiyar".

Əmir dediyindən oldu peşman,
Sonra dedikləri vermədi ziyan.
Düzlükdən qüdrətli bir dövlət yoxdur,
Ey Qüdsi, düzlükdə səadət çoxdur.
Düz iş yoxlanarsa nə qorxusu var,
Düşmən də düz işi eyləməz inkar.
Deyək heç yoxlanış olmayacaqdır,
Düzlük özü qəlbə möhkəm dayaqdır.

## HAQQ SÖZ

Yadımda deyildir nə vaxt və kimdən,
Belə bir hekayət eşitmişəm mən:
Bir gənc padşahın bir yarı vardı,
Hüsndə dünyanı heyran qoyardı.
Pəri tək gözəldi o tamam-kamal,
Şirin danışardı o huri-camal.
Saçından gözəllik alardı sünbül,
Üzünün odundan rəng alardı gül.
Bir gecə padşah eşitdi xəlvət,
Bir arvad o yara edirdi töhmət –
Deyirdi: "Nə oldun hüsnünə heyran?
Təkcə bir hüsn ilə yaşamaz insan.
Camalın nəhayət heçə enəcək,
Qaş kimi dartınma, qıvrılma saç tək".
Gözəli bu tənə qızartdı, birdən –
Zülfü tək qıvrılıb cavab verdi: "Sən
Yersiz təhqir etmə hüsnü bu qədər,
O hansı dövlətdir hüsnə bərabər?
Bundan da böyük bir dəlil istərsən?
Ki şah haqqın yerdə sayəsi ikən,
Onun fərmanına baxarkən cahan,
Özü də hüsndən almada fərman".
Söylədi o arvad: "Ey qafil gözəl,
Hüsnünlə bu qədər lovğalanma gəl.
Dünyada səltənət çox alçaq şeydir,

Sadə, şən yaşamaq ondan çox şeydir.
Şah qafil yaşasa xalqdan, dövlətdən,
Zövq alsa ancaq o eyşü-işrətdən.
Cilovu versə o sən tək gözələ,
Dövlətin əsası verilər yelə...
Lakin şah xalqına baxarsa tamam
Yediyi şit olar, qoxusu haram.
Belə şah gözəldən gözləməz fərman,
Heç onu görməyə tapmazsan imkan.
Əsl şah göstərib xalqa ədalət,
Kəndlidən daha çox çəkər əziyyət".
Bu sözü eşitcək cavan hökmdar,
Ürəyi titrəyib oldu biqərar.
Dili söz tutmadı, ciyəri yandı,
Bir zaman şəkil tək cansız dayandı.
Dedi öz-özünə: "Kişidir adın,
Sənə yol göstərir amma bir qadın".

## KOR

Birinin çox ağır keçirdi günü,
İstədi açılsın işin düyünü.
Bir az pul götürdü, küçədə haman,
Korları çağırdı ki, versin ehsan.
Korlardan başqa bir gözlü gələrək,
Təkidlə o da çox istədi kömək.
Dedi ona: "Utan, az dil aç dilən,
Pulu kor olana verəcəyəm mən.
Sən ki, kor deyilsən nədir bu tələb?
Rədd ol, mane olma, arsız, biədəb!"
Bir alim keçirdi bu dəm küçədən,
Söhbəti eşidib dayandı, birdən.
Gülərək söylədi: "Ey ali məqam,
Korlardan daha çox kordur bu adam.
Əgər olmasaydı o kor, ağlı kəm,
Səndən yox, istərdi əlindən kərəm".

## MƏLAMƏT ƏLAMƏTİ

Çox gözəl hekayət yadıma düşdü,
Bəlkə bir şikayət yadıma düşdü:
Bir fəqir gələrək yüz ahü zara,
Şikayət edərək bir hökmdara
Dedi ki, bu kənddə var bir bostanım,
Onunla dolanır bu xanımanım.
Qonşunun camışı girib bostana,
Onu ayaqladıb edib virana.
Hakimsə danlayıb yazıq kişini,
Dedi: "Sən tutaydın möhkəm işini.
Sən hasar çəkmədin bostana nədən?
Tikanla örtmədin hasarını sən".
Dedi ki, camışa bunlar nə edər,
Hasar, tikan, ona edərmi əsər?
Dırnağı, buynuzu möhkəmdir onun,
Zuru çox, şüuru çox kəmdir onun,
Dağıdar önünə nə çıxsa haman,
Özünə yol açar o könaz heyvan.
Qüdsi mən heyrətəm ki, hər bişüur,
Hər şeydə işlədir könazlıqla zur.
Soxulur, önünə çıxsa ev, bostan,
Tapdayıb eyləyir yer ilə yeksan.
Dindirsən deyir ki, qorxan deyiləm,
Yəni ki, camışam, insan deyiləm.

## QARI VƏ HARUN

Bağdadda bir qarı yaşardı küskün,
Taleyi ömrütək zavallı, düşkün.
Harun sarayına yaxın yaşardı,
Viranə qalan bir daxması vardı.
Saray genişlənib düzələn zaman,
Lazımdı sökülsün bu ev də, haman –
Qarıya nə qədər əvəz verdilər,

O dedi: “Daha çox qiymətə dəyər”.
Daha on min qızıl verdilər azı,
Yenə də rədd edib qalmadı razı.
Hər yandan dedilər: “Dəlisən, nəsən,
Getmirsən bu uçuq boş viranədən”.
Dedi: “Mən dəliyəm, bəs Harun niyə,
Belə çox pul verir bu viranəyə?”
Ey Qüdsi, dövlət bir pərdədir, inan,
Onunla örtülür cinayət, nöqsan.
Bir məsəl dedilər dövlətə bağlı,
Harunun nöqsanı, qadının ağlı.

## UŞAQ VƏ GÜNƏŞ

Doğuldu qaranlıq bir evdə uşaq,
Ordaca ustaddan o dərs alaraq
Şamdan başqa işıq görmədi bir an,
Günəşi görməyə olmadı imkan.
Ustadı nə qədər dedisə təkrar,
Dünyada işıqlı, nurlu günəş var.
Uşaq da inadla dedi ustada:
“Şamdan işıqlı şey yoxdur dünyada”.
Bir gün səhər evdən çıxarkən uşaq,
Günəşi gördükdə inandı ancaq...

## YERSİZ MİNNƏT QOYMAQ

Eşitdim pul verib təbibi səhər,
Bir xəstə üstünə də’vət etdilər.
Xəstənin qüvvəti getmişdi tamam,
Hərarət içində yanırdı müdam.
Qürurla soruşdu ondan kef, əhval,
Xəstəyə verdi o bir neçə sual.
Nəhayət, guya ki, o tapdı dərdi,
Xəstədən qan almaq əmrini verdi.

Xəstənin qolundan alındıqda qan,
Qanıyla bərabər axıb getdi can.
Qorxuyla, təşvişlə olsa da həkim,
Deyirdi: "Nə yaxşı oldu tədbirim.
Nə yaxşı qan aldıq dincəldi bədən,
Qurtardıq xəstəni bu ağır dərddən".
Bizim də əsrdə belədir əyan,
Döşünə döyürlər hər alanda can.
Hər kəsin bir işi düşsə əlinə,
Pozaraq o işi öyünər yenə.
Bu cür minnət qoyub, can almaq, həmən
Yaxşıdır yenə boş vədə verməkdən.
Deyirlər: bir kəsdən edəndə xahiş,
Düzəltsin birinə bir əməl, bir iş.
Əzəldən düzünü söylərdi o kəs,
Ki ümid olmayın siz mənə əbəs.
Elə bu sizə çox hörmətdir ki, mən,
Avara qoymuram öz işinizdən
Ey Qüdsi, buraxma düzlüyü sən də,
Hörmətsiz olarsan yalan deyəndə.

## TÜLKÜ VƏ QOYUN

Yazılıb bir maraqlı dastanda:
Vardı bir tülkü bir biyabanda.
O da zahid kimiydi guşənişin,
Gözü ac, hiyləgər, dəcəl, xudbin.
Bir gün oldu acından avarə,
Aclığa tapmadı o bir çarə.
Baş alıb gəzdi çöl-biyabanı,
Yem üçün axtarırdı hər yanı.
Gördü çöldə həvəslə bipərva,
Bir qoyun otlayır təkü tənha.
Bir ona baxdı, bir də qüvvətinə,
Gördü işlər yaman düşüb çətinə.
Gücü çatmaz ki, bitirə işini,

Qıcıdıb hirs ilə ona dişini.
Dedi: “Ey canı bərk, quyruğu boş,
Belə bir zülm getməz Allaha xoş.
Bu ərazi mənim babamdandır,
Səndə bu nə ürək, nə vicdandır,
Ki, edirsən bu yerləri viran?
Kirəsin verməsən, düşər bil, qan”.
Bu acı sözləri eşitdi qoyun,
Çarəsi qalmayıb əlində onun.
Dedi: “Yoxdur sənə inamım bil,
Ola bilməz, bu yer səninki deyil.
Sahib olmaz bizim bu səhrada,
Mən kimi min qoyun gəzir burada”.
Söylədi tülkü: “Şahidim vardır,
Həqqi onlar bilir bu aşkardır.
Bu sözü hamı eyləyər təsdiq,
İstəsən ki, bu söz ola təhqiq,
Neyləyim sabit olsa bu əhval?”
Dedi: “Olsun sənə bu qanım həlal”.
Tülkü getdi, qoyun yazıq, miskin,
Gəlib evdə oturdu çox qəmgin.
Ağanın bir böyük iti var idi,
Bir hücumda pələngi yırtardı.
“Gah olardı çoban ilə həmdəm,
Evi də gözləyərdi o hər dəm.
Ona nəql etdi macəranı qoyun,
Hirsi coşdu bu macəraya onun.
Dedi: “Tülkü kələk qurub bir bax,
Dostunun qanına susur axmaq.
O qoyunla gedib ora çatdı,
Bir çuxur qazdı, gizlənib yatdı.
Dedi: “Get, otla, qorxma, arxayın ol,
Tülkü şahid gətirsə etmə qəbul.
And üçün yanıma gətir onu sən,
Sonra gör neylərəm o şahidə mən?!
İt ki, gizləndi qazdığı yerdə,
Sizə qoy tülküdən deyim bir də.

Özünü tülkü çöllərə vurdu,
Qoca bir qurda rastlaşıb durdu.
Getdi, hörmətlə o salam etdi,
Ona çox izzət, ehtiram etdi.
Dedi: "Ey vəhşilər əmiri, sənə,
Verirəm muştuluq, məni dinlə!
Görmüşəm bir qoyun səfeh, nadan
Bayramın lap içindədir qurban".
Söylədi macəranı tülkü tamam,
Qurda gəldi fərəhli bir ilham.
Dedi: "Haqqı danammarıq heç biz,
Dediyin yer sizinkidir şəksiz".
Belə şahid tapıldı çox "adil",
Müddəi hər nə söyləsə qail.
Müxtəsər qan içən iki qəddar,
Gülüşüb verdilər hücuma qərar.
Elə ki, oldular ora varid,
Dedi tülkü: "Budur bu da şahid.
Hər sözü doğrudur, həqiqətdir,
Məqsədi dünyada ədalətdir.
Necə olmaq bu hökmə narazı,
Özü həm şahid, həm də ki, qazi".
Dedi: "Yox, yox, bu söz qəbul olmaz,
Müddəa sabit olmalı bir az.
Tanıram qurdu, istəyir ala can,
Şər'i-haqqı o tapdayar hər an.
Sahibim yoxsa da yanımda mənim,
Bir ocaq var yaxında xeyli qədim.
Gedərək and için ona, dərhal,
Qanım olsun sizə o anda halal".
Qurd dedi: "Sənətimdir and içmək,
Qorxu olmaz, təmizsə hər bir ürək".
Dedi tülkü: "Mənim də qorxum yox,
İçmişəm böylə andları mən çox".
Sözləşib getdilər ocağa sarı,
Yol hələ olmamışdı orda yarı.
Tülkü baxdı ocağa heyrətlə,

Ürəyi vurdu bir əlamətlə.
Gördü bir göz parıldayır altda,
Sanki bir şam yanır o zülmatda.
Dedi qurda: "Ocağa and içmək,
Bizim əcdada olmamış məslək.
Atam and içdi, düşdü bəndə haman,
Ovçu soydu dərisini nalan.
Anam and içdi yeddi il yatdı,
Yeddi il dərdə, qüssəyə batdı.
İndi mən qorxuram bu anddan çox,
Özün and iç, sənin ki, qorxun yox".
Qurd dedi: "Hiyləni burax, tülkü,
Güc olan yerdə hiylələr bil ki,
Boş olar, qorxmuram ocaqlardan,
Tülkülər qorxuya düşər hər an".
Qurd əl atcaq ocağa, it çıxdı,
Hulqumundan yapışdı bərk sıxdı.
Tülkü görcək əkildi tez aradan,
Qışqırıb qurda söylədi: "Nadan,
Demədim burda gizli hikmət var,
Bu ocaqda yəqin bir illət var?!"

## XƏYALIN UÇUŞU

Çox gəzmişəm mən səyahət edərək,
Rusiyadan – Ləhistana* gedərək,
Bir neçə ay Varşavada qalmışam,
Hər cür eyşi-işrətdən kam almışam.
Çox adamla tanış oldum: mö'təbər
Həvəs əhli, hər bir işdən bixəbər –
Şəxslərlə məclislərdə oturdum,
Hər mədəni cəmiyyətə baş vurdum.
Bu diyarın saları çox tədbirli,
Şahın yaxın naibi bir əmirdi.

* Ləhistan – Polşa

Paskeviç! Bu adda böyük şöhrət var
Öz adıyla məşhur olmuş bu salar.
O hər gecə şən məclislər qurardı,
Bu məclisdə hər kəsə bir əş vardı.
Görünürdü hər gözəl bir xoş rənglə,
Cilvələnib dururdu min bəzəklə.
Ruh verirdi o gülşənin hər gülü,
Hər bir gülün yanında öz bülbülü.
Hər dilbər bir odlu baxış, bir nazla,
Aşiqini arayırdı niyazla.
Ram olub hər vəhşi ahu aşkar –
İstəyir bir ovçu etsin o şikar.
Yer etdikcə camal gözdə, könüldə,
Haldan-hala düşürdü bu könül də.
Ürək çalmaq sevgiliyə adətdir,
Məhəbbətdən söhbət – başqa söhbətdir...
Gözəllikdə onlara çatan olmaz,
Lakin orda eşqə qiymət qoyulmaz.
Bu şəhərin bağı cənnət bağıdır,
Hər görüşdə ələmləri dağıdır.
Hər gözəllik bu şəhərdə olmuş cəm,
Bu yerlərin təsvirində acizəm.
Tərif etmək mümkün deyil söz ilə,
Görmək lazım bu şəhəri göz ilə.
Mən bir gecə xəstələndim, qəflətən,
Evdə qalıb, uzaq düşdüm məclisdən.
Xəyal olcaq həmdəmim öz başımda,
Sakit oldu hər bir işdən başım da.
Nə aləmdir, bəh, bu xəyal aləmi!
Nə gözəldir xəyalın bu xoş dəmi!
Dedim xoflu, xəyalıma: "Gəl dilə,
Bu gecəni keçirim qoy səninlə".
Dedi: "Kimdir məndən yaxşı sənə yar?
Sənsə mənə etməyirsən e'tibar".
Dedim: "Necə mən səninlə dost olum?"
Dedi: "Budur, haqqa gedən düz yolum.

Badəmi iç, məst ol, getsin dərdü qəm,
Önündə şam yandır, ələ al qələm.
Açıq deyim hər fikrimi, qulaq as!
Bil ki, vardır hər şadlığa bir əsas.
Əvvəl deyim sənə uca evlərdən,
Düzdür, onlar düzəlmiş ağ mərmərdən.
Tikilir çox zəhmətlə hər imarət,
Bilinməz o kimə çatar nəhayət.
Gəl məclisdən və sərvətdən danışaq,
Bəzək, çalğı, səadətdən danışaq.
Xoşdur məclis, nəğmə, şadlıq hər zaman,
Bunlar qoymaz ürək olsun pərişan.
Lakin olsa məclisçilik bir adət,
Boşdur ona çəkilən hər məşəqqət.
Bu nazənin, pəri üzlü hər nigar,
Şirin dilli, xoş söhbətli, nazlı yar.
İşə salıb minbir kələk, hiyləni,
Məhv edərlər onlara meyl edəni.
Canan deyil, cana dərddir hər afət,
Onlarda yox mehribanlıq, sədaqət.
Bunca bəzək, zinət, deyil nöqsansız,
Hər kəs onu daşımadı həyəcansız.
Hər nə qədər kamil olsa, kəsri var,
Lap yaxşını pis söyləyər düşmənlər.
Xoş geyinmiş, xoş bəzənmiş, xoş gülən,
Dostlar gördüm dildə tez-tez “can” deyən.
Üzdə sanki sədaqət var qanında,
Fikri isə öz xeyrinin yanında.
Üzdə deyir: “Dostam sənə ürəkdən”,
Həqiqətdə olur sənə o düşmən.
Yüz hiyləyə əl atıb bir ovçu tək,
Tora salır səni, qafil edərək.
İndi özün insaf ilə yaxşı bax,
Yaxşıdırmı belə qafil yaşamaq?
Bu da haman eyş-işrətdir, ay filan,
Şüurunu alıb etdi sərgərdan”.

Mən eşitcək bu kəlamı çəkdim ah,
Dedim: "Necə gör həyatım keçdi, ah!
Məni yurddan ayrı saldı bu səfər,
Dostlarımdan qaldım necə bixəbər!
– Mən Firəngə bir səyahət eyləyim,
Elmü fəndən kəsbi-ləzzət eyləyim,
Deyə, düşdüm boş xəyala mən aman,
Dəmir zərlə örtülübmüş, nə yaman!"
Bu fikrim coşdurdu çox xəyalı,
Çox tünd oldu, dəyişildi əhvalı.
Söylədi: "Ey sözü, işi boş, nadan,
Dərdə düşüb dərmanını tapmayan.
Hər ifratdan mən' etmişəm səni mən,
Aşdın niyə hüdudunu belə sən?
Haqqı tanı, ona eylə riayət,
Bu səfərdən gəl heç etmə şikayət.
Səfər sənə tanıdır bu dünyanı,
Öyrədir o sənə elmi, ürfanı.
Yadındamı Rum elində, İranda,
Bir düşkünlük görmüşdün hər insanda.
Xəbərsizdi onlar bütün aləmdən,
Yabançıydı onlara hər elmü fən.
Düşünürdü tək özünü hər biri,
Olmuşdu öz tamahının əsiri.
Fəxr edirdi hər kəs varla, nəsəblə,
İşi yoxdu təhsil ilə, ədəblə.
Bir məqsəddi dövlət yığmaq hər kəsə,
O dövləti sərf etsin boş həvəsə.
Axtarıb bir mənsəb tapsın özünə,
Zorla xalqı tabe etsin sözünə.
Dəm vuraraq onlar həsəb-nəsəbdən,
Kənardılar hər bir hünər, ədəbdən.
Yadındamı o zaman bu söhbətlər,
Ürəyinə salırdı min qəm, kədər.
Buna görə sən eylədin səyahət,
Bəlkə bir az qəlbin ola fəraqət.

Darıxdı bəs burda niyə ürəyin?
Başqa bir yer olmuş indi diləyin.
Pərişanlıq qoymaz sən kam alasan,
Bir yerdə sən durub rahət qalasan.
Artıq sənin ömrün keçmiş hədərə,
Çox dolandın bu aləmdə dağ, dərə.
Hər tayfayla elədin sən çox söhbət,
Aldığın nə oldu bundan, nəhayət?
Qəflət içrə uyumuşdur kamalın,
Ayılmadın. Bax indi də xəyalım –
Çox mənalar mənə izhar eylədi,
Yatmış idim, sanki bidar eylədi.
Dedim: “Sən ey mayasızlar mayası,
Müflislərin sənsən dərdə davası.
Sayəndə çox dərdə əlac tapılar,
Təxtü tacsız şaha dönər gədalar.
Mənsəbindən məst olanı sən haman,
Ayıldarsan mənasız boş xülyadan.
Kim özünü yüksək bilsə hər kəsdən,
Öz həddini qandırarsan ona sən.
Bir yol göstər mənə, oldum biçarə,
Bu dünyada istəksiz bir avara.
Söylə, nə cür mən də çatım murada,
Nə iş ilə məşğul olum dünyada?
Nə etməli ki, asudə olum mən,
İslam ilə Firəng çəkişməsindən.
Söylə, varmı bu dünyada bir məkan,
Ki, orada ürək olsun kamran?
Burda xəyal ayrıca bir surətlə,
Məni haldan-hala saldı sür’ətlə.
Tam unutdum varlığımı mən bu dəm,
Bilmədim ki, haradayam, mən kiməm?
Çox qəribə hala düşdüm, nagahan,
Gözlərimdə cilvələndi bir məkan.
Bəh, nə gülşən, bəh, nə əlvan mənzərə!
Bir yar kimi bəzənmişdi dağ, dərə.

Şırıltıyla axar hər yan çeşmələr,
Sularda gül, göz yaşı tək əks edər.
Əlvan paltar geymiş necə bu diyar,
Səf-səf durub bax meyvəli ağaclar.
İki yandan çay axmada sür’ətlə,
Ad qazanmış bu yer böyük nemətlə.
Yüksək bir dağ qarşısında gur dəniz,
Hər ikisi ləzzət verir, şübhəsiz.
Dağ başında qar ağarır hər zaman,
Qülləsində soyuq hava biaman.
Qarşısında günəş belə baş əyir,
Sayəsində bir aləmə vermiş yer.
Qara rəngli dənizmidir, bu, bir aman,
Ya da yerdə vardır başqa asiman.
Orda gəzən gəmidə var bir cəlal,
Sanki göydə gəzir aydın bir hilal.
Gur çayların arasında aşikar,
Çox səfalı yerdə gözəl bir kənd var.
Bağı, cənnət bağının bir kənarı,
Göz yaşı tək duru axır suları.
Bülbülləri cəh-cəh vurur biqərar,
Havasında bu yerin gül ətri var.
Evləri, bax yaşıllığa bürünür,
Sanki göydə nurlu ulduz görünür.
Hər tərəfi yaşıl, sarı rəngli gərd,
Birləşmişdir sanki qızıl, laciverd.
Çöldə sürü gəzdirir bax hər çoban,
Neylərində bir səda var ruh açan.
İşsiz qalmaz nə ki qadın kişi var,
Bu yerdə, bax, hər kəsin öz işi var.
Burada kin, həsəd bilməz bir insan,
Qardaş kimi bir-birinə mehriban.
Ayrıca bir ev gördüm arx başında,
Bir doğmalıq var idi hər daşında.
Çox da gözəl deyildi o imarət,
Saraydan çox onda vardı şərafət.

Ətrafında güllər açmış gülşəndi,
Bu evin hər mənzərəsi çox şəndi.
Həyətində hovuz, önü xiyaban,
Bir tərəfdə bağı vardı, al-əlvan.
Gördüm ki, çox cəlallıdır bu bina,
Dedim burda gərək olsun kəndxuda.
Sonra tanış olmaq üçün əhvalla,
Mən bu evə daxil oldum xəyalla.
Ev sahibi evdə idi, sübh ikən,
Otağında yatmış idi xeyli şən.
Yanındaca öz qadını şadiman,
Bir bədəndə biri ruhdu, biri can.
Sonra qəhvə-süd içdilər kədərsiz,
Ömürləri keçirdi xoş, xətərsiz.
Söhbət edib gülürdülər anbaan,
Hər sözləri xoşdu, gözəl, mehriban.
Kişi sadə paltar geyib tez durdu,
Gəlib başqa bir otaqda oturdu.
Bu otaqda xeyli kitab var idi,
Hər suala orda cavab var idi.
İslamın və Firəngin hər əxbarı,
Sülhün, həm də davanın hər əsrarı.
Zahirdə bir guşənişin görünər,
Lakin verər Hind, Rum, Çindən o xəbər.
Gah oxurdu kitabları xoş səslə,
Gah da əsər yazardı min həvəslə.
Neçə saat belə məşğul olaraq,
Sonra etdi başqa işə o maraq.
Gəlib tapdı onu neçə həmdəmi,
Söhbətinin vardı başqa aləmi.
Kəndxudaya, xəlqə o xoş niyyətlə,
Çox xeyirli sözlər dedi hörmətlə.
Qoydu işi öz yoluna əlbəəl,
Hər kəsə o verdi dəsturul-əməl.
Bir az sonra məhsulundan alaraq,
Məclis qurdu, süfrə açdı bir sayaq.

Ki, üstündə görünmədi heç nöqsan,
Neçə nəfər yeyib doydu firavan.
O yeməkdən sonra neçə saət də,
İstirahət eylədi bir xəlvətdə.
Axşam üstü çıxdı o bağ seyrinə,
Dincəlməkçin, yüngül ayaq seyrinə.
Nəzər saldı güllərin xoş üzünə,
Qüvvət gəldi beyninə və gözünə.
Bağbanına göstərişlər verərək,
Dedi: "Gəl bu ağacı sən belə ək".
Sonra o gah süvari, gah piyada,
Məşğul oldu şikarla xoş havada.
Gecə oldu, qayıtmaqçın evinə,
Dağdan enib evə çatdı o, yenə –
Arvadıyla söhbət etdi könlü şad,
Həyatından razı qaldı şən, azad.
Onun gözəl həyatını görəndə
Pərişanlıq saldı məni kəməndə.
Sual etdim xəyalımdan haman vaxt,
"Kimdir azad ömür sürən bu xoşbaxt?
Müyəssərdir ona bütün diləyi,
Canı sağlam, kədərsizdir ürəyi.
Paxıllığım tutdu, necə tək adam,
Toplamış din, dünya zövqün belə tam.
Mənsə oldum kami-dilçin dərbədər,
Gəzməkdəyəm bu dünyanı sərbəsər.
Mən fələyə deməyimmi biaman,
Mən nakamam, o sa belə kamran.
Xəyal gülüb dedi: "Anla, ey qafil!
Paxıllığın özünədir, yaxşı bil...
Heyrət etmə cəhalətlə sən buna.
İp bağlamış nəfsin bil öz boynuna.
Pislik edən pislik görər, bu-bişək,
Buna nə xalq müqəssirdir, nə fələk.
Cəsarətlə bu qorxunu gəl burax,
Gözünü aç, bir özünə yaxşı bax.

Bu gözəl kənd, bu bina, bu nazlı yar,
Səninkidir, cəhaləti et kənar.
Bu ki, sənsən bu da sənin həyatın,
Bunlar sənin öz halın, öz büsatın.
Bir bax, hər şey burda hazır, sən uzaq,
Sənin könlün öz nəfsinə uyaraq.
Səadəti verib burda əlindən,
Axtarırsan, uzaqlarda onu sən”.
Bir əhd etdim xəyalımla bu axşam,
Bu səfərdən əgər mən sağ qayıtsam,
O guşədə sakit qərar tutaraq,
Yaşayaram qovğalardan mən uzaq.
Qalan ömrü keçirərəm kamran,
Şükr edərəm Allahıma hər zaman
Ey Qüdsi, çox gözəldir öz məskənin,
Hər bir yerdən xoşdur sənin vətənin.

## MİRZƏ HƏSƏN QARABAĞİ
**(XVIII-XIX)**

### KƏNDLİ VƏ AYI

Belə derlər kim, vardı bir dehqan,
Olmuşdu bir ayı ona mehriban.
Xoşlamışdı onu, tutmuşdu ülfət,
Onun ilə daim edərdi söhbət.
Gecə-gündüz qulluğunda bəndəvar,
Həmişə bəndə tək ona xidmətkar.
Hər yerdə görərdi, öpərdi əlin,
Yalardı ayağın, qucardı belin.
Aşnalıqda ayı olmuşdu qaim,
Arxasınca onun gəzərdi daim.
Yay fəslində dehqan öz bostanında,
Ayı da var idi onun yanında.
Dolandılar o gün bağı, bostanı,
Gəzməkdən dehqanın incidi canı,
Çox işləyib yorulmuşdu o kişi.
O gün artıq idi bostanın işi.
Dəxi işləməyə qalmadı tabı,
Uzanıb yatmaqda gördü səvabı.
Tapdı bir səfalı, kölgəli məkan,
Uzanıb orada yatdı bir zaman.
Kişi yatdı, ayı oldu pasiban,
Baxardı kim, ona yetməsin ziyan.
Qəzadan o zaman bir neçə milçək,
Qondular kişinin üzünə tək-tək.
Canü-dildən ayı edərdi nəzər,
Ta ki, aşnasına dəyməsin zərər.
Dostunun üzündə görcək oları,
Səbr edə bilmədi, getdi qərarı.
Var idi çün ona çox məhəbbəti
Cuşa gəldi o heyvanın qeyrəti.
Bir böyük qayanı götdü yuxarı,

Yavaş-yavaş gəldi dostuna sarı.
Dedi: “Vurram bu qayanı onlara,
Edərəm hamısın mən para-para.
Bu daş ilə qıllam onları bərbad,
Aşnamı zəhmətdən edərəm azad”.
Milçəklərin ölümünə oldu şad,
Dostunun ölümün eyləmədi yad.
Ayı qanmaz idi, bir dayanmadı,
Fəhm edə bilmədi, bunu qanmadı:
Əgər vursam milçəklərə bu daşı,
Ancaq öz aşnamın dağılır başı.
Xülasə, o daşı əlinə aldı,
Qəflətdən kişinin başına saldı.
Milçəklərə ayı vurdu o daşı,
Öz dostunun amma xırd oldu başı.
Çox nalə elədi o fəqir dehqan,
O daşın altında ta ki, verdi can.
Həsənin bu sözün oxu hər zaman,
Ta ki, olmayasan, oğlum, peşiman:
Nadan ilə hərgiz eyləmə ülfət,
Ta ki, ondan görməyəsən xəsarət.
Qanmaz ilə mütləq oturub durma,
Ömrünü puç edib, özünü yorma.
Yaxşıraqdır sənə – bunu anla sən –
Ağılsız dostundan bir qanan düşmən.

## ŞİR VƏ SİÇAN

Yay fəslində bir gün bir yırtıcı şir,
Çox qüvvətli, şücaətli, çox dilir.
Şikar üçün dağı, dəşti dolandı,
Hərarətdən siçan od tutdu yandı.
Nə qədər dolandı, tapmadı şikar
Zəmanə gözünə oldu tirə-tar.
Günün hərarəti, aclıq möhnəti,
Ona verdi o gün artıq zəhməti.

Xülasə, o heyvan zarü şikəstə,
Günün istisindən olmuşdu xəstə.
Hərarətdən yeksər bədəni yanıb,
Gəzməkdən yorulub, dəxi dayanıb.
Tərəddüd etməkdən yorulub o şir
Yatmaqdan savayı bilmədi tədbir.
Bir ağacın kötüyünə dayandı,
O ağacın sayəsində uzandı.
Gəzib yorulmuşdu, çəkmişdi əzab,
Uzanan tək tapdı onu şəgər xab.
Bir neçə kəsəyən nagah o zaman,
Məkanından çıxıb gəzdilər xəndan,
Sərxoş-sərxoş çıxıb o şirin üstə,
Gəzdilər üstündə dəstəbədəstə.
O aslanın qəzəbindən bixəbər.
Tullanıb düşdülər, şuriş etdilər.
Onların səs-küyü yetirdi azar,
Yuxusundan şiri eylədi bidar.
Oyanıb o heyvan, oldu biqərar,
Onların birini eylədi şikar.
İstədi ki, alsın onun canını,
Xırd edib bədənin, töksün qanını.
İcz ilə şirə o dedi ki, "ey şah,
Qulluğunda əgərçi etmişəm günah,
Müqəssirəm, əgərçi günahım çoxdur,
Rəhmü mürüvvətin sənin artıqdır.
Rəhm et mənə, ey şah, bağışla məni,
İncitmişəm əgərçi bu işdə səni.
Bilirəm olmuşam ölümə mən tuş,
Sən eyləmə öz rəhmini fəramuş".
Tutalım kəsəyən etmişdi xilaf,
O mərdanə heyvan eylədi insaf.
Yumuşalıb qəlbi, etmədi qisas,
Buraxdı əlindən, eylədi xilas.
Dedi: "Dur get, dua qıl dövlətimə,
Bağışladım səni öz şövkətimə".
Ölüm vaxtı o kəsəyən tapdı can,

Getdi öz yerinə çox şadü xəndan.
Ömrü dövlətinə onun hər zaman,
Canü dildən oldu orda sənaxan.
Neyləyim ki, qəza eylədi tədbir,
Bir müddətdən sonra o dərrəndə şir –
Gəzərkən o çölü o mərdanə şir,
Düşüb bir tələyə oldu dəstgir.
Nə qədər var idi canında qüvvət,
Çox çalışdı, amma tapmadı fürsət,
Çalışmaqdan tökülmüşdü dırnağı,
Çünki möhkəm idi tələnin bağı.
Xülasə, tələdə oldu dəstgir,
Qəza o heyvanı eylədi əsir.
Bənd olub tələdə, olmadı azad,
Nərə çəkib daim edərdi fəryad.
Tutdu o səhranı onun sədası,
Doldurdu o çölü onun qovğası.
O tələyə yaxın haman kəsəyən,
Tutmuşdu bir mənzil, qılmışdı vətən,
Bu dadü fəryadı orda eşitdi,
Öz-özünə xeyli təəccüb edib,
Bildi ki, bu nərə gəlir o şirdən,
O heybətli, şücaətli əmirdən.
Sür'ət ilə özün yetirdi ora,
Gördü ki, ağası düşübdü tora.
Dolandı o şirin solun, həm sağın,
Yaladı üzünü, öpdü ayağın.
Ərz qıldı ona: "Eyləmə fəryad,
Bu baladan səni edərəm azad.
Çox nalə eyləyib qılma ahü zar,
Bu tələdən səni edərəm kənar.
Əgərçi zəifəm, yoxdur qüvvətim,
Tələ açmaqlığa çatar qüvvətim,
Kəsərəm nə olsa dişim ilə mən,
Onun üçün mənə deyərlər kəsəyən.
Yırtıb dağıtmaqlıq irsdi sizə,
Qırıb açmaqlıq da peşədi bizə".

Xülasə, tələnin bağın kəsəyən,
Dişi ilə açıb, göstərdi bir fən,
Hər bir bəndin o tələnin sərasər,
Bir-birindən açıb dağıtdı yeksər.
Çün tələ dağılıb oldu tarümar,
Şir özünü gördü ölümdən kənar.
Çıxdı çün tələdən sağü səlamət,
Kəsəyənə qıldı xeyli mərhəmət.
Bu sözü Həsəndən, gözüm, eylə yad,
Olarsan hər iki dünyada dilşad.
Cavanmərd odu kim, fürsət zamanı,
Bağışlasın bir müqəssir olanı.
Bacardıqca yaxşılığı unutma,
Yaxşını tərk edib yamanı tutma.
Bir kəsə yaxşılıq edəsən əgər,
Yəqin eylə, sənə əvəzi yetər.
Sən yaxşılıq elə hər kimsə ola,
Xəyal etmə bu fəqirdi, o gəda.
Demə: "Var qüdrətim, iş tapıb rəvac,
Dəxi bu kəslərə nədir ehtiyac".
Bir məsəl var oxur onu hər kişi:
"Şahın qaraçıya düşər bir işi".

## ƏFİ İLAN VƏ CAVAN OĞLAN

Bahar vaxtı bir çox gözəl novcəvan,
Gəzərdi səhranı xərrəmü xəndan.
Yetişdi bir yerə xeyli səbzəzar,
Xoşlayıb oranı gəzdi bavüqar.
Qəzadan o yerdə bir əfi ilan,
Otların içində olmuşdu pünhan.
O zalımdan bu biçarə bixəbər,
Haman sərmənzilə eylədi küzər.
Qəflət edib qoydu ayağın üstə,
Basladı ilanı, eylədi xəstə.

Çün ilanın o dəm incidi canı,
Dönüb haman ləhzə saldı oğlanı.
O zalımın zəhri oldu kar əgər,
Vuran saət ona eylədi əsər.
Gül kimi bədəni oldu çak-çak,
Binəvanı etdi aqibət həlak.
Oğlanın atası oldu xəbərdar,
Çox nalə eyləyib qıldı ahü zar.
Götürüb əlinə aldı baltanı,
Axtarıb bir yerdə tapdı ilanı.
Qüvvət ilə vurdu baltanı ona,
Üzüb quyruğunu saldı bir yana.
Qaçıb girdi bir deşiyə o ilan,
Haman yerdə qıldı özünü pünhan.
Kişi gördü çıxdı düşməni əldən,
İstərdi eləsin orada bir fən.
Yavaş-yavaş gəlib ilana sarı,
Tərk etdi naləni, fəryadı, zarı.
Deyərdi ilana bu kunə süxən:
"Bilmərrə deyiləm mən sənə düşmən.
Bir oğul ziyanı sən vurdun mənə
Əvəzində dəydi bir balta sənə.
Bundan sonra lazım gəlir bizlərə,
Dostluq edib gəzək, gedək hər yerə.
Yaxşısı budur ki, mehriban olaq,
Bir yerdə oturub-durub, dolanaq.
Gətirmişəm budur hərirə sənə,
Gəl ye hərirəni, dua qıl mənə.
Mən sənə mehriban, sən mənə yar ol,
Nə xof eylə məndən, nə dilfikar ol,
Nə mən səndən qorxub çəkim əziyyət,
Yatıb-durmaq mənə olmasın zəhmət".
Bu sözləri ilan ondan eşidib,
Öz-özünə orda bir xəyal edib,
Dedi ona: "Gözüm, çox çəkmə əzab,
Bu növ sözlərdə görmürəm səvab.
Bu günə, hiyləyə qulaq tutmaram,

Baltanın zərbini mən unutmaram.
Düşmənlikdə, gözüm, dostluq olarmı?
Tökülən su bir də qaba dolarmı?
Hər görəndə quyruğumu bu qərar,
Çalacağam, şəksiz, səni aşikar.
Düşdükcə yadına o gözəl oğlan,
Öldürmək istərsən məni bigüman.
Nə səndən gedəcək oğul firqəti,
Nə məndən gedəcək balta zərbəsi.
Bundan sonra bizə budur yaxşıraq,
Sən gəz məndən uzaq, mən səndən iraq”.
Həsənin bu sözün, oğlum, eylə guş,
Yaxşı sözdür, hərgiz etmə fəramuş.
Əgər vura bir kəsə bir kəs zərri,
Ölənədək ondan getməz əsəri.
Deyiblər bu sözü keçən kişilər:
“Düşmənlikdə dostluq olmaz müxtəsər”.

## NƏSİHƏTNAMƏ

(*Kibr və lovğalıq haqqında*)

Ey cani-pədər, əziz fərzənd
Ey nuri-bəsər, məhi-xirədmənd,
Ey neyyəri-bəxtimin şüası,
Ayineyi-qəlbimin səfası,
İqbalıma vəslətindi bais,
Ənduhimə firqətindi bais,
Sən baği-həyatımın gülüsən,
Gülzari-ümid bülbülüsən.
Sən mayeyi-böhcəti-pədərsən,
Sən nəxi-dilimdə xoş səmərsən.
İstərsən əgər olam sərəfraz,
Əflakə səninlə ta edəm naz,
Xəlq içrə olam əzizü dilşad,

Ənduhü qəmü bəladən azad,
Qıl könlümü şad, eylə xürsənd,
Ver guş mənə, eşitgilən pənd.
Nuş eylə bu pəndi-sumənd i,
Ol cümlə cahanın ərcüməndi.
Pənd ilə olar kişi müəzzəm,
Aləmdə olar əzizü əkrəm.
Fərzanə odur, gözüm, cahanda,
Hər bir sözə kuş edən zamanda,
Huş ilə o pəndi nuş etsin,
Sidq ilə onun dalınca getsin.
Xasə ona validi verə pənd,
Ta öz vələdin edə hünərmənd.
Yad eylə bunu ki, nəfi çoxdur,
Bilmərrə sənə ziyanı yoxdur.
Bu nüktəni eyləmə fəramuş,
Ta izzətə ol cahanda həmduş.
Olsan bu nəsihətə səzavar,
Dövlət sənə daima olar yar.
Əlqissə, gözüm, gözümdəki nur,
Olma özünə cahanda məğrur,
Kibr ilə vücudunu bəzətmə,
Heç bir kəs ilə qürur etmə.
Aqil də olarmı kibrə mail?
Xəlq içrə özün edərmi zail?
Fərzanə olan edərmi nəxvət?
Divanə qılar bu şüğlü sənət.
Üftadəliyi müdam kəsb et,
Üftadələrin yolun tutub get.
Kibr ilə olan edər özün xar,
Ondan uzaq ol, yamandı, zinhar.
Hər kimdə ola qüruru nəxvət,
Peyvəstə çəkər bəlayi-töhmət.
Əhli-hükəma edibdi məlum,
Bu nüktəni hər vərəqdə mərqum.
Hər kimsə ki, oldu kibrə rağib,
Divanəliyə olubdu talib.

Kibr ilə olan olubdu mənkub,
Dünyada özün edibdi məğzub.
Məndən bu nəsihəti sən et kuş,
Sal hifzinə, eyləmə fəramuş.
Bu fərdi həmişə əzbər eylə,
Daim oxuyub mükərrər eylə.
Kibr eyləmə xəlqə, olma məğrur,
Kibr ilə cahanda olma məşhur.

## ELM HAQQINDA

Ey rövzeyi-izzətim təzərvi,
Ömrüm bağının xocəstə sərvi,
Ey əxtəri-bürci-niknami
Vey gövhəri-məxzəni-girami,
Ey abi-həyati-cavidani,
Vey xizri-təriqi-zindəkani,
Ey cismdə taqətü-təvanım,
Arami-dilim, qərari-canım,
Oğlum, bilirəm ləyaqətin var,
Təhsili-ülumə rəğbətin var.
Bir ləhzə göz aç, gözüm, nəzər qıl,
Ta mədrəsi-elmə bir küzər qıl.
Kəsb eylə ülum, olma qafil,
Ta fəzlin ola onunla hasil.
Oğlum, səbəbi-kəmaldır elm,
Arayişi-hər-məqaldır elm.
Elmin əsəri ğizayi-candır,
Asayişi-ləzzəti-rəvandır.
Sərçeşmeyi-iftixardır elm,
Bir ləlöyi-şahvardır elm.
Elm ilə tapıb həyatı insan,
Elm oldu cahanda ziynəti-can.
Elm ilə olur kimi müzəyyən,
Bilmək, bəli, xoşdu bilməməkdən.
Hər bir sifətə səbəb olub elm,

Elm əhlinə ümmü əb olub elm.
Sərmayeyi-izzətindi bilmək,
Asari-bəlağətindi bilmək,
Elm ilə olarsan əfzəli-xəlq,
İxlasi-dil ilə mayili-həqq.
Elm ilə xudaşünas olarsan,
Aləmdə əzizi-nas olarsan,
Elm ilə, gözüm, səfa taparsan,
Elmü ədəbü həya taparsan.
Bilmək kişini edər sərəfraz,
Elm ilə olar cahanda mümtaz.
Hər kimsə ki, elmə yar olubdur,
Dünyada zilliqtidar olubdur.
Elm əhli əgər ola gədazad,
Elm eylər onu əzizi-əfrad.
Əgər eyləsə əhli-elm göftar,
Ta nitqə gəlib ola şəkərbar,
Göftara gələn zaman olar lal,
Dövründə nə qədər var cühhal.
Əlqissə, əzizi-mehribanım,
Ey tuti-rəvani-natəvanım,
Cahil ölü tək olar nəzərdə,
Aləmlə əgər olsa bir həzərdə.
Dövlət gedər əldən, elm getməz,
Elm əhli özün zəlil etməz.
Hifz eylə, gözüm, nə varməndə,
Mən tək olusan axırda sən də.
Olmuşdu fələk həmişə yarım,
Dövlətlə keçirdi ruzigarım:
Amma nə deyim ki, qıldı gərdun,
Az vəqtdə o dövləti digərkun.
Hərçənd ki, dövlət oldu pamal,
Bir həbbə əlimdə qalmadı mal.
Səd şükr xudayi-girdikarə,
Ol sahibi-izzü iqtidarə,
Bir cüzi ki, elmü fəhmü idrak.
Vermişdi mənə o iyzədi-pak,

Onlar mənə oldular havadar,
Hər yerdə ənisü yarü qəmxar.
Yar oldu mənimlə öz savadım,
Xəlq içrə dəxi ucaldı adım.
Könlüm üzünə qübari-zillət –
Bir zərrəcə vermədi küdurət.
Kəsr olmadı şənu-şövkətimdə,
Nəqs olmadı izzü-hörmətimdə.

## YOLDAŞLIQ BARƏSİNDƏ

Ey gülbüni-gülşəni-ümidim,
Fərzəndi-mügərrəmü rəşidim,
Ey sərvi-kəmali-bağі-behcət,
Vey qönçeyi-gülüstani nüzhət,
Gördükcə səni sürurum artır,
Baxdıqca sənə gözüm tapır nur.
Oğlum, sənə mən nə qılsam izhar
Hifz eylə, onu unutma zinhar.
Bədəsl ilə hərgiz olma yoldaş,
Ta olmayasan bəlayə qardaş.
Naəhl ilə olma yarü həmdəm,
Ta verməyə üz səninlə bir qəm.
Bədxasiyyət ilə yar olma,
Ta zarü zəlilü xar olma.
Bədxülq ilə söhbət etmə mütləq,
Salma özünü bəlayə nahaq.
Bədxülq ilə aşina olanlar
Axırda çəkib böyük ziyanlar.
Hər bir yetənə rəfiq olma,
Hər nakəs ilə şəfiq olma.
Eylər səni bəd rəfiq bədnam,
Axırda verər əziyyəti-tam.
Bədxülq ilə çox müsahib olma,
Bədxasiyyətə raqib olma.
Bədxülqün işi olur mərarət,

Bədxasiyyətin işi şərarət
Hər kim ola bu sifətdə mosuf,
Bu ism ilə xəlq içində məruf,
Hər bir kəsi bunlar eyləsə yad,
Fəryad çəkib o kəs edər dad.
Ondan özünü edər kənarə,
Ta düşməyə dərdü-ahü zarə.
Bu əhl ilə, ey gözüm, oturma,
Bunlarla gəzib, oturma, durma.
Bu əhl ilə müttəfiq olanlar
Onlar tək olar o da ziyankar.
Əzbəs ki, rəfiq olub xətakar,
Bəs əhli-xəta bəsi dilazar.
Onda nə görüb edibdi adət,
Axırda səmər tapıb xəsarət.
Yoldaşın əgər ola bədəfal,
Bədqəlbü sitəməgərü bədəhval,
Sən də olursan axırda bişək,
Xəlq içrə yaman kişi olar tək.
Hər kim səni görsə onlara yar,
Söylər səni cümlə mərdümazar.
Dünyada, gözüm rəfiq çoxdur,
Amma onların vəfası yoxdur.

## HÜSEYN ŞƏMKİRLİ
## (1811-1891)

### DANIŞMA

Qafil könül, bir məclisə varanda,
Ver qadağa acı dilə, danışma.
Hərcayı söyləmə, hərcayı demə,
Laf eyləyib gülə-gülə danışma.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın,
Kəlmə çıxart, şirin cana yayılsın,
Qaldırıb səsini zilə, danışma.

Sözün mana tutma azğın axmağın,
Xoşlanılmaz aralıqdan çıxmağın,
Layiq deyil başa qaxınc qaxmağın,
Öz eybini bilə-bilə danışma.

Yazıq Hüseyn, əhdin yetər yerinə,
Könül bağla aşıqların pirinə.
Çək sözünü həqiqətə, dərinə,
Hər qədirbilməzlə belə danışma.

### YÜYÜR

Qıs vurun, qoçaqlarım,
Ay it, canavara yüyür!
A gədə, Novruz Alı,
Çıx kəndə xəbərə, yüyür!
Hardasan Mırış Alı,
Sən də bulaqlara yüyür!
Ağrın alım, uzun Bayram,
Günüm oldu qara, yüyür!

Subayların amanatı,
Bozdarı beldən qoygunan.
Açgılan zəncirini,
Toplanı əldən qoygunan.
Ot gətir, ələf gətir,
Pələşi gendən qoygunan,
Amandı daqqa Xəlil,
Sən də bir kənara yüyür!

Quduz dəymiş canavarlar,
Görün nə tufan elədi,
Öldürdü yeddi qoyun,
Qanına qəltan elədi.
Dağıtdı qomral qoçu,
Bilin yəqin qan elədi.
Toplan tutdu canavarı,
Dərisin şan-şan elədi.
A gədə Əhməd Alı,
Çöllərə, çallara yüyür.

Yağış yağar, şimşək oynar,
Görün göy necə guruldar.
Yatıbdı tənbəl Qulu,
Axşamdan bərk xoruldar.
Bir kərə qoçdan ötəri,
Bax Məhəmməd nə zarıldar,
Ağlamaqdan fayda yoxdu,
Dur, uzunqulaqlara yüyür.

O quduz dəymiş canavar,
Qoyunlara saldı talan.
A gədələr, düz danışın,
Sözünüzdə vardır yalan.
İt uşağı, qudurubsuz,
Yuxularmı çoban olan?
Şahqulu çox yaxşı qalxdı,

Boğazına keçdi palan.
A gədə Şahqulu, aman,
Döşlərə dübara yüyür!

Erkəcləri yoxlayın.
Ala şişək, xarı gedib.
Ağ seyiz, qara seyiz
Göy təpə yuxarı gedib.
Göy Sadıx zehinlidi,
Deyir, qoyun yarı gedib.
A gədə, Göy Sadıx,
Sən də bu yanlara yüyür!

Beş keçi, on beş qoyun,
Kənddə bir övdən tapılıb.
Yeddi toğluluq qoyun da
Yağlı güneydən tapılıb.
On beş toğluluq qoyun
Qarlı güzeydən tapılıb.
Vəsf elər Aşıq Hüseyn,
Belə Bəyçoban tapılıb.
Yüz manat nəmər verdi,
Min atı, Dilbara yüyür!

# AŞIQ ƏLƏSGƏR
**(1821-1926)**

## VARIYMIŞ

Nələr gördüm, gəşt elədim dünyanı
Hər bir işin qilü-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış.

Haqq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun.
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış.

Qayım ağa, niyə fikrə dalırsan?
Yoxsa ki, özündən hesab alırsan.
Sayılmaz mehmana keçə salırsan,
Saydığın qonağa xalı varıymış.

Çox gəzmişəm, az görmüşəm danəndə,
Deməliyəm sözün yeri gələndə.
İnsan üzün görməyəsən dönəndə,
Açılanda xoş camalı varıymış.

Ataş alıb çox da yanma, Ələsgər,
Sənətindən heç usanma, Ələsgər,
Öz-özünə qubarlanma, Ələsgər,
Dünyanın Urustam-Zalı varıymış.

## QALDI Kİ, QALDI

Durur nişanəsi Ağrı dağında,
Nuhun qiyaməti qaldı ki, qaldı.
Yarı tərəqqidi, yarı tənəzzül,
Çoxunun qisməti qaldı ki, qaldı.

Özü öz işin bilməyən nadan
İbrət eləməzmi şahdan, gədadan?!
Hatəm nə müddətdi gedib dünyadan,
Bizə səxavəti qaldı ki, qaldı.

Ələsgər dönmədi öz ilqarınnan,
Biri xilaf deyil yüz ilqarınnan,
Sazınnan, sözünnən, düz ilqarınnan
Ellərdə söhbəti qaldı ki, qaldı.

## QALMADI

Qərinələr keçdi, dövran dəyişdi,
Pozuldu qurqular, mizan qalmadı.
Zamana bəd gəldi, insan bic oldu,
Seyiddə, mollada iman qalmadı.

Yığılın danışaq, qəlyan çəkənlər,
Bostan becərənlər, əkin əkənlər,
Ananov kağıza tütün bükənlər,
Qurtardı tənbəki, saman qalmadı.

Necə oldu Serbiya, Çornuqoriya?!
Əl-ayaq altında itdi İtalya,
German bomba atdı, qan oldu dərya,
Qırıldı, dünyada insan qalmadı.

Bağlanıb zavodlar, kəsilib qəndlər,
Qaynamır samovar, artıbdı dərdlər,
Niyə ağlamasın yazıq arvadlar;
Sögüldü döşəklər, yorğan qalmadı.

## DÜNYADA

Bir ay yarım nobahardan gedəndə,
Könül gəşt eyləyib gəzə dünyada.
Sirrini verməynən düşmənə, dosta,
İnanmaynan hər cür sözə dünyada.

Əcəl gəşt eyləyib göydən enəndə,
Hayıf, cavanları salı kəməndə,
Hər zaman bunları gözüm görəndə,
Köhnə yaram olur təzə dünyada.

Əzrayıl bir kəsdi, görünməz gözə,
Nə ağıla baxır, nə də ki sözə,
İndi də gözünü zilləyib bizə,
Tutub mən fağırı qəza dünyada.

Gecələr qoynuma girən kimsənə,
Gizlin sirlərimi bilən kimsənə,
Öləcəkdi, kimdi qalan kimsənə,
İstəyir yaşasın yüzə dünyada.

Bir insan ki, haqq dediyin bitirsə,
Hər məclisdən bir mərifət götürsə,
Ata-ana sözün yerinə yetirsə,
O, yəqin ki, çəkməz cəza dünyada.

## GƏRƏKDİR

Aşıq olub, tərki-vətən olanın,
Əvvəl başda pür kamalı gərəkdir.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdir.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürüb, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdir.

Dediyi sözlərin qədrini bilə,
Gəlməsindən ləl, gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdir.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyliyə, utana,
Saat kimi meyli haqqa dolana,
Həqiqi qəlbində yolu gərəkdir.

Ələsgər haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdir.

## GÖRMƏDİM

Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim.
Söyütdən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihuda kollara gülüstan dedim,
Əbəs yerə bivəfaya can dedim;
Zəhmətin çox çəkdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli soyuna,
Aşiq oldum simasına, boyuna,
Hayıf ki, kamalda dərin görmədim.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın rələt.
Şahiddə iman yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim.

## DAĞLAR

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən abı-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar.

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana.
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli-nalalı, dağlar.

## DÜNYADA

Varlıynan dost olub, yoxsula gülmə,
Çox da havalanıb coşma, dünyada.
El səni istəyib, qabağa çəksə,
Ağır ol, alçağa düşmə dünyada!

Dərdini bölüşdür qədir bilənnən,
Vəfalı dost olmaz üzə gülənnən.
Bir adam ki "sən öl" desə yalannan,
Onun körpüsündən keçmə dünyada.

Bu sözü bəyənər bir arif, əyyar,
Bədəsil kimsəyə yapış, nə yalvar.
Qonşuya söyləyib aləmə yayar,
Sirrin seyraquba açma dünyada.

Yaxşı oğul əkər bir yaxşı ata,
Ölüncə heç kəsə yetirməz xata,
Yeri gəlsə, xeyir verər elata,
Onun arxasından qaçma dünyada.

Ələsgər, söyləyir sözün adınan,
Arif məclisində hər isbatınan.
Bir dost sənlə olsa, sirri yadınan,
Onu düşmənindən seçmə dünyada.

## EYLƏR

"Can" deməklə, candan can əysik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada,
Abad könlü yıxar, pərişan eylər.

Nakəs adam danışıqda saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nütfədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

Bir gün Mansız qalxar, gəlir toxmaq-yay,
Dağlara atmağa eylər haqq-say,
Seçilməz məhşərdə nə şah, nə gəday,
Xaliqiləmyəzəl haqq divan eylər.

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər kanı.
Mənim sözüm doğru yoldan çıxanı,
İnşallah, qaytarar düz insan eylər.

Mən istərəm alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola,
Diliynən zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər.

## ÇIXIBDI

Qoçular, quldurlar qatar taxırlar,
Fəqir-füqəraya yan-yan baxırlar,
Kimi istəsələr vurub yıxırlar,
Beşatanın çataçatı çıxıbdı.

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar, bəndə,
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdı.

Gəzirlər havalı ağalar, bəylər,
Çalışır qan-tərdə naxırçı, nökər.
Müxtəsərin deyir Aşıq Ələsgər,
Kovxanın, kattanın zatı çıxıbdı.

## SEYİD ƏZİM ŞİRVANİ
## (1835-1888)

### MİRCƏFƏRƏ XİTAB

Cəfər, ey qönçeyi-gülüstanım!
Ey mənim bülbüli-xoşəlhanım!
İki yüz yetmiş üçdə, bəd həzar,
Mötədil fəsl idi, zəmani-bahar.
Səni həq mən fəqirə qıldı əta,
Kəbeyi-qəlbimə yetişdi səfa.
On beş ildir ki, ey ətayi-əzim,
Sənə adab eylərəm təlim.
Yetibən əqlə sərfəraz oldun,
Dəxi məndən ki, biniyaz oldun...
Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get.
Sənə bürhan deyil təriqi-pədər,
Gör nə yol getdi zadeyi-Azər.
Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan get, əhli-ürfan ol.
Demirəm sünnü ol və ya şiə,
Tək hədəf olma tiri-təşniə.
Dilini saxla lə'nət etməkdən,
Qeyri-şəxsə şəmatət etməkdən...

* * *

Ey gözüm nuru, ey ətayi-xuda,
Sənə Şirvanda oldu nəşvü nüma.
Lilləhül-həmd, xitteyi-Şirvan
Saniyi-İsfəhandır əlan.
Əgərçi viranə oldu zəlzələdən,
Çıxmayıb mərifət bu mərhələdən.
Vardır hər guşədə yüz əhli-kəmal,
Hər biri əhli-elmü sahibi-hal.
Xassə kim, abu xakinin əsəri

Qabili-tərbiyət qılır həcəri.
Xassə kim, padşahi-kişvəri-rus
Edəli təxti-ədlü dadə cülus,
Eyləyib tərbiyət kəmal əhlin,
Gətirib halə hər məhal əhlin.

## ÖYÜD

Ey oğul, var cahanda çox molla,
Güzəranı üçün edir qovğa.
Qeyrəti-millәti bəhanə qılır,
Gündə xalq içrə yüz fəsanə qılır,
Əhli-dünyayə eyləyir lə'nət,
Özü dünyayə eyləyir rəğbət.
Daima əğniyayədir meyli.
Əhli-fəzlin olubdu sərxeyli.
Füqəranı görəndə nifrət edər,
Ona bikarəlikdə töhmət edər.
Əğniya-gəlsə bəzminə o zaman,
Güli-həmra kimi olur xəndan.
Bir qəni eyləsə əgər üsyan,
Saz edər səhhətində yüz bürhan.
Filməsəl, bir qəni əgər içsə şərab,
Ona təcviz üçün açar min bab.
Görsə kim bir fəqir edib üsyan,
Lən edər ol fəqir üçün hər an.
Özünün həddən ötdü üsyanı,
Məhv edibdir füsuni-şeytanı
Eyləyirsən məzəmməti-hər kəs,
Niyə öz nəfəsini unutdun bəs?
Alim öz elminə edəydi əməl,
Düşməz idi bu qədr dinə xələl.
Rəsmdir, alim olsa əhli-fəsad,
Aləmi ol fəsad edər bərbad.
Uyma mollayə, olma çox da avam,
Sanma təhtülhənək, qurubdar dam.

Baxma təsbihə, olma divanə,
Xam olan quşlara gərək danə.
Sanma alnında səcdədəndir əsər,
Gecə qoymuş həcamət ol kafər.
Xatəmindən demə Süleymandır,
Divdir, olləin şeytandır.

## MÜCTƏHİDİN TƏHSİLDƏN QAYITMASI

Müxtəsər, bir zaman çıxar bu xəbər
Ki, gəlir ol cahani-fəzlü hünər.
Pişvazə çıxar səğirü kəbir,
Ki, bu gün naibi-imam gəlir,
Yerbəyerdən o qövmi-niksifat;
Üzünü görcəyin çəkər sələvat.
Tökülür xalq sol və sağından,
Öpələr ta ki, əl-ayağından.
Ehtiram ilə şəhrə varid olur,
Yeddi gün məclisi dolur, boşalur.
Kəsilir hər tərəfdə qurbanlar,
Açılır babi-lütfü ehsanlar.
Neçə əyyam olur ziyafətlər,
Eyləyir əhli-şəhr də'vətlər.
Fikr edir kim, o qövmi-fərzanə
Müctəhidçin gərəkdi bir xanə.
Bir də gördün ki, eyləyib tədbir,
Bir gözəl xanə etdilər təmir.
Yenə söylər o qövmi-danişvər,
Müctəhidçün gərəkdi bir həmsər.
Bir gözəl qız nikah edib anə.
Mələki əqd edillə şeytanə.
Ta ki, məqsuduna yetişdi imam,
Məscidə naz ilə edər iqdam.
Özünə əvvəl eyləyir zivər,
Bir gəlin tək ki, axtarır şövhər.

Gözünü sürmədən edir məkhul,
Bir zaman zinətə olur məşğul.
Üzünə eyləyir gülab əfşan,
Barmağında nigini-ləlnişan.
Başına durdu qoydu əmmamə,
Geydi nəleynini o əllamə.
Var boğazında səxt təhtülhənək,
O qədər bərk çəkib olub döyənək.
Çiyninə saldı bir lətif əba,
Əlinə aldı bir zərif əsa.
Başda əmmamə, saqqalında həna,
Barmağında üzük, əlində əsa.
Var ayağında cüft nəleyni,
Bil ki, peyğəmbərin budur qaynı.
Sağ-solunda qalıbdı çeşmi müdam
Ki, görək kim verir imamə səlam.
Bu gün evdən çıxıb namazə gəlir,
Sufiyi-safi pişvazə gəlir.
Məscidə naz ilə olur daxil,
Girdi mehrabə alimi-fazil.
Uydular xəlq, imam qıldı nəmaz,
Etdi min gunə həqqə razü niyaz.
Edibən ta namazını itmam,
Minbərə vəz üçün edər iqdam.
Minbər üstündə ol fələkrüfət,
Oxur ahəstə bir uzun xütbət.
Xütbədən sonra bir gözəl ayə,
Olur ol xoşzəbanə sərmayə.
Keyyühənnas, sirdir bu dəqiq,
Hikməti şərə etmişəm tətbiq.
Sədrim olmuş vəsi dəryadən,
Fəzlim artıqdı Molla Sədradən.
Bəhri-elmimdə, ey güruhi-bəşər,
Pak olan gövhəri-muradə yetər.
Yazmışam sərbəsər füruati,
Açmışam ğamizati-ayati.
Köhnə təfsirə vermişəm təğyir,

Tazədən yazmışam özüm təfsir.
Bir neçə səhv edibdi Beyzavi,
Olmuşam cümlə onlara havi.
Fəxri-Razi qərini-raz deyil,
Yazdığı rəmzlər təraz deyil.
Eyləyib səhv sahibi "Tibyan",
Ruhdan bixəbərdü "Ruhi-bəyan".
Etməyib fəth Molla Fəthullah,
Səhvi-vazeh yazıbdır ol gümrah.
Gah fələk, gah ərşdən danışır,
Bu sifət yüz çərən-pərən danışır.
Təmtəraqın görür o qövmi-əvam,
Söyləyirlər ki, etmiş elmi təmam.
Bu filan müctəhiddən əkməldir,
Şeyxül-islamdən bu əfzəldir.
Leyk bir parə mərdi-danişvər
Anlayıbdır ki, kənddə var nə xəbər.
Boş dəğar olduğun bilib dərhal,
Xofdan, leyk nitqin etmiş lal.
Bir deyən yoxdur, ey imami-şərir,
Edəcəksən nə vaxtadək təzvir?
Tutalım elmə olmusan vasil,
Bizə bu elmdən nədir hasil?
Hansı nadanı alim etdin sən?
Hansı bimarı salim etdin sən?
Hansı kuri sən etmisən bina?
Hansı əmvatı eylədin ehya?
Hanı islam üçün sərəncamın?
Yerə girsin o müctəhid namın!
Söylədin teleqramı elmi-bəlis
Ki, onu ixtira edib iblis.
Kari-şeytan dedin dəmir yolunu,
Xalqa etdin həram Dum pulunu.
Xaçpərəstlər təmam düşdü qabaq,
Tökülüb dalda qaldıq, ay sarsaq!
Aldı əhli-kitab dünyanı,
Şərh edirsən sən indi Qur'anı?!

Əhli-islam oldu xarü zəlil,
Baisi sənsən, ey imami-cəlil!
Sən bizi nəfə etmədin vasil,
Barı qoy özgə elm edək hasil.
Bizi bəsdir bu qədər aldatdın.
Dini dinarə hər zaman satdın.
Sən bilən elmi bilməyən yoxdur,
Səndən ələm uşaqlar çoxdur.

## MOLLA VƏ ÇOBAN

Bir çoban rast gəldi mollayə,
Görcəyin düşdü özgə sövdayə.
Kəsdi ol mollanın qabağını,
Qovzadı şəst ilə çomağını,
Dedi: – Ey mövtü mərk əsbabı,
Əhli-təzvirü mərdi-qullabı!
Dəli şeytan deyir ki, bir dəyənək,
Mollanın zolla başına, zirək!
Dedi molla ki, ey çobani-dəğəl,
Dəli şeytan sözünə etmə əməl.
Adəmi ol çıxartdı cənnətdən,
Qıldı məhrum nazü-nemətdən.
Əhli-təzvirdir o şumü ləin,
Həq buyurdu: "Ləküm ədüvvi mübinə".
Qövli-qəflətdən ictinab eylə,
Əqlə gəl, taət et, səvab eylə!
Dedi: – Şeytan yenə deyir ki, mana
Eylə mollayə iki quzu əta.
Çün eşitdi quzu adın molla, –
Dedi: – Əhsən bu qövlə, namxuda!
Gah bir bax sözünə şeytanın
Ta ki, rahət ola dilü canın.
Seyyida, gərçi sən də mollasən,
Özüvü etmə böylə rüsva sən.

Olma təmma, get qənaət qıl,
Nəfsi-şeytanını məlamət qıl.
İmtahanxanədir sərayi-sipənc,
Bu tilismatda nihandır gənc.

## MÜAVİYƏNİN QONAĞI

İbn-Süfyanə Şamdə bir şəb
Mehman oldu bir fəsih ərəb.
Quzu büryani düzdülər xanə,
Ol ərəb əkl edirdi şiranə.
Quzunun parçalardı əzasın,
Sındırıb kəlləsin, qabırğasın.
Bunu çün gördü zadeyi-Süfyan,
Dünyanın Allahının neməti
Bir bəxilə deyib bir əhli-füsua
Bir yuxu görmüşəm, de xeyr olsun.
Dedi ki, xeyr ola yuxun, de görək,
Dedi: gördüm yuxuda sizdə çörək.
Düşübən iztirabə ol sərsaq,
Gedib öz övrətinə verdi təlaq.
Olmağa qazi əmrdən agah
Dedi: bu övrətə nə idi günah?
Deyib ol şəxs: əyyühəl-qazi,
Necə bu əmrə mən olum razi?!
Yuxuda bir kişi görüb çörəyim,
Durmur üstümdə indi də ürəyim.

## SADƏLÖVHLÜYÜN TƏNQİDİ

(*Oğluma nəsihət*)

Ey oğul, olma çox da sadəzəmir,
Ta sənə mərdum eyləyə təzvir.
Xəlq olub məkrü hiylədə kamil,
Sadəlövh olma sən də, ey qafil.

Zirək ol, yaxşıya yaman olma,
Xalqdan çox da bədgüman olma.
Hər sözü yoxla, eyləmə bavər,
Dari-dünyadə azdı doğru xəbər.
Çoxdu dünyadə mərdi-hiyləşüar,
Zahiri sadədil, özü əyyar.
Məsti-layəqil olma, hüşyar ol,
Xalqın övzainə xəbərdar ol.
Necə kim, bu hekayəti-ziba
Sənə bu macərani eylər əda.

### XAN VƏ DEHQAN

Bir əkinçi gedirdi məstanə,
Yolda ol rast gəldi bir xanə.
Xanı görcək yazıq baş endirdi,
Gör onu xan nə gunə dindirdi.
Dedi: – Ey it, kənarə çıx yoldan!
Nə çıxırsan donuz kimi koldan?
Gördü bu iltifatı çün xandan,
Zövqdən oldu gül kimi xəndan.
Evinə daxil oldu xürrəmü şad,
Övrəti onda gördü vəcdi-ziyad.
Dedi: – Ey qaşı bir hilali-mübin,
Xirmənin üstə xuşəçin Pərvin,
Məzrəi-imtizacə danəfəşan,
Sünbülə şəkli sünbülündən əyan.
Nədi bu behcətü sürurə səbəb,
Tez bəyan et, görüm nədir mətləb?
Dedi: bəylər yanında xani-kübar
Yoldan ikram ilə edirdi güzar.
Dayanıb xanə eylədim kürnuş,
Məni dindirdi xani-sahibhuş.
Dedi: – Bu olmaz, ey büləndəxtər,
Səni xan dindirə, edim bavər?
Nə deyib xan sənə, bəyan eylə,

Dürci-ləl aç, gühər fəşan eylə.
Atılıb düşdü bir zaman dehqan,
Həvəsi sakit oldu, qıldı bəyan.
Dedi ki, xan dedi: – Çıx it yoldan!
Nə baxırsan donuz kimi koldan?
Bizə xan iltifatı peydadır,
Bir səadətdi, feyzi-üzmadır.
Bizə bu vəch iftixar olsun,
Nəsl-binnəsl yadigar olsun.

## ALLAHA RÜŞVƏT

Həmədan ölkəsində, xud ələn,
Vardı bir qəryə, xalqı çox nadan.
Necə ki, bizdə qəyreyi-Lahic,
"La" bəmənayi-hiç, "hiç" də hiç.
Bir il ol qövmə qəth olur baran.
Ki, qalırlar səfilü sərgərdan.
Edir ol qövmi-zar cəmiyyət
Ki, gərək tanrıya verək rüşvət.
Ta bizə göydən endirə baran,
Bir qədər simü zər qılıb saman,
Bağlayıb dəstmalə simü zəri.
Verdilər kətxudayə simü zəri.
Kətxuda azim oldu mövlayə,
Bizi rəhmətdən eyləmə növmid,
Qifli-məqsudə şəfqətində kilid.
Bildi kim, əqli yoxdu, müxtəsəri,
Aldı, etdi qəbul simü zəri.
Dedi: – Oldu qəbul rüşvətiniz,
Yaxşı niyyətdi, qorxma, niyyətiniz.
Bu gələn cümə biqüsuru güman,
Sizə inzal eylərəm baran.
Şad olub, gəldi ol fəqir, səhər,
Verdi bu macəranı xalqa xəbər.

Dedi: – Gördüm xudayi-ərşi-bərin,
Əlinin üstə Cəbrəili-əmin,
İki Əzraili yanında əyan,
Tizçəngalü ahənin dəndan.
Görcəyin səcdə eylədim bünyad,
Eylədim rüşvətimi pişnəhad.
Əgərçi bir töhfeyi-mühəqqər idi,
Leyk ikram ilə qəbul elədi.
Ruzi-cümə o mənbəyi-ehsan,
Bizlərə vəd eyləyib baran.
Əz qəza, ruzi-cümə yağdı yağış,
Mürtəfe oldu seyl yeddi qarış.
Qəryə heyvanları həlak oldu,
Xalq tufanla zəhrəçak oldu.
Dedilər: – Ol xudayi-biminnət
Harda görmüşdü min tümən rüşvət?
Pulu çox gördü, eylədi ifrat,
Deyəsən ki, atıbdır həbbi-nişat.

## SADƏLÖVH NÖKƏR

Seyyida, olma axmaq ilə yar,
Ta səni axmaq etməsin zinhar.
Belə təqrir edibdir əhli-bəyan
Ki, müəssirdir ülfəti-insan.
Elə təsdiq kim, bu söz haqdır.
Axmağın yoldaşı həm axmaqdır.
Axmağın yoxdur əql ilə karı,
Bilməz axmaq səyaqi-göftarı.
Sən deyərsən ki, asimandır bu,
O deyər, ari, risimandır bu.
Guş qıl kim, bu xoş rəvayətdir,
Əgərçi bu müxtəsər hekayətdir:
Var imiş bir əmiri-sahibzər,
Ki, filan kimsə gəlsə dərgahə,

Məni səndən sual qılsa əgər,
Degilən evdə yoxdu, getdi səhər.
Başa düşdünmü mən deyən hali?
Yaxşı oldunmu sözə hali?
Dedi: – Düşdüm başa bunu, amma
Nə deyim gəlməsə bəs, ey mövla?

## QAZININ AXMAQLIĞI

Vardı bir qaziyi-bülənd cənab,
Əz qəza, bir gecə oxurdu kitab.
Gördü qazi yazıbdılar hikmət
Ki, ola kimsədə bu iki sifət:
Başı kiçik ola, uzun rişi,
Olur axmaq zəmanədə o kişi.
Dedi: – Ey vay kim, bu iki sifət
Tapılır məndə, bəs zəhi xiclət
O gecə pərt oldu əhvalı,
Sübh şagirdin eylədi hali.
Dedi şagirdi: – Ey imami-mübin,
Lilləhil-həmd kim, kəmalın var,
Çox gözəl adabü yaxşı halın var.
Bu deyil şerü fiqh məsələsi,
Gəlib əhli-qiyafənin həvəsi,
Çox yazıbdır bu növ əhvalat,
E’tibarı nədir onun, heyhat!
Dəfeyi-sani ol rəfi-cənab,
Oxuyurdu seçə evində kitab.
Genə ol sərgüzəştə oldu düçar,
Dedi: – Kim, xeyr, məndə var açar.
Etdi şagird vəsfimi zahir,
Mənə verdi təsəlliyi-xatir.
Məndə axmaqlığın əlaməti var,
Tez gərək çarəsin tapam naçar.
Başa əmmaməni böyük qoyaram,

Olu başım böyük, tutar aram.
Kəsərəm nisfini çü saqqalın,
Rəf olur qüssəsi bu əhvalın.
Olmasam mən əgər uzunsaqqal
Mənə axmaq deməzlər əhli-kəmal.
Bir qarış tutdu rişin ol mürtaz,
Axtarıb evdə tapkadı miqraz
Tutdu rişin çiraqə, odlandı,
Yandı saqqalı, həm əli yandı;
Qoydu əldən tamam saqqalı,
Sərbəsər yandı həm ruxi-ali.
Həmi yandırdı saqqalın, öz üzün,
Alov az qaldı ki, çıxarda gözün.
Yerbəyerdən üzü tuluqlandı,
Özünün axmaq olduğun qandı.

## NƏSİHƏT

Cəfər, ey ahuyi-biyabanım,
Ey-biyabani-dildə ceyranım.
Ey maralım, gəvəzni-xoşnigəhim,
Bürci-dildə camalı mehrü məhim.
Belə yazmış bu rəmzi danalər,
Əhli-idrakü əhli-mənalər.
Ki, cahan içrə var elə işlər,
Nəzərə ibtidadə xoş görünər.
Lakin axır verər nəticə yaman,
Buna şahiddir ayeyi-Qur'an.
Elə işlər də vardır, ey sərvər,
Sənə zahirdə çox yaman görünər.
Leyk axır verər nəticeyi-sud,
Olur ol əmr sülləmi-məqsud.
Huş ilə guş qılsan, ey güli-tər,
Bu hekayət sənə kifayət edər.

## MARAL HEKAYƏSİ

Var idi bir maral çax ətşan,
Gəldi bir çeşmə üstə ol heyvan.
Bu təmann ilə istədi, su içsin,
Su içib, çeşməsardən keçsin.
Çün nəzər qıldı suyə ol heyvan,
Baxıb öz əksin onda gördü əyan.
Gördü nazik ayağın, ol dilxun
Tutulub könülü, oldu çox məzun,
Gördü buynuzların fəxamətlə
Xatiri şad olub fəxarətlə.
Ki, bu əsnadə bir neçə səyyad
Düşdülər ol maral qəsdinə şad.
Binəva görcək onları qaçdı,
Leyk təqdir öz torun açdı.
Qovdu səyyadlər onu çox tul,
Olmadı leyk bir murad hüsul.
Oldular ol şikardən məyus,
Məqsədin nərdivanı, pilləkəni
Etdilər çox təəssüfü əfsus.
Gəldi nagəh qabağə birbişə,
Çox qalın bişə idi, pürrişə.
Ovçulardan o gün qurtarmağa can
Girdi ol bişə içrə ol heyvan
İlişib buynuzu budaqlavə,
Olmadı bəs nicatına çarə.
Tutdular ovçular ol heyvanı,
Düşdü dami-həlakətə canı.
Dedi: – Ol binəvayi-xatirdağ.
Ey həqarətlə baxdığım əl-ayaq,
Sən məni xoş nicatə çatdırdın,
Ölmüş idim, həyata çatdırdın.
Ey fəxarətlə baxdığım buynuz,
Övci-çərxə buraxdığım buynuz
Saldın axır məni həlakətə sən,
Vərteyi-möhnətü fəlakətə sən...

## SİÇAN BALASININ SƏRGÜZƏŞTİ

Bir ədəd bikəmal bəççeyi-muş
Ki, hənuz olmamışdı sahibi-huş,
Görməmişdi ziyayi-dünyanı,
Eyşü zövqü səfayi-dünyanı,
Bir zaman bixəbər anasından
Çıxdı tışqarı öz yuvasından.
Seyr edərdi o dağı, səhranı,
Hər tərəf eyləyib tamaşanı,
Ta ki, oldu o xürd salə əyan
Bir xoruz ilə bir pişik o zaman.
Pişiyi gördü oxşayır özünə,
Xoş göründü pişik onun gözünə.
İstədi eyləsin ona ülfət,
Leyk etdi xoruzdan vəhşət.
Qaçıban girdi öz yuvasına,
Macəranı dedi anasına.
Key olan rahəti-rəvanım ana,
Ey təni-zarıma təvanım ana,
Çıxmış idim bu gün səyahətə mən,
Leyk oldum düçar möhnətə mən.
Rast gəldim mən iki heyvanə,
Üz verib qəm məni-pərişanə.
Biri qayətdə xoşnüma idi,
Sanki məhbubi-dilrüba idi.
Bığlarında həcaməti var idi,
Biz tək əsli, nəcabəti var idi.
Eylədim ülfətinə çox rəğbət,
Amma dostundan eylədim vəhşət.
Ku-kələk açdı hərzə və pürmü,
Hər zaman eyləyirdi "quqqulu-qu".
Gah qanadlarını döyürdü yerə,
Hirslənəndə dönürdü şiri-nərə.
Vardı başında şöleyi-atəş,
Ürəyim ondan eyləyirdi qəşş.

Dedim: – Ey Tanrı, ver qanad mənə,
Ver bu bədbəxtdən nicat mənə.
Qaçıb ol xəsmdən məni-qafil
Şükr oldum yuvamıza daxil.
Olmasaydı əgər o pür pərü bal,
Mənə hasil olurdu yarə vüsal.
Dedi: – Ey novrəsideyi-madər,
Rahətü nuri-dideyi-madər.
Vəhşətin biməqamü bicadır,
O xoruzdur ki, rəğbət-əfzadır.
Ki, onun yoxdu bir ziyanı bizə,
Bəlkə var rahəti-rəvanı bizə.
Sübh vaxtında tez durub bannar,
Annayanlar işarəsin annar.
Sənə, amma o xoş gələn heyvan
Düşməni-muşdur mühili-zaman.
Ay bala, ondan ehtiraz eylə
O mühil ilə ülfət az eylə.
Cəfər, ey sərvi-bustani-pədər,
Güli-xoşətri-gülüstani-pədər!
Var elə şey ki, xoşnümadı sənə,
Leyk batində bir bəladı sənə.
Var elə şey ki, xoş gəlir gözünə,
Amma onun zadyanı var özünə.
Necə ki, "Dastani-bəççeyi-muş",
Oxusan eyləyər səni mədhuş.

## NƏSİHƏT

Cəfər, ey nuri-dideyi-Seyyid,
Qönçeyi-novrəsideyi-Seyyid.
İttifaq eylə dost ilə hər an,
İttifaq ilə əmr olur asan.
Dəhrdə etmə iftiraqə həvəs,
İttifaq ilə kəslər olmuş kəs.
Vardır, ey baği-ömrümün şəcəri,

İttifaq etməyin gözəl səməri.
İttifaq eyləyəndə beş barmaq,
Xeyli asandı bir şeyi tutmaq.
Yoxdur, ey sərvərim, tək əldə səda,
İttifaq ilədir sürurü səda.
Edəsən guş əgər bu timsali,
Səni filcümlə eyləyər hali.

## XƏLİFƏ VƏ BƏHLUL

Etdi Harun bir gün əzmi-şikar,
Gəldi dərya kənarın etdi qərar.
Gördü bir əl çıxıbdı dəryadən,
Düşdülər heyrətə tamaşadən.
Beş ədəd barmaq olmuş onda əyan,
Bu müəmmayə qaldılar heyran.
Atdılar gərçi xeyli top və tüfəng,
Leyk barmaqlar olmadı münfək.
Kimsənə bilmədi bu əsrarı,
Qaldılar şah mat elcarı.
Dedilər kim, bunu bilər Bəhlul,
Bunu eylər tila kimi məhlul.
Şah Bəhlulə qasid etdi rəvan,
Ta gəlib eyləsin bu rəmzi bəyan.
Oldu Bəhlul qarğı atə süvar,
Səyrədə-səyrədə gəlib rəhvar.
Etdilər ta ki, macəranı bəyan,
İki barmağını bu etdi əyan.
Görcək ol əl çəkildi dəryadən,
Qaldılar mat bu müəmmadən.
Dedi Bəhlulə şəh ki, ey dana,
Bu nə işdir, bula nədir məna?
Nə əl idi o kim, əyan oldu,
Sən ki, əl tutdun ol nihan oldu?
Bu rümuzun nə idi mənası,
Nə idi ol işarə iyması.

Dedi Bəhlul: – Ey şəhi-dövran.
O ki beş barmaq olmuş idi əyan,
O işarə edirdi, ey sərvər,
Nə qədər ki, çətin ola işlər,
Beş könül olsa cəm asandır.
Cəmlikdən ədu pərişandır.
İki barmağımı mən etdim əyan,
Eylədim mən ona bu rəmzi bəyan,
Yəni ki, bu cahanda iki könül
Cəm ola, xeyli əmrdir müşkül.
Bildi mənanı batdı dəryayə.
Seyyida, afərin bu inşayə!

## ASLAN VƏ İKİ ÖKÜZ

Bir çəragah içində iki öküz
Otlayırlardı şad, gecə-gündüz.
Nagah onlara bir qəvi aslan
Eylədi həmlə səxt seyhə-günan.
Çün öküzlər görüb o əhvali,
Oldular fikri-xəsmdən hali.
Verdilər dal-dala o heyvanlar,
Qıldı buynuzlarıyla cövlanlar.
İttifaq eyləyib dilirانə
Durdu onlar müqabil aslanə.
Gördü aslan çü surəti-karı,
Bildi ki, həmləsi deyil karı.
Görüb aslan ki, yox işində zəfər,
Oldu rubəh misalı hiylətgər.
Hiylə fikriylə ol qəvi-sovlət
Öküzün eylədi birin də’vət.
Dedi: – Ey gavi-xoşələf, hərgah
Olasan ol rəfiqdən ikrah,
Sənə minbəd etmərəm azar,
Olusan hər çəməndə bərxürdar.
Oldu aslanə müddəa peyda.

Onların parə qıldı əzasın.
Ey gözüm nuru, anla mənasın:
Əgər olsaydı ittifaqləri,
Gavlər görməz idi bu xətəri.
Xah rus əhli olsa, xah firəng
Vətən əhlilə olgilən yekrəng.
İttihad eylə, ittifaq eylə,
Üzüvü hər məkanda ağ eylə.

## TƏMSİL

Bir dəvə bir uzunqulaq ilə
Yol gedirlərdi çox dəmaq ilə.
Çatdılar bir çayın qırağına,
Dəydi bu eşşəyin dəmağına.
Dəvənin çünki su belindən idi,
Çağırıb ol uzunqulağı dedi:
– Qorxma, gəl sən də ey rəvani-tənim,
Su belimdən deyil yuxarı mənim.
Verdi eşşək cavab kim, ey yar,
Sözlərin doğrudur, yox eybü əvar.
O belindən sənin olan ənhar,
Daxil olsam mənim başımdan aşar.

## GÖZLÜ VƏ GÖZSÜZ

Bir nəfər kur şəxsəir bina
Tənə ilə dedi ki, ey əma,
Xəlqi-aləm hekayət eylərlər,
Bu sifət bir rəvayət eylərlər;
Hər kimi kur eyləsə yəzdan
Əvəzində edər ona ehsan.
Sənə ehsan nə eyləyib davər?
Dedi kor: – Ey əziz əhli-nəzər,
Bunu ehsan edib mənə tari
Görməyim sən kimi dilazari.

## OĞLUMA XİTAB

Ey oğul, nifrət eylə vahimədən,
Vahimə şumdur, müxərribi-tən.
Vahimə olsa şəxsə müstövli,
Eylər ani həlak öz hövli.
Qüvveyi-vahimə şəyatindir,
Vahimə cinniyani-bidindir.
Görməyirsən ki, şəxs olanda cünun
Vahimə qalib oldu, əql zəbun?
Rəftə-rəftə cününu bədtər olur,
Qüvveyi-vahimə müsəvvər olur.
Sanki bir şəxs ona olur peyda,
Bir-birilə olur bular guya.
Leyk zahirdə yoxdu şəxsi-digər,
Vahimə eyləyib o şəxsə əsər.
Elə hər bir məqamda cürət,
Zəhər içsən hesab qıl şərbət.
Xövflə əgər səhər yesən gülqənd,
Gətirər zəfi-mədə, ey dilbənd.
Sənə bu macəranı eylər əda,
Guş qılsan, hekayəti-hükəma.

## İKİ HƏKİM

Vardı İskəndər əsri iki həkim,
Mülki-Yunanda, vacibüt-təkrim.
Onların düşdü çün mübahisəsi –
Ki, nədəndir zəmanə hadisəsi?
Ol nə bürhan gətirdi hücrət ilə
Bu onu rədd edirdi hikmət ilə.
Hərçi ilzamə oldular talib,
Birinə olmadı biri qalib.
Aqibət şərt qıldı iki təbib,
Hərə bir zəhr eyləsin tərtib.

Bu onun zəhrini içə, o bunun,
Ta bu sövdadə kim olur məğbun?
Birisi şərbət eylədi tərtib,
Zəhr hazır qılıb ikinci təbib.
Bir-birə verdilər məhəbbət ilə,
Birisi içdi zəhri cürət ilə.
Bilmədi zəhr olduğun anın,
Belədir müqtəzası dövranın.
Etmədi xövf səmmi-nafiqdən,
Qaldı o şirdil səhih bədən.
Ol biri içdi xövf ilə şərbət,
Dari-dünyadən eylədi rehlət.
Öz işindən onu qiyas etdi,
Qorxusundan zəmanədən getdi.

## XORUZ VƏ ÇAQQAL HEKAYƏSİ

Sübh vaxtında bir qoca çaqqal,
Aclıq etmişdi çox onu bihal.
Gördü kim, bir xoruzi-rənginmu
Eyləyir bir ağacda "quqqulu-qu".
Sordu çaqqal: – Ey xoruz, nə var?
Dedi: – Vəqti-nəmazdır əzkar.
Bu minar üstə mən əzan verirəm,
Xəlqə sübh olduğun nişan verirəm.
Dedi kim, ey xoruzi-xoşavaz,
Düş aşağa qılaq xudaya namaz.
Dedi: – Bəs qoy imamımız gəlsin,
Vacibül-ehtiramımız gəlsin.
Dedi: – Kimdir imamın, ey zirək?
Dedi: – Kənd içrə zorba, qıllı köpək.
Dedi: – Bəs mən gedim bulağa tərəf,
Dəstəmazım mənim olubdu tələf.
Köpək adın eşitcəyin çaqqal
Xofdan durmadı, qaçıb filhal.

## OĞLUMA XİTAB

Cəfər, ey rahəti-rəvani-pədər,
Güli-xoşətri-gülsitani-pədər.
Sədəfi-təbimin səmin gühəri,
Vermə bir kimsəyə yaman xəbəri.
Bülbül ol, ver bahardan müjdə,
Cüğd tək xəlqi etmə pəjmürdə.
Farsidə bu fərdi bir dana
Eyləyibdir nəsihət ilə əda.
"Bülbüla, müjdeyi-bahar biyar,
Xəbəri-bəd bebumi-şum güzar".

## SƏNCAN ŞAHININ YUXUSU

Yuxuda gördü şahi-Səncani
Ki, tökülmüş təmam dəndani.
Bir müəbbirdən etdi onu sual,
Dedi: – Ey padşahi-ərşcəlal,
Bil ki, dəndandır sənə övlad,
Böylə yazmış kitabda ustad:
Öləcəkdir sənin çox övladın.
Çıxacaq ərşə ahü fəryadın.
Dedi şah: – Böylədir, deyil böhtan,
Qətlinə eylədi onun fərman.
Tünd olub padşahi-danişvər,
İstədi bir müəbbiri-digər.
Bu müəbbirdən etdi hali sual,
Dedi: – Ey padşahi-nikufal,
Gördüyün xab üçün budur təbir,
Həq sənə lütf edibdi ömri-təvil.
Çün bu rəmzi eşitdi şahi-cavan,
Verdi bu şəxsə xələti-əlvan.
Dedilər: – Ey şəhi-zəminü zəmən,
Sadir oldu əcibə iş səndən.
Hər müəbbir ki, halı etdi bəyan,

Söylədin: – Böylədir, deyil böhtan.
Birini qan eylədin qəltan,
Birinə xələt eylədin ehsan.
Dedi: – Ari, o iki mərdi-dilir
Yuxumu yaxşı etdilər təbir.
Leyk əvvəlki şəxs idi nadan,
Sözü bipərdə qıldı şərhü bəyan.
Necə əvvəlki eylədi təbir,
Sonrakı eylə qıldı həm təqrir.
Sözü lazımdı şəxs eylə desin
Ki, təbiət o sözdən incimәsin.

## HARUN VƏ ŞAİRLƏR

Gəldi Harun üçün iki şair,
Hərə bir fərd eyləyib zahir.
Bu idi fərdi-əvvələ məna,
Ki, olur yaxşı felə yaxşı cəza.
Fərdi-sanidə həm bu idi əyan,
Ki, həmişə olur yamanə yaman.
Şairi-əvvələ o fəxri-kübar
Mərhəmət qıldı min ədəd dinar.
Şairi-saniyə həm etdi əta,
Əvvəlin nisfini, o kani-səxa.
Əhli-bəzm oldu bu işə heyran,
Dedilər: – Ey xəlifeyi-dövran,
Birdi mənada kim, bu iki kəlam,
Bəs nədən oldu müxtəlif ənam?
Dedi kim, şəxs olsa xoşniyyət,
Yaxşılıqdan müdam edər söhbət.
Var idi tinətində çünki səfa,
Yaxşılıq fərdin eylədi o əda.
Ol birində yamanlıq oldu nihan,
Odu kim söylədi yamanə yaman.
Sifəti-sahibi-kəlamdı soz,
Batin asarına təmamdı söz.

## İTLƏ PİŞİYİN SÖHBƏTİ

Bir pişiyə it dedi: – Ey bihəya,
Evdə edirsən gecə-gündüz səfa.
Süfrə kənarında yeyirsən təam,
Kürsülər üstündə edirsən məqam.
Eylə yeyirsən gecələr aş sən,
Sübh yeyirsən yenə bozbaş sən.
Sən nə səbəb böylə əziz olmusan,
Kim eyləyib hökm təmiz olmusan?
Söylə, nə olmuş ağaya xidmətin
Vacib olubdur bu qədər hörmətin?
Eyləyirəm sübhə kimi mən fəğan,
Dövlətə, mala oluram pasiban,
Mən çəkirəm sübh açılınca keşik
Hərgiz itə tay ola bilməz pişik.
Çox gecə var ki, yatıram ac mən,
Dərd ilə bir löqməyə möhtac mən.
Getməyirəm özgə yerə nan üçün,
Səbr edirəm möhnəti-pünhan üçün.
Əgərçi ağa döysə məni qaçmaram,
Hər yetənə dərdi-dilim açmaram.
Muşqura hərgah bularam quyruğu
Ta ki, ağanın nə ola buyruğu.
Cümlə cahan mərdümü, ey bəd-əməl,
Etdi vəfadə məni zərbül-məsəl.
İndi bəyan eylə mənə halını,
Ta ki, bilim surəş-əhvalını.
Gör pişiyi ki, itə verdi cavab,
Söylədi: – Həqdir bu itabü xitab,
Hər nə dedin – həqdi, yoxdur xilaf,
Sözlərinin biri deyildir kəzaf.
Leyk sənə qoy eləyim mən bəyan,
Surəti-əhvalını, ey bağrıqan.
Halına ol indi xəbərdar sən,
Bil nə səbəbdən belə murdarsən.
Xeyr işə mənnasən, ey bulhəvəs,
İstəməsən xeyr apara bircə kəs.

Əgər gəlibən sail edə nan tələb,
Sən eləyirsən ona qəhrü qəzəb.
Damənini parə qılırsan onun,
Sən gününü qarə qılırsan onun.
Versə xanım sailə bir parça nan
Qeyz ilə canın çıxar, ey bədgüman.
Cümlə bu aləm başına dar olur,
Rövşən olan dəhr sənə tar olur,
Manei-xeyr olma dəxi, Seyyida,
Qoy qapıdan xeyr aparsın gəda.
İt kimi tutma dəxi damanını,
Rahət elə əhli-tələb canını.
Kimsə ki, bir xeyr işə mane ola,
Dəyməz onun varlığı bircə pula.
Çoxdu hədis ilə bu əmrə dəlil,
Abid ola cənnətə getməz bəxil.

## ALİMİN ZALIM PADŞAHA CAVABI

Dedi bir əhli-elmə bir zalim:
Key olan şər sirrinə alim!
Mənim üçün buyur ibadətdən,
Hansı əfzəldi cümlə taətdən?
Dedi: – Ey padşahi-zülmşitab,
Sənə əfzəldi hər bir işdən xab,
Ta yatan vaxtda, ey fələkgirdar,
Görməyə xalq bir nəfər azar.
Padşəhlərdə ədl əhsəndir,
Fitnənin yatmağı mühəssəndir.

## HƏCCAC İLƏ DƏRVİŞİN SÖHBƏTİ

Bir duası qəbul olan dərviş
Saldı Bağdad şəhrinə təşviş.
Hər nə hacətçün eyləsəydi dua,
O duanı qəbul edərdi xuda.

Onu Həccac eylədi ehzar,
Dedi: – Qıl bir duayi-xeyr izhar.
Əl götürdü, dedi: – Xudavənda,
Cismdən canını sən eylə cüda.
Dedi Həccac: – Ey məlaikxu,
Səni tari, nə bəd duadır bu?
Dedi: – Bu bir duayi-əhsəndir,
Həm sənə, həm bizə mühəssəndir.
Sən ölüb etməsən günahi-ziyad,
Sitəmindən cahan olar azad.
Nə gərəkdir sənə bu təxtü bu tac
Ki, olub payimal hər möhtac.
Mərdümazarlıq yaman işdir,
Belə qalmaqdan ölməyin xoşdur.

## PADŞAH VƏ BAĞBAN

Sübh bir padşah oldu səvar,
Edibən sür'ət ilə əzmi-şikar.
Şəhrdən çıxdı ol fələkmiqdar,
Oldu bir mərdi-bağbanə düçar.
Rəm qılıb bağbandan ol heyvan,
Yerə atdan yıxıldı şahi-cahan.
Şəh qəzəblə çağırdı fərraşın,
Dedi: – Al tiği, kəs bunun başın!
Ağlayıb söylədi o zarü fəqir:
– Nədir, ey şah, bəndəyə təqsir?
Buyurub: – Çünki şum adəmsən,
Səni görcək yıxıldım atdan mən.
Dedi: – Ey şah, mən dəxi bu səhər
Görmədim səndən özgə bircə nəfər.
Məni görcək yıxıldı şahi-cahan,
Leyk bir üzvü tapmadı nöqsan.
Sən nə gör şumsən, özündən utan,
Qətlimə qıldın axırı fərman.
Görməsəydim əgər bu didarı,
Olmaz idim əcəl giriftarı.

Xoş gəlib şahə ol zərif kəlam,
Ona şəmşirin eylədi ənam.
Deyib əhsəntü bu kəlamə ki, sən
– Gənci-göftari-nəqzə məhrəmsən.
Ey zəban, ey kilidi-gənci-süxən,
Sən gəhi gənc, gahi əjdərsən.
Gah sən zəhrü, gah şəkkərsən,
Gahi mərhəm, gəhi çü neştərsən.
Mənə hər nə bəla olur hadis,
Ona sənsən zamanədə bais.

## LOĞMANIN SATILMASI

Belə derlər ki, Həzrəti-Loğman
Həbəş əhliydi, ya ki ol Sudan.
Ona dəydi həvadisin xətəri,
Satdılar qul kimi o pürhünəri.
Yusif asa o mahi-ürfanı
Keyd ilə satdı fövci-ixvanı.
Qul xəyal eylədi ələzzahir,
Aldı Loğmanı bir nəfər tacir.
Bir siyəhfam idi sitəbri-ləban
Leyk təlimbəxşi-biədəban.
Fəhmini gördü çünki ağası,
Oldu onun yeganə mövlası.
İmtəhan ilə bir gün ol mövla
Dedi: – Lazımdı bir lətif ğiza
Ki, ola həm lətif, həm şirin,
Ta tənavül qılam məni-qəmgin.
Etdi Loğman hikmət ilə əməl,
Hikmətin kanı ol əmiri-əcəll.
Bir quzu zibh eylədi Loğman,
Dilini eylədi onun büryan,
Hazır etdi hüzuri-mövlayə,
Yedi zövq ilə ol fələkpayə.
Yenə bir ayrı gündə ol mövla

İstədi bir acı, kəsif ğiza.
Yenə Loğman gətirdi büryan dil,
Açma bu rəmzi, od tutub yan, dil!
Leyk sərbəstə qalsa bu məna,
Xoş deyil, eyləmək gərək ifşa.
Bədgüman oldu sahibi-Loğman,
Gördü ziddini bir ğizadə əyan.
İki dəfə gətirdi büryan dil,
Dedi: – Hikmətdə bu deyil kamil.
Bu qulun gərçi çox fərasəti var,
Leyk bu işdə səhvü qəfləti var.
Səhvkarın özündən etdi sual
Ki, nədir böylə müxtəlif əhval?
Bir ğiza mümkün olmayıbdır həmin
Həmi acı ola, həmi şirin.
Dedi: – Ey bu sual möhtacı,
Dildü kim, zəhrdən olur acı.
Gah şəkərdən olur bu dil şirin,
Qandı mövlası, eylədi təhsin.
Qıldı təhsin kəmali-Loğmanə,
Fikri-bikrü xəyali-Loğmanə.

## ÖYÜD

Ey oğul, bil ki, adəmi-bikar
Xüşk olan bir odundu layiqi-nar.
Bunu bizdən deyibdilər əqdəm,
Sənəti olmayan deyil adam.
Puç olub getsə dövlətin vayə,
Yenə sənətdir əldə sərmayə.
Əgər ticarətçün olmasa dövlət,
Səy qıl, hasil eylə bir sənət.
Elmdir əhli-sənətin hünəri,
Elmsiz sənətin nədir səməri.
Elmsiz sənətin nə miqdari,
“Kari-buzinə” nist nəccari.

## DƏVƏ VƏ BALASI

Azim olmuşdu karivani-ərəb,
Bir şütürbəççə çəkdi rəncü təəb.
Çün yoruldu o nazəninrəftar,
Öz anasına eylədi izhar.
Dedi: – Ey madəri-qəviəndam,
Bir zaman yatgilən, tutaq aram.
Bu nə seyrü bu nə səyahətdir,
Nə məşəqqət, bu nə mərarətdir?
Gəlmisən dağlar üstə cövlanə,
Düşmüsən Qeys tək biyabanə.
Dedi: – Ey tifli-şirxarə, məgər
İxtiyarımladır mənim bu səfər?!
Olsa idim bir ixtiyar içrə,
Çəkməz idim yükü qatar içrə.
Sarbanın əlində oldu mahar,
Hər tərəf çəksə eylərəm rəftar.
Gərçi məndən tapır bu fel südur
Mənəm aləmdə faili-məcbur.
Gedirəm, əldə bir maharım yox,
Öz əlimdə bir ixtiyarım yox...

## EŞŞƏK VƏ ARILAR

Bir neçə kəndi gördü bir eşşək,
Arılar onda işləyir bişək.
Gördü bir xaneyi-müqəddəs var,
Beyti-şeşguşə içrə çox kəs var.
Padşahın hüzuruna getdi,
Şahi-yəsubdən sual etdi.
Dedi: – Bu kənddə nədir məqsud,
Saz olur gündə nayü bərbətü ud?
Sizə hasil nədir bu qovğadən?
Vaqif eylə məni bu mənadən.

Dedi: – Biz səbzəyə olub çirə
Edərik cəm kəndiyə şirə.
Dedi eşşək ki, yəni şirə nədir?
Olmusuz səbzə üzrə "çirə" nədir?
Bir qədər bal dadızdılar eşşəyə,
Yedi eşşək çü balı, düşdü şəkə.
Düşdü bir fikrə eşşəyi-nadan,
Ta gedib otlasın o da qalqan,
Gəlibən çəksin arı tək şirə,
Könlünü verdi fikrə, tədbirə.
Yedi qalqanı, gəldi saldı peyin,
Ki, iyindən tutuldu baş və beyin.
İylədi, daddı, gördü bal deyil,
Yediyi bala bu misal deyil.
Kəndiyə gəldi vurdu bir şıllaq,
Arıları dağıtdı ol sərsaq.
Gördü bir ayrı arı bu halı,
Arılardan soruşdu əhvalı,
Dedi ki, söylə nə bəladır bu,
Nə müsibət, nə macəradır bu?
Dedi bir arı arıya: – Ari,
Biz bu yolda itirmişik ari.
Eşşəyə bal dadızmışıq qafil
Olmuşuq fəzlü əqldən cahil.
Bu qəmü, dərdə mübtəla olduq,
Sahibi-möhnətü bəla olduq.
Eşşəyə bəs dadızsa hər kəs bal,
Dağılar xanəsi onun bu misal.
Seyyida, elmi açma nadanə,
Ki, düşərsən cahanda nöqsanə.
Çəkmə kalayi-şeri bazarə,
Gövhəri ərz elə xəridarə.
Nə bilir dürr qədrini əllaf,
Yoxdu bazari-dəhrdə sərraf.

## QAZ VƏ DURNA

Bir göl içrə üzürdü bir yekə qaz,
Özünə fəxr edib uzatdı boğaz.
Dedi: – Mən bir əcibə cür quşam,
Üç hünər var məndə xeyli xoşam.
Uçaram göydə, həm suda üzərəm,
Quru yerdə boyun çəkib gəzərəm.
Bəs, mənəm quşların şahənşahı,
Durna oldu bu nəqlin agahı.
Dedi: – Axmaqlığında yoxdur şəkk,
Qamətindir diraz, əql gödək.
Göydə tərlan tək uçmağın varmı,
Ya maral kimi qaçmağın varmı?
Bir balıq tək üzərmisən suda,
Nədi bu göftguyi-bihudə?
Qaz utandı o göldə durnadən,
Vaqif ol, ey oğul, bu mənadən.
Yəni bir elmə daim ol talib,
Zifən ol zifünunədir qalib.
Kişi bir sənəti bilər xalis,
Çoxuna meyl edən qalar naqis.

## FƏQİHİN OĞLUNA CAVABI

Bir fəqihə öz oğlu etdi xitab,
Dedi key fazili-büləndcənab,
Bircə vaizlərin sözündən əsər
Görmürəm mən özümdə zərrə qədər.
Bu səbəbdən ki, görmüşəm səd bar
Yoxdu girdarı tabiqi-göftar.
Tərki-dünyanı eyləyir təlim,
Özləri cəm eyləyir zərü sim.
Əhli-dünyayə virdi lə’nətdir,
Gecə-gündüz xəyalı dövlətdir.
Alimin ki, özündə yoxdu hünər,

Eyləməz bir kəsə kəlamı əsər.
Hər bir alim ki, olsa tənpərvər.
Ola bilməz o bir kəsə rəhbər.
Xəlqə söylər ki, eyləyin ehsan,
Özünün nəfsini edər nisyan.
İtiribdir özün ki, ol fazil
Ola bilməz o rəhbəri-cahil.
Verdi alim cəvab, key cahil,
Etdiyin bir xəyaldır batil.
Əgər tələb etsən alimi-məsum,
Qalısan feyzi-elmdən məhrum.
Baxma alimdə felü kirdarə,
Əməl et, olsa nik göftarə.
Yaxşı söz kimdən olsa zibadır,
Demə bu mömінü o tərsadır.

## İSKƏNDƏRİN VƏSİYYƏTİ

Dəmi-nəzi-rəvanda İskəndər
Eylədi bir vəsiyyət ol sərvər
Ki, anama deyin bu göftarı,
Xəlqə ehsanım eyləsin cari.
Leyk hər kəs çəkibdi dərdü bəla
Yeməsin ol təamdan qəta.
Çünki saz oldu neməti-əlvan,
Qıldı anın vəsiyyətini bəyan
Ki, gərək əkl etsin ol adəm.
Çəkməyibdir cahanda möhnətü qəm.
Mütənəbbih olub kəlamından,
Hamı çəkdi əlin təamından.
Çünki çəkmişdi hamı möhnətü qəm,
Çıxmadı hiç bir nəfər xürrəm.
Madəri-əşkbari-İskəndər
Əgərçi olmuşdu zari-İskəndər,
Bildi ki, mərgə yoxdu bir çarə.
Hamının qəlbinə dəyib yarə.

Dilbəra, çox da çəkmə möhnətü qəm,
Könlüvü eylə qəm günü xürrəm.
Gərdişi-çərxi-kəcmədar keçər,
Bu qəmü dərdi-ruzgar keçər.

## OĞLUMA NƏSİHƏT

Ey oğul, xəlqə söyləmə böhtan,
Yaxşıya yaxşı ol, yamanə yaman.
Əsldə yaxşı olsa bir dana,
Sən "yamandır" – demək, deyil ziba.
Tutalım sən gülü dedin "bədbu",
Xalq söylər ki, əqlsizdir bu.
Sənə bir yaxşı kimsə olsa yaman,
Xalq onu söyləməz yaman, ey can.
Yaxşıdır ol ki, əsli, bünyani,
Sən "yamandır" – desən nə nöqsani?
Sən dedin ki, deyil xəlifə Ömər,
Ömərə bu kəlamdən nə zərər?
Sən dedin ki, deyil imam Əli,
Olmadı zaye ehtirami-Əli.
Dedilər: – Müstəfani-sahirdir
Var cünuni, səfihü şairdir.
Tapmadı şəni-Müstəfa nöqsan,
Yaxşını eyləmək olurmu yaman?!

## ARVADINI BOŞAMIŞ KİŞİ

Verdi bir şəxs övrətinə təlaq,
Vəchin ondan soruşdu bir sarsaq.
Dedi ol şəxs: – Ey səfihü-dəğa,
Eybdir etdiyin sual sana.
Belə biqeyrətəm məgər, ey pir,
Övrətim eybini qılım təqrir.
Çəkdi sail sualdan xiclət,

Bu hekayətdən ötdü bir müddət,
Getdi bir şəxsi-digərə ol zən,
Yenə bu sordu ol rəfiqindən.
Dedi: – Ey dost, indi ol övrət
Oldu bir şəxsi-digərə qismət.
Nə üçün sən təlaqini verdin,
Onda aya nə bəd əməl gördün?
Dedi ki, ey bəradəri-nadan,
Sorduğun eybi-narəvadən utan!
O gedib özgəyə olubdur zən,
Soruşursan qəribə söz məndən.
Mən sənə özgə söhbətin danışım,
Özgənin eybi-övrətin danışım?
Sorma, xamuş ol bu söhbətdən,
Xövf qıl zilləti-qiyamətdən!

## MƏMUNUN KƏNİZİ

Aldı Məmun bir kənizi-lətif,
Bərgi-gül tək lətifi xülqü zərif.
Şəbi-xəlvət o sərvi-xoşqamət
Durdu Məmundan eylədi nifrət.
Xişmnak oldu padişahi-qəyur,
Çün özündən görüb kənizi nəfur.
Nə qədər bənd oldu miri-əcəll,
Padişahə kəniz vermədi əl.
Dedi: – Məmun, key fəriştəcəmal,
Xatirində nədəndi rəncü məlal?
Ərz qıldı kəniz, key mövla,
İstər öldür və ya ki eylə rəha
Ki, gəlir buyi-bəd dəhanından,
Qaçıram, vəchi var ki, yanından.
O gecə hiç yatmayıb Məmun,
Qüssədən oldu sübhədək dilxun.
Sübh qıldı təbiblər ehzar,
Dərdi-pünhanın eylədi izhar.

Qıldılar dəfinə əlaci-niku,
Dəhəni oldu gül kimi xoşbu.
Dost tutdu kənizi şahi-əcəm,
Oldu hər sübhü şam ona həmdəm.
Mənə çox dostdur bu siməndam,
Ki, mənim eybim eylədi elam.
Eybi örtən rəfiq gövdəndir,
Onu sən dost sanma düşməndir.
Seyyida, sanma dostdur, zinhar,
Kim sənə eybin eyləməz izhar.

## SÜLEYMAN VƏ QARĞA

Belə nəql etdi raviyani-kəlam
Ki, Süleyman nəbi əleyhi-səlam,
Dedi kim, bir kəlağə eylə güzər,
Cümlə nəsli-tüyurə eylə nəzər,
Hansı ki, hüsndə ola ziba,
Götürüb gəl hüzuruma hala.
Bişəyə ol kəlağ qıldı güzər.
Etdi nəsli-tüyurə cümlə nəzər.
Nəzərində göründü pəstü bülənd,
Etmədi hiç bir güruhu pəsənd.
Öz balasına gəldi qıldı nəzər,
Eylədi batini məhəbbət əsər.
Dedi ki, cümlədən bu zibadır,
Bəs bunu töhfə eyləmək uladır.
Götürüb düşdü əzmi-cövlanə,
Gətirib xidməti-Süleymanə.
Çün Süleyman o ziştə qıldı nəzər,
Dedi kim, ey kəlaği-bədmənzər.
Yoxdu quşlar içində bundan zişt,
Çox kərihül-cəmalü şumü dürişt.
İnkisar ilə ərz qıldı kəlağ,
Dedi ki, hər tərəfə çaldım ayaq,
Eylədim cümleyi-tüyurə nəzər,

Öz balamdan biri deyil behtər.
Bunda şək yoxdur, ey rəsuli-xuda,
Hər kəsə öz balasıdır ziba.
Seyyida, oğlun olsa kor və keçəl,
Görünür hamıdan gözündə gözəl.

## LOĞMANIN VƏQƏSİ

Belə təqrir ediblər əhli-bəyan,
Həbəş əhliydi Həzrəti-Loğman.
Surəti sanki bir tutulmuş mah,
Ləb sitəbr idi, rəngi-ruyi siyah.
Dedilər: – Ey güli-riyazi-ədəbs
Sənə nə hüsn əta edibdir rəb?
Dedi: – Pərvərdigari-ərzü səma
Hüsni-batin mənə edibdir əta.
Hüsni-zahir əgərçi əhsəndir,
Leyk ondan ədəb mühəssəndir.
Hüsndür gərçi bir ətiyyeyi-rəb,
Leyk ondan gözəldir hüsni-ədəb.

## ASLAN VƏ QARIŞQA

Yay günü isti idi, bir aslan
Bir mağara içində oldu nihan.
Ta ki rahət ola hərarətdən,
Dincələ zəhmətü mərarətdən.
Üstünə bir qarışqa çıxdı rəvan,
Gəzibən seyr eylədi hər yan.
Diksinib şir durdu vəhşətdən,
Tülkü güldü ona o halətdən.
Dedi: – Ey canəvərlərin şahı,
Ucalan ərşə xeylü xərgahı,
Səndə kim, bu hünər, bu qüdrət var,
Zati-pakında kim, şücaət var,

Mur kim, bir zəif xilqətdir,
Bəs nə dersən, bular nə vəhşətdir?
Dedi: – Ey tülkü, vəhşətim yoxdur,
Murdən hiç zəhmətim yoxdur.
Leyk bu ardır mənə peyda,
Ki, çıxa padşahın üstə gəda.
Seyyida, vermə üz gədalərə sən,
Düşmə bu möhnətü bəlalərə sən.
Çün güli-gülşəni-vəfasan sən,
Niyə hər xarə aşinasən sən?!
Bülbülü-gülşəni-həqiqətsən,
Mu-məcaz ilə qılma ülfət sən.
Qəfəsi-cismi sal bu viranə,
Eylə pərvaz baği-rizvanə.

## QARI VƏ OĞLU

Var idi şəhri-Reydə bir qarı,
Duz yerinə satardı ol qarı.
Ümmi-təlbisü madəri-təzvir,
Hiyləsindən dolub bu aləmi-pir.
Bir cavan oğlu var idi ziba,
Bağı-izzətdə bir güli-rəna.
Qonşudan bir gün ol rəsidəcavan
Bir yumurta oğurladı pünhan.
Sirqətə gərçi ol deyildi həris,
Nənəsi eylədi onu təhris.
Əvvəl olmuşdu əgər nihan oğru,
Aqibət oldu bir yaman oğru.
Rahzən, düzd, şəbrövü əyyar,
Oldu axır həramilər ilə yar.
Əhli-divan etdilər tədbir,
Ta ki etsinlər o cavanı əsir.
Şah hökm etdi ki, çəkin darə!
Şahə yalvardı kim, o biçarə
İzn ver bir zaman anam gəlsin,
Ölürəm, ta ki halımı bilsin.

Anasın gördü ol günü qarə,
Çəkdi ağuşa, yetdi didarə.
Dedi: – Ey madəri-həmidəxisal,
Dilüvi lütf eylə, ağzıma sal.
Ölürəm, çünki iştiyağından,
Ta öpüm bir o dil-dodağından.
Dilini verdi ağzına madər,
Onu üzdü dişiylə ol sərvər.
O qarı etdi naləvü fəryad,
Key haramzadə, de nədir bu fəsad?
Şah sual etdi surəti-hali,
O cavan şahı eylədi hali.
Dedi: – Ey şah, ibtidadə əgər
Mənə olsaydı bu nəsihətgər,
Oğru olmazdım, ey şəhi-vala,
Mənə yetməzdi heç böylə bəla.
Pəs anamdır bu möhnətə bais,
Bu qəmü dərdü zillətə bais.
Bu səbəbdən mən, ey şəhi-dövran,
Eylədim ol ləini qəti-lisan.
Bir lisan xeyrə olmasa guya,
Ona lazım gəlir bu gunə cəza.
Şaha xoş gəldi bu lətif kəlam,
Eylədi ol cavanə bəs ikram.
Oldu qəmdən xilas o biçarə,
Ədli-şəh çəkdi qarını darə.

## AYI VƏ SİÇAN

Bir ayı yatmış idi rahətlə,
Uzanıb xeyli istirahətlə.
Bir siçan ayı üstdən etdi güzar,
Oldu ol ayı xabdən bidar.
Əl atıb muşi eylədi nəxcir,
Durdu yalvarmağa ona o fəqir.
Dedi ki, sən məni gəl eylə rəha,
Yer düşər, eylərəm əvəz peyda.

Ayı güldü, onu rəha qıldı,
Siçanın mətləbin rəva qıldı.
Bir zaman ovçu qurmuş idi dam,
Düşdü dam içrə ol qəvi-əndam.
Nə qədər zur qıldı ol məğrur,
Damı qırmaqlıq olmadı məqdur.
Bağırıb naləvü fəğan etdi,
Göz yaşın seyl tək rəvan etdi.
Ayının naləsin eşitdi siçan,
Bildi kim, dami-dərdədir piçan.
Gəldi kəsdi dişiylə ol damı,
Ayıya eylədi sərəncamı.
Dedi ayı ki, qalmadım qəmdə,
Yaxşılıq itməz imiş aləmdə.

## HEKAYƏT

Omiros adlı bir həkimi-zaman
Ərzi-Yunanda olmuş idi əyan.
O həkimü ədibü şair idi,
Şeir fənnində xeyli mahir idi.
Bir nəfər mərd söylədi anə
Key hünərvər, həkimi-fərzanə.
Deyiləm gərçi mədhə mən layiq,
Həcvinə lakin olmuşam şaiq.
Bir neçə beyt həcv qıl məzkur,
Ta olum cümlə aləmə məşhur.
Etmədi ol sözü həkim qəbul,
O təmənnadə şəxs oldu məlul.
Dedi: – Bəs, ey ədibi-mülki-cahan,
Deyərəm xalqa kim, həkimi-zaman
Bim edir məndən ol bədikəlam.
Eyləməz həcvə qorxudan iqdam.
Gör o şəxsə həkimi-fərzanə
Nə cavab eylədi həkimanə.
Dedi ki, bəs desən ki, şiri-jəyan
Qorxudan vurmadı itə dəndan,

Heç kəs səndən eyləməz bavər,
Şir fəzlin bilirlər əhli-hünər.
Dedi ol şəxs: – Eyyühəl-fazil,
Oldu, min şükr, mətləbim hasil.
Sağ ol, ey filosofi-danişvər,
Mənə bu həcv xud kifayət edər.

## HEKAYƏT

Bir fəqirin işi düşüb ləngə,
Gəlmiş idi zəmanədən təngə.
Dedi: – Bir şəxs ona ki pünhani,
Var bu şəhr içrə bir səxa kani.
Bağlayıbdır səxavət ilə kəmər,
Bəzlü bəxşişdi şüğlü şamü səhər.
Bilsə əhvalını o kani-səxa,
Sənə bişübhə nemət eylər əta.
Dedi: – Kimdir o, bilmirəm haşa,
Dedi: – Ollam dəlili-xeyr sana.
O fəqirin alıb əlin əlinə,
Bəs gətirdi o şəxs mənzilinə.
Gircəyin mənzilə o dil-məyus,
Gördü bir şəxs qəmtərirü əbus.
Dodağın sallayıb, töküb qaşın,
Zilləyibdir ayağına başın,
Çıxdı dərhal bəzmdən o fəqir,
Hacətin heç etmədi təqrir.

## ÖYÜD

Ey oğul, olma hiç gədayə-tələb,
Ki, gədalarda yoxdu şərmü ədəb.
Rəsmdir kim, gəda olur kahil,
Kahili küfr söyləyib aqil.
Mərdi-kahildə kim görüb qeyrət,
Abi-rudən düşər o bədtinət.

Eyləməz taəti-xudayi-cəlil,
Olu bie'tibar, xarü zəlil.
Olma dun-təb olan xəsisə cəlis,
Ki, xəsisin olur cəlisi xəsis.
Eyləmə hər gəda ilə ülfət,
Şəxsi-təmadən elə nifrət.
Ey oğul, tutma nanəcib ilə xu,
Türkdə bir gözəl məsəldir bu:
At yanında ki, bağladın yabu,
Rəngi bir olmasa, olur həmxu.
Fürsdə bir səramədi-dövran
Bu sözü beylə eyləyibdü bəyan:
"Xupəzir əst təbi-insani,
Babədan kəm nişin ki, bəd mani".
Ey oğul, bu hekayəti-ziba
Sənə bu macərani eylər əda.

## HİKMƏT

İki aqil kəs eyləməz dava,
Eyləməz bir-birinə büğz əsla.
Çəng axmaqla eyləməz aqil,
Ağlı başında olsa əgər kamil.
Onu nadan söysə vəhşətlə,
Bu onu ram edər fərasətlə.
Dostluq bil ki, tari-mu kimidir,
Büğz bir daş, o səbu kimidir.
Əgər iki dost olsa sahibdil,
Onu hifz eyləmək deyil müşkil.
Saxlayar bir tükü ki aqil,
Hər ikisi əgər deyil cahil.
Hər ikisi ki, olsa tirəzəmir,
Onlara tab eyləməz zəncir.

## MÜNDƏRİCAT

*Öyrədən poeziya* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

**Xaqani**
Savalan dağının tərifi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8
Şirvanın tərifi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8
Gənclərə nəsihət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
Təmsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
Əmim Kafiyəddin Ömər ibn-Osmanın tərifi . . . . . . . . . . . . . . 11
Vətən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14

**Nizami Gəncəvi**
Oğlum Məhəmmədə nəsihət . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
Bərdənin tərifi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17
Yaz. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Yay. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Payız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Az danışmağın gözəlliyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Zülmə qatlaşmamaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Nuşirəvan və bayquşların söhbəti. . . . . . . . . . . . . . . . . . . . . 22
Süleyman və əkinçi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
Sultan Səncər və qarı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26
Kərpickəsən kişinin dastanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
Yaralı bir uşağın dastanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Şah və xidmətçi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30
Xeyir və Şər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
Vətən, xalqa xidmət və xeyirxahlıq haqqında . . . . . . . . . . . . 51
Sülh, müharibə, ədalət və zülm haqqında . . . . . . . . . . . . . . . 55
Dostluq və düşmənçilik haqqında. . . . . . . . . . . . . . . . . . . . . 57
Çalışqanlıq və tənbəllik haqqında. . . . . . . . . . . . . . . . . . . . . 63
İdrak və cəhalət haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Söz, şeir, sənət və söhbət haqqında . . . . . . . . . . . . . . . . . . . 71
Şənlik və sərxoşluq haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 78
Eşq, vüsal, hicran, düzlük və sədaqət haqqında . . . . . . . . . . . 81
Gənclik, qocalıq və övlad tərbiyəsi haqqında . . . . . . . . . . . . 87
Səbr, qənaət, hər şeyin həddini bilmək və sirr saxlamaq haqqında . . . . . . 91
Səhhət və təbabət haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
Zəmanə və zəmanədən şikayət . . . . . . . . . . . . . . . . . . . . . . 98
Dövlət və ehtiyac haqqında. . . . . . . . . . . . . . . . . . . . . . . . . 104
Şah və şah sarayı haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . 107

**Nəsimi**
Ey nuri-dilü didə . . . 109
Nəzər eylə istərlər. . . . 111

**Xətayi**
Eylə . . . 112
Eylə . . . 112
Gərək . . . 113
Bir söz . . . 114
Baharın tərifi . . . 115

**Məhəmməd Füzuli**
Meyvələrin söhbəti . . . 119

**Qurbani**
Dar olmaz . . . 131
Ayrı . . . 131
Dolana-dolana . . . 132
Eyləmək olmaz . . . 133

**Abbas Tufarqanlı**
Sındırar . . . 134
Bar olmaz. . . . 134
Bəyənməz . . . 135

**Xəstə Qasım**
Yaxşıdı. . . . 136
Eylər-eylər . . . 136
Olmaz. . . . 137
Kəkliklər . . . 138
Deyərlər. . . . 138

**Molla Pənah Vaqif**
Qızlar . . . 140
Durnalar . . . 140
Yoxdur . . . 141

**Qasım bəy Zakir**
Bahar oldu . . . 142
Ay mədəd . . . 142
Arzular . . . 143

Çəkər . . . 144
Olurmu? . . . 145
Sədaqətli dostlar haqqında . . . 145
Tülkü və qurd . . . 148

**Abbasqulu ağa Bakıxanov**
Əməlin cəzası (“Mişkatül-ənvar” əsərindən hind əfsanəsi) . . . 150
Vəziri məhv etmək üçün fitnəkarların tədbiri . . . 152
Vəzirin tədbir ilə təhlükədən xilas olması . . . 155
Vəzirin geri qayıdıb pis fikirli düşmənləri cəzasına çatdırması . . . 156
Ümidin boşa çıxması . . . 158
Hikmətin fəziləti . . . 161
Haqq söz . . . 163
Kor . . . 164
Məlamət əlaməti . . . 165
Qarı və Harun . . . 165
Uşaq və günəş . . . 166
Yersiz minnət qoymaq . . . 166
Tülkü və qoyun . . . 167
Xəyalın uçuşu . . . 170

**Mirzə Həsən Qarabaği**
Kəndli və ayı . . . 179
Şir və siçan . . . 180
Əfi ilan və cavan oğlan . . . 183
Nəsihətnamə (Kibr və lovğalıq haqqında) . . . 185
Elm haqqında . . . 187
Yoldaşlıq barəsində . . . 189

**Hüseyn Şəmkirli**
Danışma . . . 191
Yüyür . . . 191

**Aşıq Ələsgər**
Varıymış . . . 194
Qaldı ki, qaldı . . . 194
Qalmadı . . . 195
Dünyada . . . 195
Gərəkdir . . . 196
Görmədim . . . 197

Dağlar . . . 198
Dünyada . . . 199
Eylər . . . 199
Çıxıbdı . . . 200

**Seyid Əzim Şirvani**

Mircəfərə xitab . . . 201
Öyüd . . . 202
Müctəhidin təhsildən qayıtması . . . 203
Molla və çoban . . . 206
Müaviyənin qonağı . . . 207
Sadəlövhlüyün tənqidi (Oğluma nəsihət) . . . 207
Xan və dehqan . . . 208
Allaha rüşvət . . . 209
Sadəlövh nökər . . . 210
Qazının axmaqlığı . . . 211
Nəsihət . . . 212
Maral hekayəsi . . . 213
Siçan balasının sərgüzəşti . . . 214
Nəsihət . . . 215
Xəlifə və Bəhlul . . . 216
Aslan və iki öküz . . . 217
Təmsil . . . 218
Gözlü və gözsüz . . . 218
Oğluma xitab . . . 219
İki həkim . . . 219
Xoruz və çaqqal hekayəsi . . . 220
Oğluma xitab . . . 221
Səncan şahının yuxusu . . . 221
Harun və şairlər . . . 222
İtlə pişiyin söhbəti . . . 223
Alimin zalım padşaha cavabı . . . 224
Həccac ilə dərvişin söhbəti . . . 224
Padşah və bağban . . . 225
Loğmanın satılması . . . 226
Öyüd . . . 227
Dəvə və balası . . . 228
Eşşək və arılar . . . 228
Qaz və durna . . . 230
Fəqihin oğluna cavabı . . . 230

İskəndərin vəsiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 231
Oğluma nəsihət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 232
Arvadını boşamış kişi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 232
Məmunun kənizi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233
Süleyman və qarğa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234
Loğmanın vəqəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235
Aslan və qarışqa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235
Qarı və oğlu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 236
Ayı və siçan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 237
Hekayət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 238
Hekayət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239
Öyüd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239
Hikmət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 240

# AZƏRBAYCAN
# UŞAQ ƏDƏBİYYATI
# ANTOLOGİYASI

ÜÇ CİLDDƏ

I CİLD

**XX ƏSRƏ QƏDƏRKİ UŞAQ ŞERİ**

“ÖNDƏR NƏŞRİYYAT”

BAKI–2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Fərida Səmədova* |

Yığılmağa verilmişdir 07.12.2004. Çapa imzalanmışdır 30.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 15,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 174.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.